# İSLAM HƏMRƏYLİYİNƏ ÇAĞIRIŞ

**HARUN YƏHYA (ADNAN OKTAR)**

**Oxucuya**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Müəllifin bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır. Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında isbat və razısalıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, müəllifin şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

## MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən müəllif Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30 000 şəklin olduğu cəmi 45 000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir. Müəllifin təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Müəllif tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Müəllif bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Müəllifin bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir. Belə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox başqa ölkəsində sevilərək oxunur.

İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, suahili (Tanzaniyada işlədilir), hausa (Afrikada geniş işlədilir), divehi (Maldiv adalarında işlədilir), danimarka və isveç kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir. Dünyanın dörd bir tərəfində böyük rəğbətlə qarşılanan bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanının dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər batil görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olublar. Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Müəllif bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür. Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır. Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və əhəmiyyətli bir təsiri olmayan ümumi təcrübə ilə kifayətlənən kitabları yaymaq isə zəhmət və zaman itkisinə səbəb olur. İmanı qurtarmaq məqsədindən çox, müəllifin ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın

əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, dürüstlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# MÜNDƏRİCAT


İkinci nəşrə ön söz

Ön söz

Giriş

İslam: dünyanı aydınladan nur

Niyə İslam Birliyi?

Necə bir İslam Birliyi?

İslam Birliyi müsəlmanlara nə qazandıracaq?

ABŞ, Yaxın Şərq və İslam Birliyi?

İslam Birliyinin Qərb dünyasına faydası

İslam Birliyi müjdəsi

Nəticə

Təkamül yalanı

# İKİNCİ NƏŞRƏ ÖN SÖZ

İslam Birliyinin qurulması ilə təkcə İslam dünyası deyil, bütün dinlərin mənsubları və hər düşüncədəki insanlar xilas olacaq. Bu birlik dünyanın hər yerinə qardaşlıq, dostluq, bolluq, bərəkət və sevgi gətirəcək. İslam Birliyi yer üzünün tamamilə fərqli gözəlliyə bürünməsinə, elm və incəsənətin inkişaf etməsinə, güclü və köklü mədəniyyətin inşa edilməsinə vasitə olacaq. Allahın izni ilə İslam Birliyi mütləq qurulacaq. Bu, Allahın təqdir etdiyi taledir.

**İSLAM BİRLİYİ QURULANDA YER ÜZÜNDƏ QƏTİYYƏN QAN AXIDILMAYACAQ**

İslam Birliyi növbəti səhifələrdə daha geniş məlumat verildiyi kimi, Quran əxlaqını əsas alır. Dolayısilə, istənilən düşüncə və inanca sahib olanlara, bütün millətlərin nümayəndələrinə qarşı şəfqətlə yanaşan, hər kəsin haqqını qoruyan asayiş və sülh birliyi olacaq. Bu birliyin qurulması anarxiya və fitnələrin sonunu gətirməklə bütün qarşıdurma və terror əməllərini ortadan qaldıracaq. İslam Birliyinin təsis edilməsi ilə musəvi və xristianlar təhlükəsiz mühitdə həm ibadətlərini rahat yerinə yetirə biləcəklər, həm sərbəst şəkildə ticarət işləri ilə məşğul olacaqlar, həm də istədikləri yerlərdə rahat məskunlaşacaqlar. İslam Birliyinin qurulması damla qan axıdılmadan və müsəlmanların sevgi və şəfqətlə bir araya gəlməsi ilə gerçəkləşəcək.

Həmin dövrlərdə qarşıdurmaların sona çatacağını, insanların sülh və sevgi içində yaşayacağını Peyğəmbərimiz (səv) də müjdə verir. Peyğəmbərimiz (səv) hz.Mehdi dövründə yer üzündə heç qan tökülməyəcəyini xəbər vermişdir. Hz.Mehdinin zühur etdiyi və İslam Birliyinin qurulduğu dövrlərdə bütün yer üzünü əhatə edən sülh, ədalət, dinclik və etimad hədislərdə belə xəbər verilir:

*İnsanlar, bal arılarının başçılarının ətrafında toplandığı kimi, Mehdinin ətrafında toplanacaqlar. Daha öncə zülmlə dolu olan dünyanı o, ədalətlə dolduracaq. Elə ədalətli olar ki, yuxuda olan kəs belə oyandırılmaz və* ***bir damla qan axıdılmaz.*** *Dünya sanki Səadət əsrinə geri dönər. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 29 və 48)*

*Mehdi Peyğəmbərin (səv) yolu ilə gedəcək,* ***yatan adam oyandırılmayacaq, QAN DA AXIDILMAYACAQ.*** *(Muhəmməd bin Rəsul əl-Hüseyni əl-Bərzənci, Qiyamət əlamətləri, 10-cu nəşr, səh. 163)*

*Mehdi dövründə* ***heç kim yuxudan oyandırılmayacaq və heç kimin burnu belə qanamayacaq.*** *(Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 44)*

*Mehdiyə beyət edənlər (Kəbə ətrafındakı) Rükun və Məqam arasında beyət edərlər.* ***Yatanı oyandırmaz, ƏSLA QAN TÖKMƏZLƏR.*** *(Hiytəmi, Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 24)*

*Bu (Əmir) da (hz.Mehdi) insanlar yer üzünü daha öncə zülmlə doldurduqları kimi,* ***YER ÜZÜNÜ ƏDALƏTLƏ DOLDURACAQ.*** *(Sünəni-İbni Macə, 10/348)*

*Zülm və fisqlə dolu olan* ***DÜNYA, O (HZ.MEHDİ) GƏLDİKDƏN SONRA ƏDALƏTLƏ DOLUB DAŞACAQ.*** *(Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 20)*

*__HZ.MEHDİ DÖVRÜNDƏ ƏDALƏT O QƏDƏR GÜCLÜ OLACAQ Kİ,__ zorla alınan hər mal sahibinə geri veriləcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 23)*

*__ONUN (HZ.MEHDİNİN) ƏDALƏTİ HƏR YERİ ƏHATƏ EDƏCƏK)__ və insanlar arasında Peyğəmbərin (səv) sünnəsi ilə hökm edəcək. Hətta bir nəfərdən kimin mala ehtiyacı varsa çağırmağını istəyəcək, o adam bu əmri yerinə yetirəndə təkcə bir nəfər gələcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 20)*

*Qiyamətin qopması üçün zamanda bir gündən başqa vaxt qalmasa da, Allah mənim əhli-beytimdən (soyumdan) bir şəxsi – Mehdini göndərəcək. Yer üzü zülmlə dolduğu kimi, __O, YER ÜZÜNÜ ƏDALƏTLƏ DOLDURACAQ.__ (Sünəni-Əbu Davud, 5/92)*

*Hz.Mehdi məndəndir, yer üzü zülm, işgəncə ilə dolduğu kimi, __ONU DÜRÜSTLÜK VƏ ƏDALƏTLƏ DOLDURACAQ__. (Sünəni-Əbu Davud, 5/93)*

*Qab su ilə dolduğu kimi, __YER ÜZÜ SÜLHLƏ DOLACAQ.__ Heç kimin arasında düşmənçilik qalmayacaq. __BÜTÜN DÜŞMƏNÇİLİK, PAXILLIQ VƏ DAVA-DALAŞLAR YOX OLUB GEDƏCƏK.__ (Səhihi-Müslim, 1/136)*

*...Cənabi-Haqq İslamı necə bizimlə başlatdısa, onunla da (Hz.Mehdi ilə) sona çatdıracaq. Necə ki bizimlə onlar aralarındakı __ŞİRK VƏ ƏDAVƏTDƏN XİLAS OLUB, QƏLBLƏRİNƏ DOSTLUQ VƏ MƏHƏBBƏT YERLƏŞİBSƏ, (HZ.MEHDİNİN GƏLİŞİ İLƏ) YENƏ ELƏ OLACAQ.__ (Axırzaman Mehdisinin əlamətləri, Cəlaləddin Suyuti səh.20)*

*...ONUN (HZ.MEHDİNİN) DÖVRÜNDƏ YAXŞI İNSANLARIN YAXŞILIĞI ARTAR, PİSLƏRƏ QARŞI BELƏ YAXŞILIQ EDİLƏR. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 17)*

**Peyğəmbərimizin (səv) hədislərində İstanbul və Türkiyəyə xüsusi diqqət çəkilmişdir. Hədislərdə xəbər verildiyi kimi, hz.Mehdi İstanbulda fəaliyyət aparacaq, müqəddəs əmanətlərlə birlikdə çıxıb dağınıq türk dövlətlərini birləşdirməklə İslam Birliyini təsis edəcək.**

## HZ.MEHDİNİN İSTANBULU MƏNƏVİ YÖNDƏN FƏTH ETMƏSİ

***İbni Əmrdən rəvayət edilir:***

***Peyğəmbərimiz (səv) buyurdu ki, ey ümmət, altı şey vardır ki, onlar olmadan Qiyamət qopmaz... Altıncısı mədinənin fəthi. Soruşdular ki, hansı mədinə (şəhər)? Buyurdu ki, Konstantinopol (İstanbul). (Qiyamət əlamətləri, 204; Ramuz əl-əhadis, 296)***

***Allah Konstantinopolu (İstanbulu) çox sevdiyi dostlarının əli ilə (hz.Mehdi ilə) fəth edəcək... Onlardan xəstəliyi və sıxıntını dəf edəcək. (Qiyamət əlamətləri, səh.181)***

***Şəhərlər ona tabe olacaq. Allah-Təala Konstantinopolun (İstanbulun) (mənəvi) fəthini ona (hz.Mehdiyə) müyəssər edəcək. (Kitabül-Bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh.56)***

## HZ.MEHDİ TÜRKLƏRİN ARASINDA TƏBLİĞAT APARACAQ

***Hz.Mehdi Rumdan, yəni türklərdən (Türkiyəyə qədimdə Rum diyarı deyirdilər) ayrılmayacaq. (İşafür-Rağibindən nəql edilir, Tilsimlər, səh.212)***

*Tirmizidə qeyd edilən bir hədisdə hz.Mehdinin ərəblərə hakim olmayana qədər Qiyamətin qopmayacağından bəhs edilir (Tirmizi, Fitən: 43). Buradan belə başa düşürük ki, o, ərəblərin arasından çıxmayacaq. Çünki ərəblərə hakim olmaq üçün onların xaricində olmaq lazımdır. (Qiyamət əlamətləri, səh.170)*

*Şərqdən bir qrup insan çıxacaq və hz.Mehdiyə zəmin hazırlayacaq. Hz.Mehdi onların arasında hökmdar olacaq. (İbni Macə, Kitabül-Fitən: 35 (4088))*

*Bu hədis hz.Mehdinin şərqdə olan və ya şərqdən gələn bir millətin arasından çıxacağını göstərir ki, bu da çox güman, o zamanlar şərqdə olub sonradan Anadoluya yerləşən türklərə işarə edir. (Qiyamət əlamətləri, səh.171)*

*İbni Xəldun və Qurtubi hz.Mehdinin Məşriq (şərq), Xorasan (Xəzər dənizinin qərbində qalan hissəsi) və Amudərya (Ceyhun çayı) tərəflərindən (Bu yerlər türklərin yaşadığı ərazilərdir) çıxacağını yazırlar. (Macdonald, İslam ensiklopediyası, 7:478)*

*Bütün bunlar hz.Mehdinin türklərin arasında fəaliyyət aparacağını göstərir. (Şaban Döyen, "Mehdi və Dəccal, səh.172)*

**Seyid Əhməd Hüsaməddin (ra) "İstixracnamə" əsərində hz.Mehdinin zühur edəcəyi yer ilə əlaqədar belə deyir:**

*"Müsəlmanlardan bir zat gələcək, bu zatın şərəfi Qafqazın ən ulu dağından ətrafa günəş şüası kimi şölə saçacaq". (Osman Yüksel Serdengeçti, Məbədsiz şəhər, "Serdengeçti" Nəşriyyatı VI, səh. 107)*

## HZ.MEHDİ DAĞINIQ TÜRK DÖVLƏTLƏRİNİ BİRLƏŞDİRƏCƏK

*...Və küncdə-bucaqda oğluma (hz.Mehdiyə) yardım edəcək dağınıq türk bayraqları zühur edəcək. (Qeybəti-Numani, səh.323)*

*...Allah ona (hz.Mehdiyə) Rumu, Deyləmi, Sindi, Hindistanı, Qabilşahı və Xəzəri fəth etdirəcək. (Şeyx Muhəmməd bin İbrahimi-Numani, Qeybəti-Numani, səh.274)*

**Peyğəmbərimizin (səv) hədislərində xəbər verildiyi kimi, hz.Mehdi əvvəlcə türk bayrağı ilə Türkiyədən çıxacaq, daha sonra yaşıl bayrağa sahib İslam ölkələrinə də mənəvi yöndən hakim olacaq. Hz.Mehdi İslam Birliyinin qurulmasına vasitə olacaq bu birliyə mənəvi liderlik vəzifəsini öz üzərinə götürəcək. Bununla bağlı bir hədisdə belə qeyd olunur:**

*Həmin ildə qırmızı bayrağın və sonra yaşıl bayrağın sahibi olan oğlumun (hz.Mehdinin) qeybəti elan olunacaq. (Şeyx Muhəmməd bin İbrahimi-Numani, Qeybəti-Numani, səh.170)*

## HZ.MEHDİNİN YANINDA MÜQƏDDƏS ƏMANƏTLƏR OLACAQ

**Axırzaman hədislərini nəql edən alimlər axırzaman hadisələrini öz dövrlərindəki xilafət mərkəzlərini əsas alıb nəql etmişlər. Buna görə də hər alim hz.Mehdinin zühur yeri kimi öz dövrünün xilafət mərkəzi olan Şam, Kufə, Mədinə kimi şəhərləri qeyd etmişdir. Ancaq axırzamanla əlaqədar bəhs edilən rəvayətlər onu göstərir ki, bu hadisələr bir xilafətin mərkəzində baş verəcək. Müəyyən olduğu kimi, son xilafətin mərkəzi İstanbul şəhəridir. Xəlifəlik keçən əsrin əvvəllərində rəsmi şəkildə ləğv edilmişdir və o dövrdən indiyə kimi dünyanın heç bir yerinə daşınmamışdır. Nəticə etibarilə, bu mənəvi ünvanı qoruyan yeganə şəhər hələ də İstanbuldur. Peyğəmbərimizin (səv) sancağı, qılıncı, köynəyi və digər müqəddəs əmanətlər də İstanbulda Topkapı sarayında qorunur.**

***Abdulla bin Şurəfədən rəvayət edilir: hz.Mehdinin yanında Peyğəmbərimizin bəzədilmiş bayrağı olacaq. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 65)***

***Nuaym bin Həmmad Əbu Cəfəridən belə rəvayət edir: hz.Mehdi Peyğəmbərimizin (səv) sancağı, köynəyi, qılıncı, işarətləri, nuru və gözəl ifadəsi ilə İsa vaxtında çıxar. (Əli bin Sultan Muhəmməd əl-Qari əl-Hənəfi Risalətül-məşrəb əlvərdi fi məzhəbil-Mehdi)***

***H.Mehdi Peyğəmbərimizin (səv) bayrağı ilə çıxacaq. O bayraq dördküncdür, rəngi isə qaradır. O, Rəsulullahın (səv) vəfatından bəri açılmayıb, yalnız Mehdi zühur edəndə açılacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh.41-42, 52, 54)***

***Əlamətlərə gəlincə, hz.Mehdinin yanında Allah Rəsulunun köynəyi, qılıncı və sancağı olacaq. Hansı ki o sancaq Peyğəmbərin vəfatından bu günə kimi heç açılmayıb. (Qiyamət əlamətləri, səh.164)***

***Peyğəmbərin qumaş bayrağı ilə çıxacaq. O bayraq dördküncdür, rəngi isə qaradır. O bayraqda bir halə var. O, Rəsulullahın (səv) vəfatından bəri açılmayıb, yalnız Mehdi zühur edəndə açılacaq. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh.23)***

**Axırzamanda yalnız hz.Mehdi tərəfindən açılacağı bildirilən həmin sancağın başqa bir xüsusiyyəti odur ki, bu sancaq Peyğəmbərin (səv) vəfatından bu günə qədər heç açılmayıb. Dövrümüzə qədər Osmanlı İmperiyası da daxil olmaqla, heç bir dövlət tərəfindən Peyğəmbərimizə hörmət məqsədilə açılmayan sancaq müharibə və mərasimlərə aparıldıqda qabından belə çıxarılmamışdır. 1400 il boyu eyni şəkildə mühafizə edilən sancağın hz.Mehdinin gəlişi ilə İslam əxlaqının hakim olacağı dövrdə açılması gözlənilir.**

## ÖN SÖZ

Təxminən 1,5 milyard müsəlmanı cəmləşdirən və olduqca geniş coğrafi ərazini əhatə edən İslam dünyasının əsas ehtiyaclarından biri olan İslam Birliyindən bəhs etdiyimiz bu kitabda belə birlik qurmağın lazımlı və təcili olduğundan danışacağıq.

Bu gün İslam dünyasının vəziyyətinə nəzər saldıqda ilk diqqəti cəlb edən xüsusiyyətlərdən biri kimi onu görürük ki, **müsəlmanlar öz aralarında bölünüb ayrılmışdır.** Bəzi İslam ölkələri arasında böyük ixtilaf və dərin anlaşılmazlıq vardır. Hətta yaxın keçmişdə İranla İraqın və Pakistanla Banqladeşin arasında müharibə baş vermiş, İraq Küveyti işğal etmişdir. Müsəlman ölkələrində əksərən etnik və siyasi problemlər səbəbi ilə baş verən daxili qarşıdurmalar da (məsələn, Əfqanıstan, Yəmən, Livan, İraq və Əlcəzairdə olduğu kimi) İslam dünyasının mövcud vəziyyətini büruzə verir. Digər tərəfdən İslam dünyasının dörd tərəfinə bir-birindən tamamilə fərqli dini açıqlama və düşüncə formaları hakimdir. İslama nəyin uyğun olub-olmadığını müəyyən edən, müəyyən mövzuda dünya müsəlmanlarına istiqamət verən, onları uzlaşdıran mərkəzi nüfuz sistemi yoxdur. Katoliklərin Vatikanı, pravoslav xristianlarının patriarxiyası var, lakin İslam dünyasında hər hansı bir dini birlik və mərkəz yoxdur. Halbuki birlik İslam əxlaqının anlayışında vardır. Peyğəmbərimiz hz.Muhəmmədin (səv) vəfatından sonra İslam dünyasının daima lideri olmuş, bu məqam müsəlmanlara dini mövzuda yol göstərmişdir.

Dövrümüzdə də bütün İslam dünyasına yol göstərən çağdaş nüfuz mərkəzi təşkil oluna bilər. Demokratik əsaslara və hüququn üstünlüyü prinsipinə dayanan mərkəzi nüfuz sisteminin və İslam Birliyinin qurulması müsəlman dünyasının mövcud problemlərinin həll olunmasında əhəmiyyətli addım olar.

Kitabın növbəti səhifələrində də ətraflı şəkildə bəhs edəcəyimiz kimi, həmin İslam Birliyinin vəzifələri aşağıda göstərilənlər əsasında təşkil olunmalıdır:

**1) Quran əxlaqının tələb etdiyi kimi sevgi, şəfqət, qardaşlıq və mərhəmətə əsaslanan anlayışa sahib olmalı,** bütün insanları qorumalı və hər kəsə ən yüksək səviyyədə keyfiyyətli və rifah dolu yaşayış standartı təqdim etməlidir.

**2) Demokratik və dünyəvi quruluşa sahib olmalı,** İslam aləmini mənəvi liderliyin öndərliyində bir araya gətirərkən bütün dövlətlərin unitar quruluşunu mühafizə etməlidir.

3) Bütün müsəlman dünyasına xitab etməyi bacarmalı, dolayısilə, ən əsas islami dəyərlərə dayanmalı, **müəyyən məzhəbin və ya təriqətin təmsilçisi olmamalıdır.**

**4) İnsan haqlarına, demokratiyaya, azad sahibkarlığa** dəstək verməli, İslam dünyasının iqtisadi, elmi və mədəni yöndən inkişafını təməl hədəf kimi ön plana çəkməlidir.

**5)** Başqa ölkələr və mədəniyyətlərlə həddən artıq **sülh yönlü uzlaşdırıcı əlaqələr qurmalı,** kütləvi qırğın silahlarına nəzarət, terrorizm, beynəlxalq cinayətkarlıq kimi mövzularda beynəlxalq birliklərlə və Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq etməlidir.

**6)** İslam dünyasındakı azlıqların (məsələn, yəhudi və xristianların) və müsəlman ölkələrinə gələn əcnəbilərin haqlarının qorunması, təhlükəsizliklərinin təmin edilməsi və onlara hörmət göstərilməsi kimi məsələləri diqqət mərkəzində saxlamalı, **hər dindən və düşüncədən olan insanlara şəfqətlə yanaşmalıdır.**

**7)** Fələstin, Kəşmir və Moroda olduğu kimi, müsəlmanlarla qeyri-müsəlman xalqları qarşı-qarşıya gətirən problemlərə **ədalətli və sülh yönlü nəticələr gətirilməsinə** əhəmiyyət verməlidir. Həm müsəlmanların haqlarını müdafiə etməli, həm də həmin problemlərin İslam dünyasındakı bəzi radikal ünsürlər tərəfindən dalana salınmasına mane olmalıdır.

İslam dünyasının belə bir ağıllı və ədalətli liderliyə qovuşması həm bu gün bir çox problemlərlə üz-üzə gələn 1,5 milyard müsəlman üçün, həm də bütün dünya üçün xeyirli olacaq. Quran əxlaqı əsasında qurulan İslam Birliyi bütün bəşəriyyətin ədalət və təhlükəsizliyə nail olmasına və Quran əxlaqının səbəb olduğu davranış mükəmməlliyi sayəsində asayişin bərqərar olmasına vasitə olacaq.

Müsəlmanlar Peyğəmbərimizin (səv) dövründən bu yana elmi-mədəni sahələrdə böyük əsərlər ortaya qoymaqla dünyaya öndərlik ediblər. Avropa orta əsrlərin qaranlıq dövrlərində ikən müsəlmanlar dünyaya elm və incəsənət sahəsində bir çox şeylər gətiriblər. Quranın nurundan və hikmətindən qaynaqlanan **bu islami yüksəlişi yenidən başlatmaq üçün** keçmişdə olduğu kimi, bu gün də müsəlmanların Quran əxlaqını və Peyğəmbərimizin (səv) sünnəsini əsas alan rəhbərliyə ehtiyacları vardır. Bu layihə necə həyata keçə bilər? Bu sual barədə növbəti səhifələrdə danışacağıq.

# GİRİŞ

20-ci əsrin əvvəllərində Osmanlı İmperiyasının dağılması İslam dünyasının 20-ci əsrdəki durumunu müəyyən edən əhəmiyyətli amillərdən biri idi. İmperiyanın dağılması ilə ortaya müxtəlif dövlət və xalqlar çıxdı. Lakin heç biri Osmanlı dövründə olduğu kimi dinclik və sabitliyə qovuşa bilmədi.

Yaşadığımız 21-ci əsrin bu günlərində dünyanın bir çox yerində həllini gözləyən problemlər, razılığa gəlinməsi zəruri olan müxtəlif anlaşılmazlıqlar hələ də davam edir. 20-ci əsrin əvvəllərində pozulan sabitliklərin tam mənada bərpa edilməməsi bir çoxu İslam aləminə aid olmaqla müxtəlif həssas bölgələr əmələ gətirmişdir. Bu problemlərin bir qisminə görə müvəqqəti razılıqlar əldə edilsə də, bəzi yerlərdə qarşıdurmalar və ya gərginliklər davam edir.

Dövrümüzdə həll olunmamış problemlərin əsas hissəsi birbaşa müsəlmanların yaşadıqları əraziləri (Fələstin, Kəşmir, İraq, Əfqanıstan kimi yerlər) əhatə edir. Bununla bərabər, səsləri getdikcə yüksələn mədəniyyətlər qarşıdurması müdafiəçilərinin müsəlmanları ittiham edən təbliğatları səbəbi ilə İslam dünyası müxtəlif dairələr tərəfindən hədəf kimi göstərilməyə çalışılır. Bütün bunlar müsəlmanların 21-ci əsrdə hansı strateji mövqedə olmaları sualını bir daha gündəliyə gətirir. Bu strategiyanın düzgün müəyyən edilməsi üçün, öncəliklə, İslam dünyasının mövcud vəziyyətini yaxşı bilmək lazımdır. Doğru təsbitlər müəyyən ediləsi strategiyanın bünövrəsi olacaq və alınan qərarların daha tutarlı olmasını təmin edəcək.

İslam mədəniyyəti Osmanlı, Səfəvi və Moğol  kimi üç böyük imperiya tərəfindən təmsil edildiyi 16 və 17-ci əsrdə Asiya, Afrika və Avropanın hegemon gücü idi. Hindistanda Moğol İmperiyası mövcud idi. İran və ətrafında Səfəvilər hökmranlıq edirdi. Üçüncü və ən böyük imperiya isə  bütün Balkan yarımadasını, Anadolunu, Mesopotamiyanı, Ərəbistan yarımadasını və Şimali Afrikanı idarə edən böyük Osmanlı İmperiyası olmuşdur. Lakin bu islami hegemonluq getdikcə kiçilib gücünü itirdi. İlk dəfə 18-ci əsrdə Moğol İmperiyası süqut etdi. Bu, Cənubi Asiya müsəlmanları üçün yeni dövrün başlanğıcı oldu. Hindistan İngiltərənin müstəmləkəsinə çevrildi. Hind-Çin kimi tanınan bölgə də fransızlar tərəfindən müstəmləkəçiliyə məruz qaldı. Səfəvi İmperiyasının xələfi Qacar Xanədanlığı 1920-ci illərə kimi varlığını qorudu, lakin nüfuz və təsirini çoxdan itirmişdi; zaman içində İngiltərə və Rusiyanın hakimiyyətinə daxil oldu. Bu arada Osmanlı İmperiyası da ardıcıl olaraq məruz qaldığı torpaq itkiləri ilə birgə get-gedə zəifləmişdi. 600 il boyu İslam dünyasının ən geniş və ən təsirli dövlət sistemini təşkil edən Osmanlı İmperiyası Birinci Dünya Müharibəsi ilə birlikdə tamamilə dağıldı.

Osmanlının dağılması başda Yaxın Şərq və Ərəbistan yarımadasının bəzi əraziləri olmaqla, İslam coğrafiyasında tarixi dəyişikliklərin baş verməsinə səbəb oldu. Bölgədə kənar qüvvələr tərəfindən qurulan dövlətlər bu torpaqlarda 20-ci əsr boyu davam edəcək qeyri-sabitliyin və gərginliyin təməl qaynağını təşkil etdilər. Köklü mədəniyyətin qurucusu olan İslam dünyasında özünə qapanma prosesi artıq başlanmış oldu. Təkcə Yaxın Şərqdə deyil, Şimali Afrika və cənubi Asiyada müsəlmanlar müstəmləkəçi qüvvələr tərəfindən əzilməyə başladı. Bu ölkələrin böyük əksəriyyəti ancaq 20-ci əsrin ikinci yarısında müstəqilliyə qovuşa bildilər. Bu müstəqillik bir çox ölkəyə Əlcəzairdə olduğu kimi qan bahasına başa gəldi. Milyonlarla günahsız insan həyatını itirdi, bir çoxu tətbiq olunan işgəncə və zülmlərdən dolayı şikəst qaldı. Həmin bölgələrdən müstəmləkəçi qüvvələrin geri çəkilməsinin ardından asayiş və təhlükəsizlik tam şəkildə təmin edilə bilinmədi. Qısa olaraq 20-ci əsr İslam dünyasının əksəriyyəti üçün qarşıdurma, qovğa, qıtlıq və yoxsulluqla keçən əsr oldu.

Lakin İslam dünyası hər zaman bu vəziyyətdə olmamışdır.

Əksinə, keçən iki min ilin tarixi araşdırıldıqda ortaya dövrümüzdən fərqli mənzərə çıxır: insanlıq tarixində ən böyük elmi-mədəni inkişaf İslamla baş vermişdir. Qərb dünyası qaranlıq içində olduğu halda, müsəlmanlar dünyanın ən yüksək mədəniyyətini qurmuş, İslam əxlaqı dünyanı aydınladan nur olmuşdur.

## İSLAM: DÜNYANI AYDINLADAN İŞIQ

Allahın hz.Muhəmmədə (səv) Quranı vəhy etməsi və insanlara İslam əxlaqını bildirməsi ilə şiddət, vəhşilik və cəhalətə yoluxmuş ərəb cəmiyyəti sülhü, ağlı və mədəniyyəti öyrəndi. İslamın doğulduğu 7-ci əsrin əvvəllərində Ərəbistan dünyanın ən qarışıq ərazilərindən biri idi. Bu torpaqlarda bir çox fərqli qəbilə yaşayırdı və ayrı-ayrı bütlərə sitayiş edirdilər. Azğın din və bütləri uğrunda bir-biriləri ilə vuruşub qan tökür, hətta uşaqlarını belə öldürəcək qədər vəhşiləşirdilər. Bu batil sistemdə sevgi, mərhəmət adlı heç nə yox idi; amansızlıq, nifrət və şiddət məqbul görülürdü. Qadınlar alçaq varlıq kimi sayılır, kasıb və kölələr mümkün qədər əzilirdilər.

Bu qaranlıq və qanlı dünya İslam əxlaqı ilə birlikdə tamamilə dəyişdi. Üstəlik, yalnız ərəblər deyil, başqa bir çox millət də İslam əxlaqının işığı ilə aydınlandı. İslamın endirilməsi ilə elm, mədəniyyət, düşüncə və incəsənətdə daha əvvəl bənzəri çox az olan intibah dövrü yaşandı.

Allahın Peyğəmbərimizə (səv) vəhy etdiyi **"Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı ələqdən yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. İnsana bilmədiklərini öyrətdi"** (Ələq surəsi, 1-5) ayələri ilə cəhalət içində boğulub qalan ərəblər ilk dəfə oxumağa və düşünməyə dəvət edildilər. Ərəb cəmiyyətinin quruluşu İslamla yanaşı tamamilə dəyişməyə başladı. Məsələn, ərəb adətlərinə görə, müharibələrdə əsirlər öldürülürdülər. Halbuki Peyğəmbərimiz (səv) Allahın vəhy etdiyi hökmlərə əsasən, əsirlərə qarşı xoş davranmağı və müsəlmanların öz yedikləri yeməkdən onlara da vermələrini əmr etdi. Quranda **"Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər" (İnsan surəsi, 8)** ayəsində möminlərin bu vəsfi bildirilirdi. Əsir alınan insanlardan bunu istəyirdilər ki, əgər onlar oxuyub-yazmağı bilirdilərsə, bunu bilməyən müsəlmanlara öyrətməli idilər. Ərəbistan torpaqları, bəlkə də, minlərlə il idi ki, ilk dəfə mərhəmət, əfv etmək və mədəniyyət anlayışı ilə tanış olur, insanlıq tarixinin ən böyük mədəni intibah dövrünü yaşayırdı.

İllər keçdikcə İslamın ədaləti və yüksək əxlaqı Ərəbistanda dalğa-dalğa yayıldı. Müsəlmanların ədalətli, mərd və qərarlı olması bir çox ərəb qəbilələrinin İslama daxil olmasında böyük rol oynadı. Qarşısıalınmaz gücə çatan İslam ordusu 630-cu ildə Məkkəyə doğru irəlilədi. Məkkə bütpərəstləri o qədər zalımlıq etmişdilər ki, müsəlmanların onlardan intiqam alacaqlarından qorxurdular. Ərəb adətlərinə görə, müharibədə məğlub olan qəbilənin kişiləri qılıncdan keçirilir, qadın və uşaqları kölə edilirdilər. Lakin Allahın sonsuz mərhəməti hz.Muhəmməd (səv) üzərində təzahür edirdi. Peyğəmbərimiz (səv) məkkəlilərin heç birindən intiqam alınmayacağını və heç kimin müsəlman olmağa məcbur edilməyəcəyini elan etdirdi. Bu böyük əfvedicilik və şəfqət qərbli tarixçilərin də diqqətini cəlb etmişdir. Haverford Universitetinin əməkdaşlarından Maykl Sels (Michael Sells) Peyğəmbərimizin üstün əxlaqını belə ifadə edir:

*"Hz.Muhəmməd (səv) Məkkəyə gələndə heç bir şəkildə qanlı intiqam almayaraq müsəlmanlarla üç il boyu savaşan və özünü yox etməyə çalışan məkkəliləri qucaqladı. Bu, o dövrün insanları üçün heyranedici hərəkət idi. Dolayısılə, burada dinin əsasında böyük humanistlik, fövqəladə nəzakət və mərhəmət yer alır".*[1]

Əhəmiyyətlisi isə məkkəlilərin batil inanclarının ortadan qaldırması idi. Şəhəri alan müsəlmanlar birbaşa Kəbəyə yönəldilər. Daha sonra müqəddəs məbədə daxil olub içindəki bütləri

dağıtdılar. Bu bütlərlə yanaşı, məkkəlilərin azğın inancları və onların adına edilən bütün zülm, ədalətsizlik və vəhşilik də yox edildi. Ərəbistanda Quran əxlaqı təlim olunmaqla bütün haqsızlıqlar və qan davaları ortadan qalxdı. İnsanlar arasında hörmət, sevgi və ədalətə əsaslanan sistem quruldu. Buna görə də növbəti nəsillər bu dövrə  Səadət əsri deyirdilər.

**İslam əxlaqının şəfqət, mərhəmət və ədaləti**

Hz.Muhəmmədin (səv) vəfatından sonra da İslamın yüksəlişi sürətlə davam etdi. İslam bir neçə on ilin içində bütün Mesopotamiyaya və Şimali Afrikaya yayıldı. Qərbdə İspaniyaya, şərqdə isə Hindistana qədər irəlilədi. Ərəbistan səhralarında heyvandarlıqla məşğul olan ərəblər İslamın onlara qazandırdığı yüksək ağıl, elm və mədəniyyət sayəsində böyük imperiyaya rəhbərlik etdilər. Bu, tarixdə bənzəri görülməmiş yüksəliş idi. 100 ilin içində İslam İmperiyası böyük əraziyə yayıldı və çox güclü idarə sistemi qurdu.

Bu geniş coğrafiyada xristian və yəhudilər başda olmaqla fərqli dini icmalar yaşayırdı. Müsəlmanlar fəth etdikləri torpaqlarda fərqli inanclardan olanlara qarşı anlayışlı davrandılar. Allahın **"Dində məcburiyyət (zorakılıq) yoxdur"** (Bəqərə surəsi, 256) hökmünə əsasən, heç kim dinini dəyişdirməyə məcbur edilmədi, hər kəsə hörmət göstərildi. Kilsə və sinaqoqlar xüsusi diqqətlə qorundu. Məcburi din dəyişdirməyin çox yayıldığı həmin dövrdə müsəlmanların tolerantlığının misli yox idi.

İslami şəfqətin əsas nümunələrindən biri Qüdsün fəthində yaşanmışdı. Şəhərdəki Müqəddəs Məzar Kilsəsinin patriarxı müsəlmanların kilsəni uçurmağından qorxurdu. Hz.Ömər kilsəni ziyarət etməklə nəzakət göstərdi və heç bir narahatçılığa gərək olmadığını dedi. Namaz vaxtı girəndə isə patriarxdan izin istəyib kilsədən ayrıldı və bir az uzaqda namaz qıldı. Əl-Əqsa məscidi hz.Ömərin Qüdsdə ilk namazını qıldığı həmin yerdə inşa edildi. Bundan başqa, müsəlmanlar Qüdsə dünyanın ən görkəmli memarlıq əsərlərindən birini qazandırdılar. Qübbətüs-səhra hz.Muhəmmədin (səv) meraca yüksəldiyi yer olduğuna inanılan böyük daşın üzərinə inşa edilmişdi. Qübbətüs-səhra misilsiz motiv və qızıl qübbəsi ilə İslamın sənət və mədəniyyət anlayışının ifadəsi idi.

Belə bir şəfqət və mərhəmət mühitində qeyri-müsəlmanlara gördükləri xətaları ifadə edə bilmək üçün tənqid haqqı da verilmişdi. Əməvi xəlifələri dövründə Şamda bir çox xristian dövlət idarəsində önəmli vəzifələr tutmuş, inanclarını istədikləri formada yaşamış, hətta bəziləri  yanlış olanları  tənqid edən əsərlər belə yazmışdılar. Həmin dövrlərdə Avropaya qatı xurafat və vəhşilik hakim idi. Katolik kilsəsi yəhudilərə, hətta fərqli məzhəblərdəki xristianlara təzyiqlər göstərirdi. Məcburi din dəyişdirmə, din adından işgəncə və qətliam dövrün qərb dünyasında adi şeylər idi. Müsəlmanlar isə Allahın Quranda əmr etdiyi kimi, kitab əhlinə qarşı şəfqətli və mərhəmətli davrandılar. Suriyanın Şam şəhərindəki Müqəddəs Con kilsəsi bu şəfqətin başqa nümunəsi idi. Bölgəni fəth edən müsəlmanlar cümə namazlarını həmin kilsədə qılmağa başladılar. Lakin kilsə elə xristianların özünə aid sayılırdı. Onlar da bazar günləri gəlib öz dini ibadətlərini sərbəst şəkildə yerinə yetirirdilər. İki dinin mənsubları eyni məbəddən sülh içində istifadə edirdilər.

Şəhərdə müsəlmanların sayı artdıqca İslam rəhbərliyi şəhərdəki xristianlardan onların da razılığı ilə kilsəni satın aldı. Kilsənin düz yanında məscid tikildi və çöl dekorasiyası islami motivlərlə zənginləşdirildi. Bizansdan miras qalan sütunların üzərinə İslam incəsənətinin ilk nümunələri yerləşdirildi.

Müsəlmanların yəhudi və xristianlara olan şəfqəti İslam tarixi boyu davam etdi. İspaniyada inkvizisiya vəhşiliyindən qaçan yəhudilər təhlükəsizlik və rahatlığı Osmanlı torpaqlarında tapdılar. Müsəlmanların yəhudi və xristianlara qarşı göstərdiyi şəfqətin qaynağı isə Quran əxlaqı

idi. Allah Quranda müsəlmanlara kitab əhlinə, yəni yəhudi və xristianlara qarşı yaxşı davranmağı əmr etmişdir:

**İçərilərindən zülm edənlər istisna olmaqla, kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudunuz birdir. Biz yalnız Ona itaət edirik". (Ənkəbut surəsi, 46)**

## Müsəlmanlar və elm

İslam əxlaqının insanlara qazandırdıqlarından biri də elmi düşüncə oldu. İslamdan əvvəl ərəblər və digər Yaxın Şərq cəmiyyətləri kainatın və təbiətin necə var olduğunu və necə çalışdığını bilmirdilər və heç maraqlanmırdılar da. Allaha Quranda inananlara göylərin və yerin necə yarandığını araşdırmağı əmr etmişdir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür (və deyirlər:) "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi odun əzabından qoru!" (Ali-İmran surəsi, 191)**

Bu düşüncə İslam mədəniyyətində böyük elmi yüksəliş başlatdı. Bu dünya tarixində daha öncə nümunəsi görünməmiş inkişaf idi. İslamın elmi yüksəliş mərkəzi İslam İmperiyasının paytaxtı Bağdad oldu. İslam dünyasının dörd tərəfindən gələn elm adamları, mütəfəkkirlər və tədqiqatçılar Bağdadın məşhur Hikmət evində görüşür, Allahın yaratdığı kainatın sirlərini açmaq üçün təhqiqat aparırdılar.

Müsəlman elm adamlarının Quran əxlaqına tabe olmasının gətirdiyi düşüncə dünyanın o dövrə qədər görülmüş ən böyük elmi yüksəlişini meydana gətirdi. Yenə Quranda müsəlmanlara öyrədilən açıq fikirlilik onların digər mədəniyyətlərin elmi ehtiyatlarını ön mühakiməsiz şəkildə araşdırıb inkişaf etdirmələrini təmin etdi. Müsəlmanların elmi əsərləri müxtəlif mövzulardakı tədqiqat, təcrübə və hesablamalarla dolu idi.

Bu gün dünyada istifadə edilən onluq say sistemini və rəqəmləri inkişaf etdirənlər müsəlman riyaziyyatçıları idilər. Cəbr və triqonometriya müsəlman riyaziyyatçıların kəşfi idi. Müsəlman elm adamları astronomik müşahidələrə çox əhəmiyyət verdilər. Müasir astronomiya onların üsullarına əsaslanaraq quruldu. Müsəlman alimlər Ayın Yer ətrafındakı hərəkətini də hesablayıb riyazi düsturlarla qeyd etmişdilər. İslam dünyasının müxtəlif yerlərindəki görkəmli memarlıq əsərləri həmin elmi nailiyyətlər sayəsində meydana gətirilmişdir.

Müsəlmanların diqqəti cəlb edən kəşflərinin bir çoxu tibbə dair idi. Həmin vaxtlarda avropalılar cəhalət içində idilər və xəstəliklərə pis ruhların lənəti kimi baxırdılar. Avropada müalicə anlayışı yox idi. Müsəlman elm adamları isə araşdırmaqla müəyyən etmişdilər ki, xəstəliklər insana gözlə görünməyən xırda canlılardan keçir və belə nəticəyə gəlmişdilər ki, xəstələr sağlam insanlardan kənar yerdə müalicə olunmalıdırlar. Beləliklə, dünyanın ilk müasir xəstəxanaları quruldu. Müsəlman xəstəxanalarında fərqli xəstələr üçün ayrılmış xüsusi bölmələr və elmi müalicə üsulları mövcud idi. Əqli çatışmazlıqlar belə terapiya və musiqi yardımı ilə müalicə edilirdi. Eyni dövrlərdə Avropada isə ruhi xəstələr şeytanın xidmətçisi kimi qəbul edilib diri-diri oda atılırdılar. Müsəlman həkimlərin insan anatomiyası üzrə çalışmaları o qədər dəqiq idi ki, 6 əsr ərzində Avropanın tibb fakültələrində əsas qaynaq kimi tədris olundu.

Məşhur ingilis tədqiqatçı Terri Cons tərəfindən BBC televiziya kanalı üçün hazırlanan və İslam dünyasını araşdıran sənədli filmdə İslamın yüksək elmi səviyyəsindən belə bəhs edilir:

*"Xərran şəhərindən müsəlman mütəfəkkir Yer ilə Ayın arasındakı məsafəni dəqiq ölçmüşdü. Başqa bir müsəlman isə yazmışdı ki, əgər atom parçalanarsa, Bağdad böyüklüyündə bir şəhəri yox edə biləcək qədər güc ortaya çıxar. 1154-cü ildə Şamda inşa edilən tibb fakültəsində həkimlər anatomiyanı, dərmanları, əməliyyatları və qan dövranı sistemini öyrədirdilər, Harveydən əsrlər əvvəl!"*[2]

Avropalılardan əsrlər əvvəl qan dövranını bilən müsəlman həkimlər xəstələrin nəbzlərini sayaraq müayinə edirdilər. Doğumlar dövrün ən gigiyenik üsulları ilə həyata keçirilirdi. Müsəlman cərrahların istifadə etdiyi və o dövrün tibb kitablarında göstərilən əməliyyat vasitələri həddindən artıq inkişaf etmiş tibb bilgisinin sübutları idi.

İslam dünyasının elm məktəblərində kişilər kimi qadınlar da təhsil alır, elmin inkişafına onlar da təkan verirdilər. Müsəlman elm adamları işığın quruluşu və optika mövzusunda da böyük tapıntılara imza atmışdılar. Gözün quruluşunu detalları ilə ortaya qoyan ilk adam müsəlman optika alimi İbn Heysəm idi. İbn Heysəmin linzalar üzərindəki böyük tədqiqatları kameranın icadına gedən yolu açmışdı. Görmə qüsurlarının səbəbini kəşf edən müsəlman həkimlər avropalıların eyni işə başlamasından tam 100 il əvvəl müvəffəqiyyətli katarakt əməliyyatları həyata keçirirdilər.

İslamın böyük elmi mirası Avropanın 15-ci əsrdə başlayacaq elmi yüksəlişinin də əhəmiyyətli qaynağı olacaqdı. Xristian elm adamları müsəlmanlardan öyrəndikləri elm sayəsində Avropa elmini qurdular. İslamın işığı onları aydınlatmışdı.

**İslam mədəniyyətinin ehtişamı**

İslam əxlaqının inananlara qazandırdığı əhəmiyyətli bir xüsusiyyət sənət və estetika anlayışıdır. Quranda bildirilən cənnət təsvirləri ən yüksək keyfiyyəti, incə zövqü və göz qamaşdırıcı ehtişamı təsvir edir. Bu anlayışı qəlblərinə yerləşdirən müsəlmanlar bənzərsiz əsərlər ortaya qoydular. İdarə etdikləri ölkələr dünyanın ən seçilmiş və müasir məkanları idi. İslam Ərəbistan yarımadasından dörd tərəfə yayılarkən bərabərində böyük inkişaf və zənginlik gətirdi.

Müsəlmanlar hər getdikləri yerə mədəniyyət apardılar. Məsələn, Tunisdə şəhəri təmiz su ilə təmin etmək üçün dahiyanə təmizləmə sistemi qurdular. Bir-biri ilə əlaqəsi olan iki böyük hovuzda saxlanılan su bütün çöküntülərdən təmizlənir, sonra da qapalı borularla şəhərə daşınırdı. Avropalılar belə bir şeyi əsrlər sonra düşünmüşdülər. Suriyadakı müsəlman mühəndislər suyu şəhərə daşımaq üçün bir dizayn xariqəsi olan dəyirmanlar qurdular.

Paytaxt Bağdad isə dünyanın ən ehtişamlı və müasir şəhəri idi. Memarlıq və quruluş baxımından göz qamaşdırırdı. Bağdada yolu düşən bir səyyah bunları yazmışdı:

*"Bağdadın bütün məhəllələri park, bağça, villa, hamam və meydanlarla, həmçinin görkəmli bazar və qeyri-adi məscidlərlə doludur. Həmin bu gözəl şəhər çayın hər iki tərəfindən kilometrlər boyunca uzanıb gedir".*[3]

İslam dünyasının başqa bir görkəmli mərkəzi də İspaniya idi. Burada qurulan müsəlman Əndəlüs dövləti bütün Avropanın ən modern və inkişaf etmiş ölkəsi idi. Paytaxt Kordoba memarlıq abidələri, səliqəsi, işıqlı küçələri, kitabxanaları, xəstəxanaları və sarayları ilə göz qamaşdırırdı.

Həmin dövrlərdə Paris və London kimi böyük Avropa şəhərləri qaranlıq, səliqəsiz və çox pis vəziyyətdə idi. Buna görə də Kordobaya gələn avropalı xristianlar şəhərdə gördükləri böyük ehtişam, mədəniyyət və sənət qarşısında çox təəccüblənirdilər. Boston Universitetinin tarixçisi Şeyla Bler (Sheila Blair) Kordobanın gözəlliyini aşağıdakı sözlərlə təsvir edir:

*"9-cu və 10-cu əsrlərdə Kordoba şəhəri Avropadakı ən böyük şəhərlərdən biri və ən cazibəlisi idi. Əlimizdə şəhərə gələn insanların bu barədəki təsvirləri var. Bütün çiçəklər, açıq küçələr, möhtəşəm işıqlandırma... Şimaldakı (xristian) şəhərləri isə qaranlıq idi. Təkcə Kordobada təmiz, içməli su var idi, insanlar böyük evlərdə yaşayırdılar. Parisdə isə insanlar çay kənarındakı kiçik daxmalarda yaşayırdılar".*[4]

Kordobanın ehtişamından dövrümüzə qalan çox az əsərdən biri bu gün şəhərin mərkəzində yerləşən katolik kafedralıdır. Bu kafedral, əslində, məscid idi. Sonradan kilsəyə çevrilmişdi. Məscidin içi isə gələnləri ovsunlayan görünüşə malik idi. Kordobaya gələn xristian səyahətçilər bundan çox təsirlənirdilər. 10-cu əsrdə Xrosvita (Hrotsvitha) adlı sakson əsilli bir rahibə Kordobanı "dünyanın bəzəyi" adlandırmışdı.

Əndəlüsün ən görkəmli tikililərindən biri də İslam sənətinin və estetikasının xariqüladə nümunələrini ehtiva edən əl-Həmra sarayı idi. Sarayın hər detalında İslamın insanlara qazandırdığı yüksək ruhun incə zövqü əks olunmuşdu. Əl-Həmranın bağçaları yerin cazibə qüvvəsindən yararlanmaqla düzəldilən kompleks fontan sistemləri ilə dolu idi. Quranda bildirilən cənnət təsvirləri əl-Həmranı inşa edən müsəlmanlara ilham qaynağı olmuşdu.

Quranda cənnətlə əlaqədar bildirilən ayələrin bir qismi aşağıdakılardır:

**Məhz onlar üçün müəyyən bir ruzi vardır – (cənnət) meyvələri. Onlara ehtiram göstəriləcəkdir – Nəim bağlarında. Onlar taxtlar üstündə bir-biri ilə üzbəüz (oturacaqlar). Onlar üçün çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır. Özü də ağappaq, içənlərə ləzzət verən (bir şərab). O (şərab) nə baş ağrısı verər, nə də ondan məst olarlar. (Saffat surəsi, 41-47)**

**İkisində də (növbənöv meyvələrlə dolu) budaqlar vardır. (Rəhman surəsi, 48)**

**Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər. Hər iki bağın meyvələri onlara yaxın olacaqdır. (Rəhman surəsi, 54)**

**Hər ikisi tünd yaşıldır. (Rəhman surəsi, 64)**

**(Onlar) bəzənmiş taxtlar üstündə qarşı-qarşıya əyləşib dirsəklənəcəklər. (Vaqiə surəsi, 15-16)**

**(Onlar) tikansız sidr ağacları arasında, meyvələri salxım-salxım asılmış banan ağacları altında. (Vaqiə surəsi, 28-29)**

**Uzanmış kölgəliklərdə, daim axan sular kənarında, çoxlu meyvələr, tükənməz və qadağan edilməyən (meyvələr) içində və hündür döşəklər üstündə olacaqlar. (Vaqiə surəsi, 30-34)**

**Məhz onlar üçün altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir! (Kəhf surəsi, 31)**

Müsəlmanlar memarlıqla yanaşı, geyimdə də dünyanın ən zövqlü və keyfiyyətli insanları idi. Müsəlmanların toxuculuq fabriklərində o günə qədər görünməmiş gözəllikdə parçalar hazırlanırdı. Avropalıların geyimi İslam dünyasının məhsulları qarşısında çox geri qalırdı. Buna görə də müsəlmanların geyimi avropalıların arasında lüks simvolu sayılırdı. Kilsələrdəki ən dəyərli müqəddəs əşyalar İslam ölkələrindən gətirilən qumaş parçalara bükülürdü. Belə ki, orta əsrlərdə çəkilən bəzi xristian rəsmlərindəki geyimlərin üzərində islami yazılar var idi. Müsəlmanlar dünyanın modasını müəyyən edirdilər.

Bütün bunlarla yanaşı, Qərb dünyasının müsəlmanlardan öyrəndiyi daha bir çox mədəniyyət növü var idi. Məsələn, avropalılar yuyunub sabundan istifadə etməyi belə müsəlmanlardan öyrənib. Hətta Avropanın musiqi mədəniyyətinin inkişafında da İslam mədəniyyətinin böyük payı var. İslam dünyasında istifadə olunan simli alətlər avropalılar tərəfindən sonradan mənimsənilib. Qərb musiqisinin əsas alətlərindən olan gitara özü də uda bənzədilərək hazırlanıb.

**Osmanlı və İslam mədəniyyəti**

Əsası 1299-cu ildə qoyulan Osmanlı İmperiyası İslam mədəniyyətinin ən böyük və ən möhtəşəm imperiyalarından biri kimi inkişaf etmişdi. Ədalət və şəfqətə əsaslanan dövlət anlayışı, malik olduğu torpaqlardakı üstün memarlıq abidələri, toxuculuq, xəttatlıq və təhsil sahəsindəki nailiyyətləri ilə Qərb dünyasına əhəmiyyətli nümunə təşkil edirdi. Osmanlı sultanlarının nəzakəti və sənət zövqü qərblilər tərəfindən heyranlıqla anılır, Osmanlı torpaqlarını görən qərblilər gördükləri ehtişamdan çox təsirlənirdilər.

Osmanlı İmperiyası tarixdə bənzəri görünməyən coğrafiyaya hökm etmiş ən uzun ömürlü imperiyalardan biridir. (Təkcə Roma İmperiyası güclü olduğu dövrlərdə Osmanlıdan daha geniş torpaq sahəsi əldə etmiş, ancaq o da Osmanlı İmperiyası qədər uzun müddətli olaraq böyük coğrafi əraziyə sahib çıxa bilməmişdi). Avropa, Şimali Afrika, ön Asiya, Mesopotamiya və Ərəbistan tarixinin ən əhəmiyyətli hissəsi olan Osmanlı mirası bu gün bu torpaqlardakı onlarla dövlətin şəhərlərini bəzəyir. Bir çox Avropa şəhərində (Sofiya, Belqrad, Sarayevo kimi) Osmanlı memarlığının nümunələri hələ də durur.

Osmanlının İslam əxlaqını əsas almaqla qurduğu dövlət və idarəetmə sistemi dövrümüzdə bir çox siyasətçi tərəfindən ən ideal dövlət quruluşlarından biri kimi göstərilir. Osmanlı dövlətinin diplomatiya anlayışı dövrümüzün çoxtərəfli siyasət anlayışının əsasını təşkil etmişdir.

Qərb mədəniyyəti Osmanlı mədəniyyətindən birbaşa təsirlənmişdir. Osmanlıların Macarıstana düyü əkinçiliyini aparması, 16-cı əsrdə İstanbula gəlmiş Habsburq elçisi Busbek tərəfindən lalənin Benilüks ölkələrinə tanıdılması, italyanların parça toxuma və boyama texnikasını Osmanlıdan alması, Avropa ordularındakı hərbi ənənənin Osmanlılardan öyrənilməsi bunun yalnız bir neçə nümunəsidir.[5]

Bütün bu tarixi həqiqətlər İslam əxlaqının müasir dünyanın inşa edilməsində əsas rolu öz öhdəsinə götürdüyünü göstərir. İslam hz.Peyğəmbərə (səv) vəhy edildiyi andan etibarən insanlığı doğru olana, gözəlliyə və həqiqətə aparan ən parlaq işıq olmuşdur. Quran əxlaqını öyrənən müsəlmanlar getdikləri yerlərə şəfqət, elm, sənət, estetika, təmizlik və rifah aparıblar. Avropa qatı xurafat və barbarlıq içində ikən, İslam dünyası dünyanın ən modern və ən müasir mədəniyyəti olmuşdur. Sonradan inkişaf edən Avropa mədəniyyətinin əsasında İslam dünyasından öyrəndikləri bu dəyərlərin böyük rolu var. Tarixçi  Yucin Mayers bu həqiqəti belə ifadə edir:

*"Doqquzuncu əsrin sonlarından on ikinci əsrə qədər Qərbin elm və mədəniyyətinin üzərində İslamın böyük təsiri olub. İslam alimləri və tərcüməçilərinin elmin və insanlığın inkişafındakı mədəni əhəmiyyəti qətiyyən kiçik görülə bilinməz... Dolayısilə, Qərb düşüncəsinin kökü yunan-ərəb və ibrani düşüncənin qarışığıdır".*[6]

Digər tərəfdən İslam dünyasının bir qismində baş verən geriləmənin əsas səbəblərindən biri Quranda öyrədilən ağıl, səmimiyyət və açıq düşüncəlilikdən uzaqlaşmasıdır. Quran insanlığı qaranlıqlardan aydınlığa çıxaran ən böyük yol göstəricidir. Allahın Peyğəmbərimizə (səv) bildirdiyi kimi:

**Əlif. Ləm. Ra. (Bu,) insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – qüdrətli, tərifəlayiq (Allahın) yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir kitabdır. (İbrahim surəsi, 1)**

Dövrümüzdəki müsəlmanlar İslam mədəniyyətinin görkəmli keçmişini öyrənməli, bunun həm şərəfini, həm də məsuliyyətini daşımalıdırlar. Unutmaq olmaz ki, müsəlmanlar dünyanın ən böyük mədəniyyətlərindən birini inşa edən müqəddəs və şərəfli mirasın təmsilçiləridir. Müsəlmanlar digər inanc və mədəniyyətlərin təmsilçiləri tərəfindən daim qibtə və heyranlıqla qarşılanıblar. Məşhur Yaxın Şərq tədqiqatçısı Daniel Payps bir məqalədə müsəlmanların özlərinə güvənməklərindən bəhs etdikdən sonra belə bir şərh yazır:

*"Bu özünə inamı qazandıran səbəblərdən biri İslamın ilk 6 əsrdə və daha sonralar misilsiz müvəffəqiyyətlərinin xatirəsidir. Bu dövrdə İslam dünyanın ən irəli mədəniyyəti idi; müsəlmanlar ən yaxşı sağlamlıq standartlarına, uzun ömürlülüyə və ən yüksək oxuyub-yazmaq bacarıqlarına sahib idilər. Elmi və texniki araşdırmaların çoxu onların nəzarətində idi və ümumiyyətlə, müzəffər ordular qururdular. Bu müvəffəqiyyət ilk vaxtlar açıq şəkildə ortada idi. Miladi 622-ci ildə hz.Muhəmməd Məkkədən getmiş, lakin 8 il sonra şəhərə onun rəhbəri olaraq dönmüşdü. Hələ 715-ci ildə müsəlman fatehlər qərbdə İspaniyadan, şərqdə Hindistana qədər uzanan imperiya qurmuşdular. Müsəlman olmaq qazanan mədəniyyətə aid olmaq mənasına gəlirdi".*[7]

Şübhəsiz, indi müsəlmanların vəzifəsi təkcə şanlı keçmişə güvənmək deyil, bu gün və gələcəkdə də İslamı yüksəltmək üçün çalışmaq olmalıdır. Belə ki, keçmişdəkinə bənzər ehtişamın bu gün yenidən inşa edilməsi, müsəlmanların yenidən dünyaya işıq tutan mədəniyyət öndərləri olması mümkündür. Lakin bu istiqamətdəki bütün işlər, öncəliklə, birlik və bərabərlik ruhu içində görülməlidir. Şəxsi mənfəət və narahatlıqlarını bir kənara qoyan, fərqlilikləri şəfqətlə qarşılayan, güc və enerjisindən yalnız İslamın, müsəlmanların və insanlığın xeyrinə istifadə edən, uzlaşmağı və sülhü sevən mədəniyyət müsəlmanların arasında hakim olarsa, İslam dünyası 21-ci əsrin ən böyük mədəniyyətlərindən birini inşa edə bilər. Sevgi, mərhəmət, anlayış, tolerantlıq kimi İslam əxlaqının təməli olan dəyərlər sayəsində mədəni və iqtisadi yöndən inkişaf baş verəcək, dünyanın müxtəlif ölkələrində təzyiq altında olan, zülmə məruz qalan və amansız şəkildə qətl edilən müsəlmanlar sülh və əmniyyətə qovuşacaq, Allahın izni ilə, səadət əsri dövrünün bənzəri 21-ci əsrdə yenidən yaşanacaq.

## NİYƏ İSLAM BİRLİYİ?

İslam dünyasının gələcəyinin dünyada sülh və təhlükəsizliklə birbaşa əlaqədar olduğu dövrümüzdəki bir çox mütəfəkkir tərəfindən dilə gətirilir. İslam dünyası təqribən 1,5 milyard nüfuzu (bu rəqəmlə dünya əhalisinin ¼-ni təşkil edirlər), sahib olduğu yeraltı zənginlikləri və əhəmiyyətli strateji coğrafiyası ilə böyük güc təşkil edir. İkinci Dünya Müharibəsinə qədər çoxu müstəmləkə olan müsəlman ölkələri müharibədən sonra başlayan inqilablarla müstəqillik qazanmışdır və bu vəziyyət İslam coğrafiyasının görünüşünü dəyişdirmişdir. İslam coğrafiyasındakı əsil dəyişiklik isə soyuq müharibənin sona çatması ilə birlikdə baş vermişdir. Bu tarixə qədər Afrika-Asiya coğrafiyası olaraq qəbul edilən İslam dünyası Albaniya və Bosniyadan Çeçenistan və Tacikistana uzanan Avrasiya (Avropa-Asiya) coğrafiyasına çevrilmişdir. 80-ci illərdə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müsəlman ölkə kimi təkcə Türkiyə üzv idisə, bu gün bu rəqəm 9-a çatmışdır.[8]

Bu müddət içində İslam dünyasının demoqrafik prosesində baş verən dəyişiklik də İslam coğrafiyasına təsir etmişdir. 20-ci əsrin əvvəllərinə qədər müsəlmanlar – qısa müddətli işğallar xaric– demək olar ki, İslam torpaqlarında, yəni müsəlman idarəçiliklərində yaşayıblar. 20-ci əsrin birinci yarısından etibarən müsəlmanlar öz istək və iradələri ilə Avropa ölkələrinə və Amerikaya

köçməklə həmin yerlərdə  əhalinin əhəmiyyətli qismini təşkil ediblər. Bu gün Amerikada və bir çox Avropa ölkələrində İslam ən sürətli yüksələn din olmuş, qərbdəki müsəlmanların sayının artması onların sosial və siyasi həyatda təsirini artırmışdır. Beləliklə, İslam coğrafiyası əhalisinin çox hissəsi müsəlman və ya müsəlmanların idarəsi altında olan ölkələrlə məhdudlaşmayan daha böyük coğrafiya halına gəlmişdir.

Qafqazdan Tanzaniyaya, Mərakeşdən Ficiyə qədər geniş əraziyə yayılan İslam dünyası tarixin böyük mədəniyyətlərinin doğulub inkişaf etdiyi hövzədə yerləşir. Bölgənin sahib olduğu geosiyasi və geoiqtisadi xüsusiyyətlər bu coğrafiyanı bu gündə beynəlxalq əlaqələrin və dünya siyasətinin əhəmiyyətli nöqtəsinə yerləşdirmişdir.

Dünya ticarət yollarının əsas kəsişmə və keçid yerlərinin bu ərazilərə daxil olması da önəmli ünsürlərdən biridir. Qara dənizi Aralıq dənizi ilə əlaqələndirən, həmçinin Aralıq dənizi və Bəsrə körfəzini Hind okeanına birləşdirən boğaz, kanallar və Hind okeanındakı əsas keçid nöqtələrinin müsəlmanların nəzarətində olduğu düşünülərsə, İslam dünyasının daşıdığı əhəmiyyət daha yaxşı başa düşülər. Əlavə olaraq, neft-qaz kimi təbii sərvətlərin İslam coğrafiyasında yerləşdiyini də buna daxil etsək, hər şey daha da aydınlaşar. Bu xüsusiyyətlərin hamısı İslam dünyası üçün strateji imkanlardır və bu imkanların yaxşı dəyərləndirilməsi müsəlmanların dünya siyasətindəki təsirini daha da artırır.

Bu gün belə müsəlmanların birbaşa və ya dolayı yolla 21-ci əsrdə əsas rol oynayacağı açıq şəkildə görünür. Ancaq əhəmiyyətlisi odur ki, bu, başda İslam dünyası olmaqla, bütün bəşəriyyətə faydalı olmalıdır. Bu mərhələdə belə bir şey düşünülür ki, İslam dünyası indiki vəziyyəti ilə bu vəzifəni öz üzərinə götürməyi bacara bilərmi? Şübhəsiz ki, müsəlmanlar bu məsuliyyəti öz öhdəsinə götürmək gücünə və şüuruna sahibdirlər. Lakin bu gün İslam dünyasına baxanda bəzi ölkələrdə demokratik üsul-idarənin tam yerləşmədiyi, texnologiyanın zəif olduğu və iqtisadiyyatın inkişaf etmədiyi kimi müəyyən problemlər gözə çarpır. Dünya siyasətində aktiv rol oynamağa hazırlaşan İslam dünyası bunun kimi çatışmazlıqları qısa zamanda həll etməlidir. Bundan başqa, İslam dünyasının birinci olaraq ən həyati və ən əsas problemi var: bölünmüş vəziyyətdə olmaq! Dünya müsəlmanlarının güclü və aktiv İslam Birliyi təmin edə bilməməsi bu gün müxtəlif problemlərin kökündə yer alan əhəmiyyətli çatışmazlıqdır. Güclü birlik təmin edilərsə, müsəlmanlar yaşanan problemlərin bənzərləri ilə heç qarşılaşmazlar, ortaya hər hansı bir problem çıxdıqda belə, qısa müddətdə həll edilər.

Burda bunu vurğulamaq lazımdır ki, bölünmə dedikdə söhbət fərqli məzhəb və təcrübələrin mövcudluğundan getmir. Müsəlmanların birləşməsi hamısının tək bir idarə altında toplanması mənasına gəlmir. Əhəmiyyətlisi odur ki, həmin müxtəlifliklərin inanc birliyi altında, müxtəlif fikirlərdə ortaq məxrəc (fikir plüralizmi) və həmrəylik çərçivəsində toplanmasının təmin edilməsidir. Görüş, düşüncə və davranış fərqlilikləri bütün cəmiyyətlərdə rast gəlinən adi haldır. Müxtəliflklər olsa da, müsəlmanlar İslam əxlaqına uyğun olaraq unutmamalıdırlar ki, onlar bir-birilərinin qardaşlarıdır. İrqi, dili, vətəni və məzhəbi nə olursa olsun, bütün müsəlmanlar qardaşdırlar. Buna görə də İslam dünyasındakı fərqliliklər bir zənginlik kimi dəyərləndirilməli, bunlar müsəlmanların çəkişməsinə səbəb olmamalıdır. Həmçinin onları əsas mövzulardan uzaqlaşdırıb ayrılığa səbəb olmamalıdır.

Kitabın növbəti səhifələrində İslam Birliyinin müsəlman dünyası üçün zəruriliyindən bəhs olunacaq, bu birliyin dünya sülhü üçün əhəmiyyəti detalları ilə ortaya qoyulacaq. Lakin bundan əvvəl İslam dünyasının necə bölündüyünü və bu vəziyyəti ortadan necə qaldırılacağını araşdıracağıq.

### Bölünmənin səbəbləri

İslam dünyasının bölünməsi 20-ci əsrin əvvəllərinə təsadüf edir. Bundan əvvəl fərqli məzhəb, irq və dillərə məxsus müsəlmanlar müxtəlif İslam imperiyalarının idarəsi altında bir arada hüzur və asayiş içində yaşayırdılar. Bundan başqa, həm də çox güclü idilər. Lakin 19-cu əsrin təxribatçı cərəyanlarından biri olan radikal millətçilik İslam dünyasında da təsirini göstərməyə başladı. Müsəlmanların bir qismi qərbə məxsus fikir cərəyanlarının təsiri altında qalaraq təlqin nəticəsində bu ideologiyanı mənimsədilər. Bu əsnada İslam imperiyalarının zəifləməsi ilə müsəlmanların böyük əksəriyyəti qərbli qüvvələrin müstəmləkəsinə çevrildilər. İstismarçılar İslam torpaqlarından çəkilsələr də, tərk etdikləri əraziləri süni şəkildə sərhədlərə bölüb müxtəlif dövlətlər qurdular. Bu vəziyyət bəzi müsəlmanlar arasında yayılan radikal millətçilik hərəkatları ilə birləşincə isə ortaya olduqca qarışıq mənzərə çıxdı. Müsəlman cəmiyyətləri arasındakı etnik fərqliliklər qarşıdurma vasitəsinə çevrildi. Qısa müddət əvvələ qədər eyni torpaqlarda bir arada yaşayan xalqlar bir anda fərqli sərhədlər arasında yaşayan, aralarında anlaşılmazlıqlar olan və bir-birinə zidd cəmiyyətlərə döndülər. Qısa zamanda hər ölkə ilə qonşusu arasında başda sərhəd anlaşılmazlığı olmaqla müxtəlif mübahisələr meydana çıxdı. (Bu anlaşılmazlıqların bir qismi İran-İraq müharibəsində olduğu kimi, iki müsəlman dövlətin bir-biri ilə müdhiş müharibəsinə qədər gedib çıxdı). Beləliklə, İslam dünyası bir əsr boyu davam edəcək qeyri-sabitlik dövrünə qədəm qoydu.

Burada bunu qeyd etmək lazımdır ki, millət, vətən sevgisi və müstəqillik tələbi qanuni və nəcib duyğulardır. Millətçilik hissinin qeyri-qanuni hala gəlməsi sevginin ehtirasa dönməsi ilə başlayır. Bir insan millətini sevərkən digər millətlərə qarşı səbəbsiz yerə kin bəsləməyə başlayırsa, öz millətinin maraqları üçün başqa xalqların haqlarını tapdalamağı, məsələn, onların torpaqlarını ələ keçirməyi, mallarını talan etməyi hədəf alırsa, deməli, bu sevgi qeyri-qanuni hala gəlmişdir. Yaxud da öz millətinə olan sevgisini bir növ irqçiliyə döndərirsə, yəni öz millətinin irsi olaraq digərlərindən üstün olduğunu iddia edirsə, yenə də qeyri-qanuni fikir formalaşdırmış olur. Millətçiliyi irqçi düşüncəyə çevirib iki müsəlman cəmiyyəti arasında ədavət toxumlarını səpməklə müsəlman qardaşlığı anlayışına xələl gətirəcək şəkildə şərh edilməsi də yanlışdır.

Allah bu yanlış fikrə Quranda diqqət çəkmişdir. Ayələrdə **"cahiliyyə təəssübkeşliyi"** olaraq təsvir edilən bu düşüncə cahil cəmiyyətlərin (din əxlaqından uzaq cəmiyyətlərin) xüsusiyyəti kimi izah olunur:

**Kafirlər öz qəlbində həyəcanlı təəssübkeşliyə – cahiliyyə təəssübkeşliyinə qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

Diqqət edilirsə, ayədə həyəcanlı təəssübkeşlikdən söz açılır; Allahın buna qarşı möminlərə əminlik və təskinlik hissini verdiyi bildirilir. Deməli, öz cəmiyyətinə (tayfasına və ya millətinə) qarşı sevgisində həyəcanlı və aqressiv hərəkətlərə yol verən insanların halı Quran əxlaqına ziddir. 19-cu əsrdə materialist Avropada inkişaf edib müsəlman cəmiyyətlərə də aşılanan millətçilik anlayışı həyəcanlı və ifrat millətçilikdir. Millətçilik yalnız İslam dünyasında deyil, haradasa bütün dünyada qarşıdurmalara və siyasi yöndən qeyri-sabitliyə səbəb olmuşdur.

Halbuki insanlar arasında irq və nəsil-nəcabət baxımından ayrı-seçkilik salmaq, etnik fərqlilikləri anlaşılmazlıq mövzusuna çevirmək Quran əxlaqına qəti şəkildə ziddir. Rəbbimiz bir ayədə belə buyurmuşdur:

**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hücurat surəsi, 13)**

Allah **“Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır!”** ayəsi ilə də insanların fərqli irq və millətlərdən olmasının Özünün ayələrindən biri olduğunu bildirmişdir. Bu fərqliliklər ədavət və qarşıdurma mövzusu deyil, bir növ zənginlik və müxtəlifliklikdir.

Tarix İslamın etnik fərqlilikləri uzlaşdırmasının nümunələri ilə doludur. Hz.Muhəmməd (səv) səhabələri irq və qəbilə ayrı-seçkiliyi salmaqdan, insanları millətinə, cinsiyyətinə və dilinə görə ayırmaqdan, hətta eyni topluluq daxilində onları maddi imkanlarına görə siniflərə bölməkdən qəti çəkindirmişdir. Peyğəmbərimiz (səv) vida xütbəsində aşağıdakı sözləri ilə müsəlmanları diqqətli olmağa dəvət etmişdir:

***“Ey insanlar, bu, mütləqdir ki, Rəbbiniz də, atanız da birdir. Hamınız Adəmdən, Adəm də torpaqdandır. Allah yanında ən üstün olanınız Ondan ən çox qorxanınızdır. Ərəb əcəmdən, əcəm ərəbdən, ağ qaradan, qara da ağdan üstün deyil, təqva xaric”.***

Peyğəmbərimizin (səv) və dörd xəlifənin dövründə ard-arda davam edən fəthlər İslam dünyasını qərb və şərqə qədər genişləndirmiş, fərqli millətlərin nümayəndələri İslam bayrağı altında birləşmişdir. Qəbilə savaşları və sonu gəlməyən qan davaları içində boğulan Yaxın Şərq İslam əxlaqının yayılması ilə sakitliyə qovuşmuş, təkcə ərəblərin arasındakı qəbilə savaşları deyil, müsəlmanların fəth etdikləri bütün torpaqlarda qarşıdurmalar sona çatmışdır. Bəzi xristian məzhəbləri arasındakı şiddətli mübarizələr belə, müsəlmanların hakim olduğu yerlərdə sülhlə nəticələnmişdir. Öz aralarında savaşan qəbilələr, qarşı tərəfi amansız şəkildə yox etməyə çalışan topluluqlar İslam bayrağı altında bir-birilərinə hörmət göstərməyə başlamışdır.

Dövrümüzdəki müsəlmanlar da eyni düşüncəyə sahib olmalıdırlar. Müsəlmanlar arasındakı münasibətlərdə əsas ölçü irq, etnik mənşə, dil, imkan və məqam kimi xüsusiyyətlər deyil, iman və gözəl əxlaq olmalıdır. Səmimi iman edənlər arasında sevgi digərinin Allahdan qorxmasına, Rəbbimizə duyduğu sevgiyə və gördüyü saleh işlərə görə şəkillənir. Əgər bir adam həyatını Allah yoluna həsr etdiyini bütün hərəkətləri ilə sübut edirsə və hər zaman Allah rizası üçün gözəl davranışlar göstərirsə, möminlər o şəxsə qarşı sevgi hiss edərlər. Həmin şəxsin dərisinin rəngini, millətini və ya maddi imkanlarını müqayisə mövzusu etməzlər. Bu xüsusiyyətlər heç bir zaman möminlərin sevgisinə müsbət və ya mənfi təsir göstərməz. Eyni şeylər müsəlman cəmiyyətləri arasındakı əlaqələrdə də əsaslıdır. İki müsəlman topluluq arasındakı münasibət Quranda bildirilən şəkildə olmalıdır. Müsəlmanlar bir-birilərinin yardımçısı və vəlisidir.

Dövrümüzdə İslam dünyasının parçalanmış olmasının ən əsas səbəblərindən biri bu düşüncənin azlığıdır. Buna səbəb isə Qurandan uzaqlaşıb dindən xaric fikir cərəyanlarının təsirinə düşməkdir. Qərbdə formalaşan dinə zidd fəlsəfə və ideologiyaları mənimsəməyən bəzi ziyalılar elə zənn ediblər ki, bu fikirləri müsəlman torpaqlarında yaymaq onları irəli aparacaq. Bu tarixi xətanın səbəb olduğu təxribatın izləri bu gün də açıq şəkildə görünür. Ədaləti, fədakarlığı, şəfqət və mərhəməti, açıq fikirliliyi gətirən Quran əxlaqının yerinə bəzi azğın fəlsəfə və ideologiyaların cəmiyyətlərə aşılanması ilə müsəlman dünyasındakı həmrəyliyin və nizamın yerini bölünmələr və qarışıqlıqlar almışdır. Bu qarışıqlıqları sona çatdırmaq üçün bəzi ölkələrdə yenə Quran əxlaqına zidd modellər ortaya çıxmış və xalqı amansız şəkildə əzən despot rejimlər qurulmuşdur.

Bu gün İslam dünyasının gələcəyinə dair yol xəritəsi müəyyən edilərkən bu tarixi təcrübədən dərs çıxarıb yanlış istiqamət və təlqinlərdən qorunmaq lazımdır. Tarix açıq şəkildə göstərir ki, İslam dünyası ancaq özündəki dəyərlərə sahib çıxarsa, yüksələ bilər. Bu dəyərlərin ən əhəmiyyətli olanlarından biri müsəlmanların birlik və bərabərliyidir.

## CƏNAB ADNAN OKTARIN “AL BAGHDADI” MÜSAHİBƏSİ

**(29 iyun, 2008)**

**Müxbir:** Müsəlmanlar qətliamlara məruz qalır. Daha əvvəl Bosniya və Herseqovinada olub. İndi bu, İraq, Əfqanıstan, Fələstində davam edir. Sizcə, bu mövzuda nə etmək lazımdır?

**Adnan Oktar:** Müsəlmanların birlik olmaması, birlikdə hərəkət etməməsi haramdır. Haram bir hökmdür. **Müsəlmanların birlikdə hərəkət etməsi, toplu şəkildə qardaş olması, hamısının qardaş olması və bir lider ətrafında toplanması Qurana əsasən, fərzdir.** Müsəlmanlar bunu etmirlər. Bunu etmədikdə də hər cür bəlanın qapısı açılır. **Müsəlmanlar bu fərzi yerinə yetirməlidirlər.** Mən buna görə deyirəm ki, İslam həmrəyliyi olsun. Hər dövlət ayrıca milli dövlət kimi qalsın, hər dövlət öz daxilində azad yaşasın, fəqət başlarında mənəvi lider olsun. Çünki xristianların lideri– Papası var. Müsəlmanların da mənəvi liderinin olması şərtdir. Bu mənəvi birliyin başında bir nəfər olarsa, bu qarışıqlıq və fitnələr asanlıqla sona çatar. **O zaman dünyanın hər hansı bir yerində müsəlmanların barmağının ucuna zərər gəlsə, bütün müsəlmanlar toplu şəkildə hərəkət edəcəyi üçün bu hadisə o dəqiqə dayandırılar.** Lakin belə bölünmüş durumda olsalar, "böl, parçala, ud" siyasətinin hədəfinə çevrilsələr, əlbəttə ki, kiçik hissələri udmaq asandır. Lakin bütün birlik içindəki müsəlman aləmini udmaq mümkün deyil. Müsəlmanlar bu fərzi qısa müddət ərzində yerinə yetirməlidirlər.

**Tarixi nümunə: Səlahəddin Əyyubinin İslam Birliyi**

Səlibçilərə qarşı İslam dünyasının vəziyyəti bu mövzuda əhəmiyyətli nümunə təşkil edir.

1096-cı ildə başlayan səlib yürüşünün orduları Yaxın Şərqə çatanda müsəlmanlar anlaşılmazlıq və çəkişmələr üzündən müxtəlif əmirliklərə bölünmüşdülər. Elə bu səbəbdən də Avropadan gələn barbar işğalçılara qarşı çıxa bilmədilər. 1099-cu ildə Qüdsdə qorxunc qətliam törətməklə qurulan səlibçi krallığı on illər ərzində müsəlmanların bu vəziyyətindən faydalandı. Lakin böyük İslam sərkərdəsi Səlahəddin Əyyubinin müsəlman əmirlikləri bir-bir öz hakimiyyəti altına alıb birləşdirməsi ilə birlikdə müsəlmanlar səlibçilərə qarşı çıxmaq gücü qazandılar.

Yenə də müsəlmanların səlibçiləri məğlub etməsi bir gündə baş tutmayacaqdı. Səlahəddin Əyyubi müsəlmanları bir bayraq altında birləşdirərkən, digər yandan da elmi və əxlaqi oyanış başlatmışdı. Britannika ensiklopediyasında bu barədə aşağıdakı məlumatlar verilir:

*"Müsəlmanların dini qurumlarını təşviq edib fəaliyyət dairəsini genişləndirmək (Səlahəddin Əyyubinin) siyasətinin əsas hissələrindən biri idi. Elm adamlarına və din alimlərinə sahib çıxdı, onların biliyindən istifadə etmək üçün universitet və məscidlər inşa etdirdi və onlara İslam dünyasının faydasına çoxlu əsər yazdırdı... Əxlaqın yenidən doğulması ilə (bu, onun şəxsi həyatının əsas amili idi) özündən beş yüz il əvvəl dünyanın yarısını fəth edən ilk nəsil müsəlmanların qərarlılığını və şövqünü yenidən oyandırmağa çalışdı".*

Elmi, əxlaqi və imani yüksəliş müsəlmanların siyasi birliyi ilə birləşincə İslam mədəniyyəti bir daha yüksəldi. Səlahəddin Əyyubinin əmrindəki birləşmiş İslam ordusu 1187-ci ildə Hattin döyüşündə –bölünmələr və qarışıqlıqlar üzündən– səlibçiləri məğlubiyyətə uğratdı. Daha sonra Qüds daxil olmaqla, səlibçilərin işğalındakı bütün Fələstin torpaqlarını azad etdi.

Səlahəddin Əyyubinin və rəhbərliyi ilə qurulmuş İslam Birliyinin ən diqqət çəkən yönü isə Quran əxlaqına uyğun olaraq elm, ədalət və sülh kimi dəyərləri ən yaxşı şəkildə təmsil etməsi idi. Səlahəddin Əyyubi, ümumiyyətlə, səlib yürüşlərinə qarşı zəfəri ilə tanınır, lakin onun digər əsas xüsusiyyətlərindən biri səlibçilərə və bütün xristianlara qarşı son dərəcə ədalətli davranması idi. Səlibçilər müsəlmanlara qarşı həddən artıq zalım davransalar da, Səlahəddin Əyyubi onlardan intiqam almamış, Qüdsü fəth edərkən şəhərdəki heç bir xristiana zərər verməmişdi. Səlahəddin Əyyubi eyni zamanda öz tərəfindəki radikalların da qabağını almışdı. III Xaş yürüşünün başında

duran İngiltərə kralı Riçardın Əkr qalasında üç min dinc müsəlmanı qətlə yetirməsindən sonra bəzi şəxslər intiqam almağa çalışmışdılar. Beləliklə, Yafa şəhərində (indiki Tel-Əvivdə) xristianlara qarşı kütləvi qırğın planı qurmuşdular. Səlahəddin Əyyubi öz ordusunda bu radikal meyilliliyi dayandırmaq və Yafadakı xristianların təhlükəsizliyini təmin etmək üçün böyük cəhd göstərdi və müvəffəqiyyətli oldu.

Nəhayət, Səlahəddin Əyyubi səlibçilərə bir neçə imtiyaz və imkanlar verib müqəddəs torpaqlara sülh gətirə bildi. 28 avqust 1192-ci ildə səlibçilərlə müsəlmanlar arasında sülh müqaviləsi bağlandı. Bundan sonra Səlahəddin Əyyubi bu şəhəri ələ keçirmək üçün minlərlə müsəlmanı öldürən səlibçi ordu başçılarına böyük jest edib onları qonaq kimi Qüdsə dəvət etdi. Qüdsü ziyarət edən xaçlı başçılar müsəlmanlarda gördükləri bu şəfqət və ədalət qarşısında heyranlıqlarını gizlədə bilmədilər. Səlahəddin Əyyubi bir dəfə İngiltərə kralı Riçardın xəstə olduğunu öyrənmiş, yanına öz həkimini göndərmişdi. Səlahəddin Əyyubinin Quran əxlaqına əsaslanan bu yüksək əxlaqı onu bütün Avropada əfsanəyə çevirmişdi.

Qısası, Səlahəddin Əyyubinin qurduğu İslam Birliyi müsəlmanlara həm güc və zəfər qazandırmış, həm də İslam əxlaqının özünəməxsus ədalət, şəfqət və sülhsevərlik kimi dəyərlərinin yenidən canlanmasına vəsilə olmuşdu. Müsəlmanlar İslama xidmət etmək üçün təşviq edilmiş, eyni zamanda bəzi radikal meyilliklər əngəllənərək müsəlmanların Quran əxlaqına görə davranışı göstərilmişdir.

Səlahəddin Əyyubinin qurduğu İslam Birliyindən düz səkkiz əsr keçib. Lakin tam o dövrdəki səbəblərə görə bu gün də müsəlmanlar üçün İslam Birliyi lazımdır. Əlbəttə, bu gün İslam dünyasına qarşı səlibçilər dövründə olduğu kimi, mütəşəkkil şəkildə hərbi hücum yoxdur. Lakin İslam dünyası müxtəlif bölgələrdə fərqli təhdidlər altındadır. Bundan başqa, İslam dünyası digər cəmiyyətlərdən arxada qalmış, elm, texnologiya, mədəniyyət, incəsənət kimi sahələrdə – uzun müddət dünya lideri olmasına baxmayaraq – çox geriləmişdir. Digər tərəfdən başqa cəmiyyətlərdə ortaya çıxan bir çox yanlış fəlsəfə və ideologiyalar 19-cu əsrdən başlayaraq İslam dünyasına daşınmaqla Quran əxlaqını tam mənası ilə bilməyən bəzi müsəlmanları təsiri altına almışdır. İslamı təmsil etmək iddiası ilə ortaya çıxan, amma həqiqətdə İslam əxlaqına tamamilə zidd olan vəhşiliklər törədən bəzi radikallar isə İslam ilə digər mədəniyyətlər arasında qarşıdurmanı qızışdırmaq istəyənlərə, çox vaxt özləri də bilmədən xidmət etməkdədirlər.

Bütün bunların sona çatması və müsəlmanların yenidən dünyaya istiqamət verən, ədalət və sülh gətirən mədəniyyət qurması üçün Səlahəddin Əyyubinin üsulu tətbiq olunmalıdır: **İslam dünyasında əxlaqi, imani və elmi yöndən dirçəlişə yenidən başlamaq və bir tərəfdən də müsəlmanların siyasi birliyini təmin etmək.**

### Fərqliliklərə qarşı anlayışlı davranmaqla birləşmək

Müsəlmanların birlik olması təkcə mövcud vəziyyətin sona çatması üçün ehtiyac duyulan siyasi bir zərurət deyil. Bundan daha əhəmiyyətlisi, birlik və bərabərlik onsuz da müsəlman olmağın şərtlərindən biridir. Müsəlmanlar həyatın hər sahəsində olduğu kimi, milli və beynəlxalq siyasətdə də Quran əxlaqına uyğun davranmalıdırlar. Quran əxlaqının əsasa alınması bu ittifaqın daimi və aktiv olmasını təmin edəcək. İslam əxlaqı müsəlmanların həmişə birləşdirici üslubdan istifadə etmələrini və həmrəylik içində din qardaşı olmalarını tələb edir. Allah Quranda möminlərə: "**Bir-birinizlə mübahisə etməyin"** (Ənfal surəsi, 46) – deyə əmr edir, bunun müsəlmanları zəiflədəcək vəziyyət olduğunu bildirir. Başqa bir ayədə də belə buyurulur:

**Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir. (Ali-İmran surəsi, 105)**

Vicdan və ağılla hərəkət edən, öz mənfəətlərinin deyil, ədalətin arxasınca gedən möminin digər iman edənlərlə ittifaq qura bilməməsi mümkün deyil. Bu, fərdlərə aid olduğu kimi, cəmiyyətlərə və millətlərə də aiddir. Belə ki, Allah Quranda bu həqiqətə diqqət çəkmiş, müsəlman cəmiyyətlərin bir-birilərinə ədalətsizlik edib düşmənçilik bəsləmələrini qadağan etmişdir. Quranda belə davrananların qabağını kəsmək və fərqli müsəlman cəmiyyətləri barışdırmaq əmr olunur:

**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini (yerinə yetirməyə) qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. (Hücurat surəsi, 9)**

Əlbəttə, hər bir müsəlman cəmiyyətində mədəni və ənənəvi yöndən fərqli xüsusiyyətlər ola bilər. Fərqli şərh, düşüncə və fərqli məzhəblər ola bilər. Bu, olduqca təbiidir. Lakin bu fərqliliklərdən dolayı bir müsəlman topluluğun digərinə qarşı cəbhə açması, fərqli dəyərlərə görə digərini yad, hətta düşmən görməsi çox yanlışdır. Bu vəziyyət qətiyyən qəbul edilə bilməz.

Allah Quranda müsəlmanları bu xətaya düşməmək üçün xəbərdar etmiş, kitab əhlinin bundakı xətasını ibrət olaraq göstərmişdir. Quranda kitab əhlinin (xristian və yəhudilərin) xətasından bəhs edilərkən bu cəmiyyətlərin öz aralarında bölünüb ayrılmasından söz edilir. “Beyyinə” surəsinin 4-cü ayəsində kitab əhlinin özlərinə açıq-aydın dəlillər gəlməsinə baxmayaraq, fərqli firqələrə bölünməsi xəbər verilir. Digər ayələrdə isə bu ayrılığın səbəbləri arasında zülm, ədavət və həsəd kimi olumsuz xüsusiyyətlərdən bəhs edilir:

**Onlar yalnız özlərinə elm gəldikdən sonra aralarındakı ədavət üzündən ayrılığa düşdülər... (Şura surəsi, 14)**

**Həqiqətən, Allah dərgahında din İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, (bilsin ki,) Allah tez haqq-hesab çəkəndir. (Ali-İmran surəsi, 19)**

Bu ayrılıq səbəbi ilə kitab əhlinin tarixinin çəkişmələrlə dolu olduğu aşkar həqiqətdir. Xristianlığın ilk 1600 illik tarixi bir-biriləri ilə münaqişə edən fərqli xristian məzhəblərinin tarixi sayıla bilər. Kiçik fikir ayrılıqları belə xristianların bir-birilərini inkarçılıqda günahlandırmalarına səbəb olmuşdur. Bu çəkişmə daxilində Roma Katolik kilsəsi bir müddət hökmranlığı təmin etmiş, ancaq sonrakı əsrlərdə həmin kilsə kafir hesab etdiyi fərqli dini məzhəblərə (bunlardan doketizm, montanizm, adoptionizm, savellianizm, arianizm, pelaqionizm və qnostisizmi göstərmək olar) qarşı böyük təzyiqlər etmişdir. Papa hakimiyyətinin 11-ci əsrdən etibarən katar və boqomilçilər kimi fərqli dini cərəyanlara göstərdiyi təzyiqlər, ardınca isə protestantlarla katoliklər arasında baş verən və yüz ildən çox davam edən qanlı savaşlar Avropa tarixinin ən qaranlıq dövrləri ilə üst-üstə düşür. Maraqlıdır ki, Avropa mədəniyyətinin yüksəlişi həmin məzhəb savaşlarının bitməsindən sonra başlamışdır. Siyasi tarixçilərin qəbul etdiyi kimi, müasir Avropa fərqli xristian məzhəblərinin bir-birinə tolerant yanaşması fikrinin əsas tutulduğu məşhur Vestfaliya sülhündən (1648-ci il) sonra meydana çıxmışdır.

İnsanların dini cəhətdən bölünmələrinin kökündə Allahın əmr etdiyi əxlaqı yaşamamaq durur. Bu əxlaq təvazökarlığı əsas götürür. Təvazökarlıqdan uzaqlaşanlar özlərini və öz fikirlərini mütləq doğru olaraq görür. Özlərindən fərqli düşünənləri kiçik görüb onlara düşmənçilik bəsləyirlər. Öz düşüncələrinin doğruluğundan heç şübhə etmədiklərinə görə heç bir zaman

özlərini hesaba çəkməz, dolayısilə, daha yaxşıya və doğru olana getməzlər. Yalnız öz fikrini bəyənib bununla öyünənlər haqqında Quranda belə buyurulur:

**Lakin onlar öz işlərini aralarında parçalayıb firqələrə bölündülər. Hər firqə öz əllərində olana sevinir. (Muminun surəsi, 53)**

Allahdan qorxub çəkinənlər və axirətdə hesab verəcəyinə inananlar bu vəziyyətdən qətiyyətlə kənar durarlar. Bunun əhəmiyyətinin fərqində olanlar digər möminləri də bölünüb ayrılmaqdan çəkindirməli, müsəlmanları Quran əxlaqında birləşdirmək üçün durmadan cəhd göstərməlidirlər.

Nümunəvi müsəlmanlar insanlara qarşı Rəbbimizin təzahürləri olduqları üçün sevgi, mərhəmət və şəfqətlə yaxınlaşarlar. Özləri ilə eyni inancı paylaşan, Qurana iman edən, Allahın əmrlərini yerinə yetirən və Peyğəmbərimizin (səv) sünnəsinə tabe olanları isə qardaş olaraq görür, bir-birilərinin himayədarları olduqlarını unutmazlar. Müxtəlif müsəlman topluluqları arasındakı mədəni və ənənəvi fərqliliklərdən dolayı məzhəblərə bölünməyin və bunları sürəkli ön plana çıxarıb ixtilaf salmağın yerinə Quran əxlaqını yaşamaqda ittifaq etmək lazımdır. Müsəlmanlar ittifaqda bir-birilərini dəstəkləməli, ixtilaflı məsələlərdə şəfqətlə davranmalıdırlar. Yuxarıda da vurğuladığımız kimi, bu mövzunun əhəmiyyətini görən səmimi müsəlmanlar və İslam dünyasının öndərləri bunun üzərində çoxlu çalışmalı, müsəlmanlar arasında birlik və bərabərliyi təşviq etməlidirlər. Müsəlman dünyasında sevgi, hörmət mərhəmət və şəfqətə əsaslanan həmrəylik inşa etməlidirlər.

Bir daha xatırlatmaq lazımdır ki, İslam əxlaqının təməlində ixtilaf və ayrılıq deyil, inanc birliyini və ortaq dəyərləri əsas alan anlayış vardır. Hz.Muhəmməd (səv) **“sizə iki şey qoyub gedirəm, onlara möhkəm sarıldıqca əsla dəlalətə düşməzsiniz: Quran və mənim sünnəm”** sözləri ilə müsəlmanlara doğru yolu göstərmişdir. Bizə düşən bu yola tabe olmaqdır. Haqq dinə tabe olmaq və ayrılığa düşməkdən çəkinmək Allahın bütün inananlara əmridir. Allah bir ayədə belə buyurur:

**(Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın! Sənin dəvət etdiyin müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və (Ona) üz tutanı Özünə tərəf yönəldər. (Şura surəsi, 13)**

## CƏNAB ADNAN OKTARIN “DENGE” TELEVİZİYA KANALINA VERDİYİ MÜSAHİBƏ (9 DEKABR, 2009)

**Adnan Oktar:** Baxın, bu məzhəb ayrılığından qaynaqlanan müxalif ruhu ortadan qaldırmaq lazımdır. **Şiə, ələvi, bektaşi hamısı qardaşımızdır. Hamısı mömin, müttəqi, tərtəmiz adamlardır. Hamısı Allaha və peyğəmbərlərə aşiqdirlər; dərin sevgi bəsləyirlər. Qardaşlarımız bizim üçün bir nemətdir.** Bu fikir – müxaliflik fikri aradan götürülməlidir. Bundan başqa, İslam əxlaqı İslam coğrafiyasına yayıldıqda bu, çalışqanlıq, aktivlik, zehin açıqlığı, keyfiyyət və s. meydana gətirir. Bunun bərəkət və gözəlliyini bütün müsəlmanlar görər. Hətta xristian və musəvilər də istifadə edərlər. Bunun üçün tələsmək lazımdır bir az.

## CƏNAB ADNAN OKTARIN İNDONEZİYANIN “ANTARA” XƏBƏR AGENTLİYİNƏ VERDİYİ MÜSAHİBƏ (16 SENTYABR, 2008)

**Adnan Oktar: Bir-birilərini çox sevsinlər, məzhəb ayrılıqları olmasın.** Ələvi, sünni, şiə–hamımız qardaşıq. Bir-birilərinə çox bağlı olsunlar. Hz.Mehdinin zühuru çox yaxındır. Hz.İsanın

enməsi an məsələsidir. Bu dediklərimin doğru olduğunu onsuz da on ilin içində görəcəklər. Bütün əlamətlər çıxıb, İslam Birliyinə sevinc içində hazırlaşsınlar. İnşaAllah, cənnətdəki həyatımız da çox gözəl olacaq, Allahın izni ilə. Əgər belə səmimi çalışsaq, Allahdan bunu umuruq. Biz sonsuzluğa başlamış varlıqlarıq. Yaradıldıqdan sonra artıq sonsuza qədər yox olmayacağıq, sonsuza qədər yaşayacağıq. İnşaAllah, cənnətdə də buna davam edəcəyik, bu şəkildə yaşamağa davam edəcəyik.

**Amma bunun şərti odur ki, gərək səmimi olaq, bir-birimizi çox sevək, Allaha qarşı itaətkar olaq, Qurana tabe olaq və Quran əxlaqını tam yaşayaq.** Bunları etdikdən sonra ürəkləri rahat olsun, inşaAllah.

**Birlik ruhunu oyatmaq**

Birlik üçün sədaqətli, vəfalı və fədakar olmaq lazımdır. Allah müsəlmanlara birlik içində olmağı əmr etmişdir. Çünki Quranda deyilir ki,  şeytan onların arasını vurmaqla bu birliyə mane olmağa çalışır. Müsəlmanlar aralarındakı birlik ruhuna ziyan vuran bütün hərəkətlərdən uzaq durmalıdırlar. Hər mömin başqasına qarşı mümkün qədər fədakar, səbirli olmalı, onun yaxşılığı üçün çalışmalı, sədaqətli və vəfalı olmalıdır. Bu üstün əxlaqı bütün möminlər mənimsəməlidir.

Bu mövzuda ən gözəl nümunələrdən biri Peyğəmbərimizlə birlikdə Məkkədən hicrət edən möminlərin və Mədinədə onlara gözəl evlər hazırlayan müsəlmanların arasındakı münasibətlərdir. Məkkəli müşriklərin zülm və təzyiqləri üzündən Allah yolunda hicrət edən möminləri Peyğəmbərimizə (səv) biət edən mədinəli müsəlmanlar ən gözəl şəkildə qarşılamış, onlara böyük sevgi göstərmişdilər. İki yad topluluq olsalar da, həmçinin cahil ərəblər arasında vacib sayılan qəbilə bağına malik olmasalar da, iman və təvazökarlıqları sayəsində nümunəvi qardaşlıq nümayiş etdirmişdilər. Mədinəli müsəlmanlar hicrət edənlərə hər cür şərait yaratmış, onlara evlərinin qapısını açmış, yeməklərini onlarla paylaşmış, öz ehtiyaclarından əvvəl onların ehtiyacını düşünmüş və mömin qardaşlarının nəfslərini özlərininkindən üstün tutmuşdular. Rəbbimiz mədinəli möminlərin gözəl əxlaqını Quranda belə xəbər verir:

**(Mühacirlərdən Mədinədə) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Bu, nümunə götürüləsi üstün əxlaqdır. Eyni zamanda iki mömin topluluğun bir-biri ilə münasibətlərinin necə olmalı olduğuna dair əhəmiyyətli örnəkdir. Peyğəmbərimiz (səv) müsəlmanlar arasında həmrəyliyin necə olacağını belə təsvir etmişdir:

*“Müsəlmanların öz aralarındakı mərhəmət, hörmət və həmrəyliyi eynilə vücud kimidir. Bədənin bir üzvü narahat olanda digər üzvlər onunla eyni acını çəkib yatmazlar”.*

Möminlərinin bir-birilərini qəlbən sevməsi və aralarında heç bir kinin olmaması Allahın onlara böyük lütfü və nemətidir. Axirətdə tam mənası ilə yaşanacaq bu nemət haqqında Quranda belə bəhs olunur:

**Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar. (Hicr surəsi, 47)**

Dolayısilə, müsəlmanlar həmrəyliyin, qardaşlığın və birlik hissinin böyük nemət olduğunu anlayaraq davranmalı, bu birliyin qorunması üçün səbirli və iradəli olmalıdırlar.  “Ənfal” surəsindəki **“Əgər möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun Peyğəmbərinə itaət edin!”** ayəsi müsəlmanlara birlik olmağın əhəmiyyətini

göstərən ayələrdən bir başqasıdır. Həmçinin Peyğəmbərimiz (səv) bir hədisdə müsəlmanların müştərək hərəkət etməli olduqları haqqında belə buyurur:

*“...Bir-birinizə paxıllıq etməyin. Bir-birinizə düşmən olmayın. Bir-birinizlə münasibətləri pozmayın. Bir-birinizdən üz çevirib küsməyin. Ey Allahın qulları, qardaş olun”.*[9]

Mömin hər bir vəziyyətdə bağışlayıcı olmalıdır. Hələ qarşısındakı adam müsəlmandırsa, onunla din qardaşı olduğunu, hər ikisinin də Allahdan qorxub çəkindiyini, Peyğəmbərimizə (səv) itaət etdiyini və halal-haramlara ciddi yanaşdığını düşünərək daha da səbirli davranmalıdır. Müsəlman bilir ki, həmişə din qardaşının yaxşılığını istəməlidir, özünü düşündüyü kimi, onu da düşünməlidir. Ortaya müəyyən anlaşılmazlıqlar çıxdıqda isə səbir və şəfqətlə qarşılıq verməlidir. Quranda müsəlmanların din qardaşları üçün belə dua etdikləri bildirilir:

**Sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən şəfqətlisən, rəhmlisən!” (Həşr surəsi, 10)**

Bütün bunlarla yanaşı, iki müsəlman cəmiyyəti arasında da bənzəri hadisə baş verdikdə möminlər onları barışdırmağa çalışmalıdır. Çünki Allah iman edənlərə belə buyurur:

**Möminlər, həqiqətən də, qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin. (Hücurat surəsi, 10)**

Məlumdur ki, belə bir əxlaq möminlərə bərabərlik və birlik ruhu qazandırar. Belə ki, Rəbbimiz iman edənlərə Öz yolunda **divar kimi səf-səf düzülüb** (Saff surəsi, 4) mübarizə aparmağı əmr edir. Bu mübarizə inkarçı fəlsəfə və ideologiyalara qarşı fikri yöndən aparılmalıdır və bütün müsəlmanlar bundan məsuliyyət daşıyır. Bu mübarizəyə qoşulub dünyanın qaranlıqdan aydınlığa çıxarmağın yerinə öz aralarında çəkişmək və özünə qapalı bir quruluş formalaşdırmaq, şübhəsiz ki, böyük xətaya və tarixi məsuliyyətə səbəb olar. Bu gün başda dünyanın bir çox ölkəsində zülm görən müsəlmanlar olmaqla, bəşəriyyət düşdüyü acınacaqlı vəziyyətdən çıxış yolu axtarır və dünyaya sülh, asayiş və ədalət gətirəcək, həmçinin onlara yaşamaq məqsədini xatırladacaq yol göstərici gözləyir. Bu vəzifə İslam topluluqlarının üzərinə düşür və bütün müsəlmanlar bu düşüncə ilə davranmalıdırlar.

Şiddət, terror, zülm, saxtakarlıq, dələduzluq, yalançılıq, əxlaqsızlıq, qarşıdurma, yoxsulluğun dünyada geniş yayılması və s. yer üzünün fitnə ilə dolu olduğunu göstərir. Bunları göz önünə aldıqda müsəlmanların öz aralarındakı problemlər çox əhəmiyyətsiz görünür. Bütün bu zülm və degenerasiyalar Allahın varlığını inkar edənlərin, axirətin varlığına inanmayanların qurduğu batil sistemlərdən güc qazanmaqla inkişaf edir. Bu səbəblərə görə vicdanlı insanlar ittifaq qurub yaxşılıq üçün çalışmalıdırlar.

Allahın izni ilə bu ittifaq inkarçı ideologiyaların fikrən məğlub olmasının əhəmiyyətli mərhələlərindən biri olacaq. Rəbbimiz Quranda inkarçıların ittifaqına diqqət çəkmiş və iman edənlərin dost olub bir-birilərinə yardım etmələrini əmr etmişdir. Bu, yer üzündəki təxribatın ortadan qaldırılması üçün gərəklidir. Ayədə belə buyurulur:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz, yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

Bu cür əhəmiyyətli məsuliyyəti daşıyan müsəlmanlar aydın məsələdir ki, birlik və bərabərlik içində olmalıdırlar. Müsəlmanlar onların birlikdə hərəkət etməyinə mane olan vəziyyətlərdə aşağıdakı sualların üzərində düşünməlidirlər:

“Bu mövzu İslam ittifaqına zərər verə bilərmi?”

"Bu mövzu heç ortaq məxrəcə gələ bilməmək qədər müşkül məsələdirmi?"

Bu suallara vicdanla cavab verən hər kəs sonu bitməyən çəkişmələrdən uzaq durmağın və müsəlmanlar arasındakı Quran əxlaqına əsaslanan ittifaqı qorumağın vacib olduğunu görər. Bundan başqa, müsəlmanlar unutmamalıdır ki, şeytan da davamlı olaraq birlik və bərabərliyi pozmaqla möminlərin arasına ədavət salmağa çalışır.

Rəbbimiz **"Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir"** (İsra surəsi, 53) ayəsi ilə iman edənləri bu təhlükədən xəbərdar etmişdir. Bu ayə həm də onu göstərir ki, müsəlmanlar istifadə etdikləri üsluba diqqətlə yanaşmalı, sərt və rişxəndli sözlərdən çəkinməlidirlər.

Quranda birlikdən bəhs edilərkən eyni zamanda bildirilir ki, çəkişmələr və birliyə zərərli hərəkətlər müsəlmanların gücünü zəiflədir. Rəbbimiz belə buyurur:

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

Bu, başda da qeyd etdiyimiz kimi, fərdlər üçün olduğu qədər müsəlman cəmiyyətləri və millətləri üçün də əsaslıdır. Əgər İslam dünyası güclü mədəniyyət qurub dünyaya hər sahədə yön vermək istəyirsə, birlik içində hərəkət etməyə məcburdur. Bu birliyin yoxluğu, müsəlman ölkələr arasındakı ayrılıq və İslam dünyasından ortaq səsin yüksəlməməsi məzlum müsəlman xalqlarını da müdafiəsiz qoyur. Fələstin, Kəşmir, Şərqi Türküstan və Moro kimi bir çox yerdə zavallı qadınlar, uşaqlar və yaşlılar ehtiyac içində zülmdən xilas olmağı gözləyirlər. Həmin məzlum xalqların məsuliyyətini hər kəsdən öncə İslam dünyası daşıyır. Müsəlmanlar Peyğəmbərimizin (səv) *"Müsəlman müsəlmana zülm etməz və onu təhlükədə buraxmaz"* sözünü əsla unutmamalıdırlar.[10]

İslam dünyası ayrılıqları və fərqlilikləri bir kənara qoyub bütün müsəlmanların qardaş olduğunu yada salmalı və bu mənəvi qardaşlığın gətirdiyi gözəl əxlaqla bütün dünyaya nümunə olmalıdır. İman edənlərin qardaşlığı uca Allahın lütfü və nemətidir. Səmimi müsəlmanlar bu nemət üçün Allaha şükür etməli və Rəbbimizin əmrini unutmamalıdırlar:

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə, doğru yola gələsiniz. (Ali-İmran surəsi, 103)**

## CƏNAB ADNAN OKTARIN "Al-Baghdadi" TV-dəki MÜSAHİBƏSİ, 5 AVQUST 2008

**Adnan Oktar:** Mənim düşüncəmi bilirsiniz, əhli-sünnə inancındayam... Məzhəb ayrılıqlarını ortadan qaldırmaq lazımdır. Bu, çox böyük vicdansızlıqdır. Şiəlik, sünnilik– hamısı qardaş məzhəblərdir. **Daim iç-içə olmuşuq. Həmişə qardaş olmuşuq. Müsəlmanlar qəti şəkildə məzhəb ayrılığı adında düşmənliyi bir-birilərinə etməsinlər. Hamısı təqvalı məzhəblərdir. Hamısı dinə ciddi yanaşan məzhəblərdir. Heç bir fərqli yönümüz yoxdur. Hamımız eyni Allaha inanırıq, eyni peyğəmbərə inanırıq. Eyni qibləyə dönürük, eyni peyğəmbərləri sevirik.** Hər şeyimiz demək olar ki, eynidir. Təfərrüat fərqliliklərindən dolayı belə müxalif ruh çox çirkindir. Şeytanın oyununa gəlməkdir. Qardaşlarımız buna çox diqqətli yanaşmalıdırlar. Bir də bir-birilərini çox sevməlidirlər. Məsələn, sünni ilə şiə qarşılaşanda bir-birindən hal-əhval tutmalıdırlar, birlikdə yemək yeməlidirlər. Hətta namaz qılanda belə, bəzən eşidirəm, arxasında namaz qılmırlar. Bu, çox anormal işdir. Bunu könül rahatlığı ilə etməlidirlər. Şiə də, sünni də olar, heç bir fərqi yoxdur, biz qardaşıq. Müsəlmana belə şeylər yaraşmaz.

**Birlik müsəlmanlara güc qazandırır**

Əvvəlki səhifələrdə müsəlmanların arasındakı çəkişmələrin onları mənəvi yöndən zəiflədəcəyindən bəhs etdik. Bu, Allahın Quranda iman edənlərə xəbər verdiyi sirlərdən biridir. Bununla başqa bir əhəmiyyətli həqiqətə  də diqqət çəkilir: ayrılıq və çəkişmə müsəlmanları zəiflətdiyi kimi, birlik və həmrəylik də onlara güc qazandırar. Allah Quranda iman edənlərin haqlarına təcavüz ediləndə birlik olub qarşı çıxmağı əmr etmişdir:

**O kəslər üçün ki, haqsızlığa məruz qaldıqda intiqam alırlar. (Şura surəsi, 39)**

Bu, iman edənlərə ilahi əmrdir və bir çox hikməti var. İnkarçı ideologiyaların fikrən yox edilməsi də ancaq müsəlmanların ittifaq etməsi ilə mümkündür. Əlbəttə, bunu unutmaq olmaz ki, iman edənlərin ittifaqını gücləndirən şey onların iman və ixlasıdır. Həqiqi dostluq və ittifaq ancaq səmimi imanla qurulur. Möminlər bir-birilərini heç bir mənfəət ummadan, təmiz niyyətlə və yalnız Allah rizası üçün sevər, Onun rizası üçün dost olar və Onun rizası üçün də birlik olarlar. Sağlam qaynağa və Allah sevgisinə əsaslanan bu birliyin dağılması Allah diləməzsə, heç bir şəkildə mümkün deyil. Aydın məsələdir ki, belə sağlam ittifaq müsəlmanlara dünyada bənzəri görünməmiş güc qazandırar. **“Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir! Allah səbir edənlərlədir”** (Bəqərə surəsi, 249) ayəsində bildirilir ki, müvəffəqiyyətə çatmaq üçün sayın çox olmasının əhəmiyyəti yoxdur. Müsəlmanların iman və ixlas əsasında qurduqları birlik onlara böyük müvəffəqiyyətlərə çatmaq üçün şövq və iradə qazandırar.

Allah başqa bir ayədə inkar edənlərin bir arada hərəkət edirmiş kimi görünməklərinə baxmayaraq, əslində, birlik qura bilmədiklərini bildirmişdir:

**... Sən onların əlbir olduqlarını güman edirsən, lakin onların qəlbləri dağınıqdır. Bunun səbəbi onların ağılsız bir qövm olmalarıdır. (Həşr surəsi, 14)**

Səmimiyyət və təmiz niyyətlə qurulmayan birliklər hər nə qədər həmrəy görünsələr də, təməldə parçalanmış vəziyyətdə olurlar. Çünki belə ittifaqlar müəyyən mənfəətlər üzərinə qurulur və hər hansı bir zərər görmə ehtimalı bu birliklərin aqibətini həmin an bəlli edir. Müsəlmanlar Allahın Quranda xəbər verdiyi bu sirri bilirlər. Müsəlmanların həmrəyliyi heç bir zaman dünyəvi itkilərlə sarsılmaz, əksinə, daha güclənər.

Bura kimi bəhs etdiklərimiz İslam dünyasının birləşməsinin və müsəlmanların güclü ittifaq qurmasının zərurətini göstərir. Kitabın bundan sonrakı səhifələrində isə İslam Birliyinin xüsusiyyətlərindən danışacağıq

## CƏNAB ADNAN OKTARIN KRIM QƏZETLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ (14 NOYABR 2008)

**Adnan Oktar:** İslam Birliyi utopiya kimi bir şey deyil. Bu, Konya ilə İstanbulun, Ərzurumla Ankaranın necə birləşdiyini deməyə bənzəyir. Onsuz da bölünmüş olması çox anormaldır. Əgər adamlar bizdən Ərzurumla Konyanı alıb desələr ki, siz birləşə bilməzsiniz, onda bunun bir məntiqi olarmı? Adamlar bir vaxtlar müəyyən yollarla bizi ayırıblar, bir millət varsa və eyni dildə danışırsa, dinləri də eynidirsə, deməli, bunlar tək millətdir. Bu,  necə ayrı ola bilər ki? Əlbəttə, dövlətlər ayrı olacaq. Məsələn, Azərbaycan ayrı olacaq. Amma iki dövlət bir millət. Kərkük də ayrı olacaq. Eyni şəkildə Krım da elə. Yəni biz tək millətik. Bəs bu, necə olacaq, ortaq bazar necə olacaq? Bəs onda Avropa birliyi necə olur? Yəni bu iş müsəlmanlara gəlincə mümkün olmur? **Dil bir ola bilir, din bir ola bilir, soyumuz bir, hər şeyimiz biz, adət-ənənələrimiz də bir, hər**

**şeyimiz eynidir, niyə birlik ola bilmərik ki? Bəs Avropa necə ola bilir? NATO necə olur? NATO-da kim kimi tanıyır ki, bərabər olsun? Eyni cərgədə savaşırlar bunlar, yəni mübarizədə çiyin-çiyinə dururlar. Canlarını verirlər, İslam Birliyi niyə olmasın ki?** Yəni bu cavab verilməyəcək qədər çox məntiqsizdir. Əlbəttə, olar. Bu, sosioloji həqiqətdir. Amma bunu edərkən səmimi olmaq lazımdır. Məsələn, deyirlər ki, İslam Birliyi qurulanda ruslar süqut edəcək. Niyə elə olsun? Rusiya niyə süqut etsin ki? Ruslar çox gözəl insanlardır, adamlar niyə bədbəxt olsun ki? Niyə orada acı çəksinlər, niyə acının üzərindən xoşbəxtlik quraq? Yəni birinin acısının, iztirabının üzərinə xoşbəxtlik olarmı? Rusiya yıxılanda biz bayram edərikmi? Elə şey olarmı heç? Rusiya rifahlansın, böyüsün, inkişaf etsin. Bu, bizim sevincimizi artırar. Dost olaq, bərabər olaq. Rusiya sanki müsəlman ölkəsi kimidir. Hər yerində müsəlman var. Niyə düşmən olaq? Bu məntiqdən vaz keçməlidirlər insanlar. Bu, çox məntiqsiz şeydir. **Sərt olmağı kənara qoysunlar, o zaman dünya dövlətləri bu gözəlliyə sevərək yaxınlaşarlar. Çünki İslam Birliyi bütün Avropanın, Amerikanın, Çinin və Rusiyanın lehinədir. Çünki dünya nəyi istəmir? Terroru istəmir. Bu birlik terroru ortadan qaldıracaq. Bütün dünyadan qaldıracaq. Təkcə İslam dünyasından deyil, bütün dünyadan qaldıracaq. Böyük iqtisadi güc meydana gətirəcək. Böyük yeraltı sərvət zənginliyi meydana gətirəcək. Bunlardan da əlavə, böyük insan gücü, sənət və estetika meydana gətirəcək.**

**Bunu xüsusilə vurğulamaq lazımdır:** buna dünyada heç kim qarşı çıxmaz. Kommunist də qarşı çıxmaz, ağıllısı da, dəlisi də, heç kim qarşı çıxmaz belə bir şeyə. Lakin sən eqoistliklə ortaya çıxıb: “Ən böyük mənəm”, – desən, hamını əzəcəyini desən, dünyanın hər yerində adama deyərlər ki, bir dəqiqə dayan. Biz niyə ateist sionizmə qarşıyıq? Bütün dünya şiddətlə qarşıdır. Adamların dəlicəsinə düşüncələri var. Lakin İsraili sevirik, vətəndaşlarını sevirik. Musəviləri sevirik, onlar bizim qardaşlarımızdır. Bərəkət və bolluq içində yaşasınlar, Allah hamısına uzun ömür versin, xeyir versin. Bizim onlarla işimiz yoxdur.

**Bir-birimizə sarılaq, bərabər olaq, ticarət edək. Sənayedə əməkdaşlıq edək. Xəstəxanalar, məktəblər açaq, müəssisələr quraq, yollar çəkək. Bir-birimizə kömək edək, xoşbəxt olsunlar, onların xoşbəxtliyini görüb biz də sevinək. Biz insanların xoşbəxtliyindən zövq alan millətik. İnsanlar xoşbəxt olanda biz sevinirik. İnsanların acısının üzərindən xoşbəxtlik qura bilmərik. Məsələ bunu izah etməkdir.** Bunu izah edəndən sonra Amerika da, Rusiya da bunu görüb qəbul edər, edirlər də.

## NECƏ BİR İSLAM HƏMRƏYLİYİ?

19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində baş verən iki böyük dünya müharibəsi, bu müharibələrdə həyatını itirən milyonlarla insan, dağıdılan şəhərlər, yerlə bir olan yaşayış məskənləri, vəhşiliyin adi qarşılandığı həbs düşərgələri insanlar üçün ibrətamiz oldu. Müharibələrdə birbaşa iştirak edən qərb dünyası müharibədən sonra bu tarixi dramdan önəmli nəticə çıxarmışdı. Bunların başında ittifaq qurmaq fikri gəlirdi. Hansı ki, bu ittifaq ehtimal olunan problemləri asanlıqla və qısa müddətdə həll etməyin ən təsirli yollarından biri idi. Bundan əvvəl də müxtəlif Avropa ölkələri arasında ittifaqlar qurmağa çalışmışdılar. Ancaq bu ittifaqlar bəzən mənfəətlərdən, bəzən də ideoloji səbəblərdən dolayı uzun ömürlü olmamışdı. Ancaq bu dəfə qərb dünyası qurulacaq bu ittifaqın iqtisadi əməkdaşlıqdan və ortaq müdafiə paktından daha irəli olmasının labüdlüyünü, Avropanın ortaq mənəvi dəyərlər çərçivəsində birləşməsinin zəruriliyini fərq etmişdi. Əlbəttə, bu, uzun və çətin proses idi.

Müharibə Avropanın böyük güclərinin iqtisadiyyatını zəiflətmişdi və sənaye haradasa yerlə bir olmuşdu. Dağıdılan yüzlərlə şəhərin yenidən inşa edilməsi, təhsil və səhiyyə ocaqlarının bərpa edilməsi lazım gəlirdi. Bundan başqa, Avropada müharibə sona çatsa da, müstəmləkələrdə azadlıq

hərəkatları başlamışdı. Bütün bu şərtlər daxilində stabilliyin təmin edilməsi və dağınıq quruluşlara baxmayaraq birlik əmələ gətirmək çox çətin görünürdü. 1951-ci ildə sənayeni dirçəltmək məqsədilə qurulan Avropa Kömür və Polad İttifaqı bu təşəbbüsün ilk addımı oldu. Sonradan Avropa İqtisadi Birliyinə, ən son olaraq da Avropa İttifaqına çevrilən bu birlik üzv ölkələr arasında məhsulların, sərmayə və iş gücünün sərbəst dövriyyəsini təmin edən, ümumi pul vahidinə və ortaq hüquqi anlayışa sahib güclü birlik halına gəldi. Bu gün Avropa İttifaqı dünya siyasətinin istiqamətverici qüvvələrindən biridir.

56 müsəlman ölkəsinin üzv olduğu İslam Konfransı Təşkilatı müsəlmanları öz ətrafında toplayan – üzv sayına və coğrafi mövqeyinə görə – ən böyük müsəlman təşkilatıdır. Bu təşkilatdan başqa eyni coğrafi ərazilərdə yaşayan müsəlman ölkələri arasında müxtəlif ticari və hərbi əməkdaşlıqlar da mövcuddur. Bunların hər birinin əhəmiyyətli fəaliyyətləri var və mövcud olmaları çox faydalıdır. Lakin İslam dünyasının  yekun qərarlar almaq haqqına sahib olan, ortaq siyasət yürüdən və bunları qərarlılıqla tətbiq edən, bütün müsəlman dünyasının ortaq səsi olan və yalnız müəyyən bölgənin deyil, bütün müsəlmanların problemlərini həll edən daha kompleks birliyə ehtiyacı var. Bu birliyin fəaliyyət dairəsi iqtisadi, hərbi və sosial sahələri əhatə etməlidir. Bu birlik sayəsində müsəlman ölkələri arasında yekdillik və uzlaşma mühiti qurulub həmrəylik ruhu inkişaf etdiriləcək. Beləliklə, ilk növbədə birlik altında toplanan ölkələrin təhlükəsizlik problemləri ortadan qalxacaq, daha sonra təşkil olunacaq çox yönlü əməkdaşlıqlarla üzvlərin rifah səviyyəsinin yüksəlməsi təmin olunacaq. İslam dünyası tək vücud halında hərəkət edəcək, dolayısilə, müsəlman cəmiyyətlərinin lehinə olan strategiyaları inkişaf etdirmək mümkün olacaq.

20-ci əsrin ikinci yarısında başda Fələstin olmaqla, Bosniya, Kosovo, Qarabağ, Kəşmir, Açeh kimi ərazilərdə baş verənlər müsəlman dünyasını əhəmiyyətli gerçəkliklə qarşı-qarşıya gətirmişdir. Minlərlə mülki şəxsin həyatını itirdiyi, uşaqların yetim qaldığı və vəhşiliyin üst həddə çatdığı bu ərazilərdə Qərbin bu drama ya heç, ya da gec reaksiya göstərməsi, lazımi tədbirlərin alınmasında ləng tərpənməsi müsəlmanlara bir daha xatırladır ki, bütün məsuliyyəti İslam dünyası öz üzərinə götürməlidir. Belə ki, müsəlman xalqlarının hüquqlarının qorunması, ehtiyaclarının aradan qaldırılması hər kəsdən əvvəl müsəlmanların problemidir və İslam dünyası bu mövzuda son dərəcə aktiv olmalıdır. Müsəlman ölkələrinin bütün müsəlmanların təhlükəsizliyini zəmanət altına alacağı gücə çevrilməsi ancaq beynəlxalq siyasətdə İslam dünyasının vahid səs olaraq təmsil edilməsi ilə mümkündür. İslam dünyası hərbi, siyasi və iqtisadi cəhətdən vahid blok yaratmalıdır. Öz daxilində bərabərliyi təmin edən İslam dünyası dünya sülhünün təminatçısına çevriləcək, beləliklə də, bəzi radikal ünsürlər və mədəniyyətlər qarşıdurması tərəfdarları öz nəzəriyyələrinin reallaşması üçün lazımi mühit tapa bilməyəcəklər.

## CƏNAB ADNAN OKTARIN “DENGE” TELEVİZİYASI MÜSAHİBƏSİ (İYUL 2008)

**Adnan Oktar:** Müsəlman ölkələri böyük gəlirə sahib olsalar da, əhalisi kasıbdır. Demək olar ki, bütün İslam ölkələrində əhali kasıbdır, həm də yaşayış keyfiyyəti aşağıdır. Əksəriyyəti belədir. Halbuki buna heç bir səbəb yoxdur. **Lakin İslam Birliyi qurulsa, ağıllı surətdə İslam Birliyi məclisi təşkil olunsa, bu problemlərin hamısı köklü şəkildə həll olunar.** İslam əxlaqının dünyaya hakimiyyəti də an məsələsi olar. İldırım sürəti ilə yayılar. Buna görə də birlik mövzusunun üzərində çox durmaq lazımdır.

## CƏNAB ADNAN OKATRIN “KRAL KARADENİZ” TELEVİZİYASI MÜSAHİBƏSİ

## (2 YANVAR, 2008)

**Adnan oktar:** Hazırda İslam Birliyi üçün bütün şərtlər yaranıb. İslam Birliyi qurulub sərhədlər açılanda biz buradan avtomobilə minib düz Xəzərə qədər gedəcəyik, dənizin kənarında oturub yemək yeyəcəyik. Oradan da başqa yerə. Sərhəddə təkcə salam verməliyik o qədər. Yəni pasporta, vizaya ehtiyac yoxdur. Sərhəd qapıları başdan başa geniş olmalıdır. Bu birliyin gözəl yönü odur ki, burda irqçilik yox, sevgi var... **Fəqət bu məntiqdə, mənim dediklərimdə dərin sevgi, məhəbbət var; Allah sevgisi, Allahın qullarına yardım etmə düşüncəsi var. Burada xristianları da, musəviləri də qoruyan sistem var. Bütün ərəb aləmini, İslam aləmini qucaqlayan bir quruluş var...** Bu mübarək, gözəl birlik mütləq qurulacaq. Bu, bizim qədərimizdə var. Bunun üçün gərək sevgi və istək olsun. Türkiyədə bunu istəyənlər 90%-ə çatdıqda məsələ həll olunar. Onsuz da qəlblərdə bu istək yarandıqda qapını açmaq on dəqiqə belə çəkməz. Yəni qapını açmaq problem deyil, bunu qəlbən qəbul etmək əhəmiyyətlidir. Ən çoxu on, on beş dəqiqə çəkər qapının açılması, o qədər.

**İslam Birliyinin əsas quruluşu**

İslam Birliyi quruluşu elə olmalıdır ki, üzv ölkələr milli müstəqilliyini, milli sərhədlərini mühafizə etsin və hər bir ölkə öz milli hüquq və maraqlarını qorusun. Amma bütün bu suveren ölkələri ortaq İslam mədəniyyəti çevrəsində birləşdirəcək orqanlar təşkil olunmalıdır. Belə ki, bu orqanlar ortaq siyasəti inkişaf etdirib bunun həyata keçməsi üçün qərarlar verməlidir. Məqsəd dövlətlərin quruluş cəhətdən birləşməsi deyil, ortaq siyasət və maraqlar çərçivəsində birləşməsi və bu siyasətin həyata keçirilməsində birliyin təsir gücünün olmasıdır.

Qurduğu modern dövlət anlayışı ilə Türkiyə Cümhuriyyətini dayanıqlı demokratik ölkəyə çevirən Atatürkün İslam dünyasının birlik və bərabərliyi haqqında əhəmiyyətli izahları var. Bir dövlətin ən əhəmiyyətli ünsürlərindən birinin milli sərhədlər daxilində var olmaq hüququ olduğunu ifadə edən Atatürkün təsbitlərinin doğru olduğu zaman ərzində sübut olunmuşdur. Məlum olduğu kimi, Osmanlı İmperiyasının süqut etmə mərhələsində Osmanlıda yaşayan xalqların bir qismi yanlış yönləndirmələrlə dövlətin yanında olmağın yerinə xarici qüvvələrlə əməkdaşlıq etmişdilər. Lakin müxtəlif imtiyazlar qazanacaqlarını umaraq bu yolu seçənlər əməkdaşlıq etdikləri ölkələrin hegemonluğu altına girməklə müstəmləkəyə çevrilmişdilər. Bu xalqlardan bəziləri Cümhuriyyətin ilk illərində Mustafa Kamala təmsilçi göndərib onları istismar edən liderlərin yanlış təxminlərindən şikayət etmiş, hətta bəziləri Türkiyə ilə birləşmək tələblərini dilə gətirmişdilər. Atatürkün bu təkliflərə verdiyi qarşılıq İslam Birliyinin təməlinin necə olduğunu göstərən əhəmiyyətli cavabdır:

*Bütün İslam aləminin mənəvi yöndən olduğu qədər maddi yöndən də birlik içində müttəfiq olmasından sadəcə sevinərik. Bunun üçün bizim öz hüdudlarımız daxilində müstəqil olduğumuz kimi, suriyalılar və iraqlılar da milli hakimiyyətə əsaslanan müstəqil güc olaraq ortaya çıxmalıdırlar.*

Göründüyü kimi, Atatürkün ilk öncə vurğuladığı xüsus həmin ölkələrin müstəqillik qazanmalı olduqlarıdır. İslam Birliyinin əhəmiyyətinin şüurunda olan Atatürk bu birliyin təsir qazana bilməsi üçün üzvlərin milli sərhədləri daxilində öz müstəqilliyini qazanan, milli iradəyə əsaslanan və öz ayaqları üzərində dura bilən dövlətlərin mövcudluğunun əhəmiyyətinə diqqət çəkmişdir. Dolayısilə, qurulacaq təşkilatın üzvlərinin ərazi bütövlüyünü və müstəqilliklərini qoruması hazırda da son dərəcə əhəmiyyətlidir.

Bu birlik sayəsində dünya müsəlmanları bir-biriləri ilə birbaşa münasibətdə olacaq, problemləri yaxından görəcək və həmrəyliyə daxil olacaqlar. Bölücü və şovinist anlayışlar bir kənara qoyulub bütün müsəlmanların qardaş olduğu əsas götürüləcək. Dövrümüzdə İslam dünyasına hakim olan fərqli düşüncələr, izahlar və modellər arasında razılıqların təmin

edilməməsi müsəlmanların birlikdə hərəkət etməsinə mane olur. Bu təşkilatın bərabərlik çağırışı etnik mənsubluğa, iqtisadi şərtlərə və ya coğrafi mövqeyə əsaslanmayacaq. İrq, dil və mədəni xüsusiyyətlərdən qaynaqlanan hər cür düşmənçilik bu birliyin sayəsində ortadan qalxacaq. Haqqında danışılan təşkilatın bərabərlik anlayışı bir topluluğun digərinə üstün gəlməsini təməl almayacaq. Bu birliyə şəfqət, sevgi və mərhəmət ruhu hakim olacaq.

İslam Birliyinin qurulmasında əsas məqsədlərdən biri bütün müsəlmanlara istiqamət verən nüfuzlu bir mərkəzin təşkil olunmasıdır. Bunun üçün bu mərkəz mütləq bütün müsəlmanlara xitab edə bilməli, başqa sözlə desək, bütün fərqli anlayışları öz çətiri altında toplamağı bacarmalıdır. İslam Birliyi təməl islami dəyər və inancları əsas götürməli, adət və düşüncə fərqliliklərini anlayışla qarşılamalı və bu müxtəliflikləri mədəni zənginliyə çevirməyi bacarmalıdır. Bu fərqliliklər ortaq qərar almağa və siyasi iradəyə mane olan ünsürlərə çevrilməməlidir. Müsəlman ölkələri arasındakı bütün ixtilaflar bu mərkəz sayəsində həll olunub anlaşılmazlıqlar ortadan qaldırılmalıdır. Bu minvalla, öz daxili problemlərini həll edə bilən İslam dünyası digər mədəniyyətlərin nümayəndələri ilə olan problemlərini də asanlıqla həll edə biləcək imkana sahib olacaq. Həmçinin bütün müsəlmanları birləşdirən bu mərkəzin ortaq siyasət yürüdüb bunu həyata keçirməsi mümkün olacaq.

Dövrümüzdə İslam dünyasının müştərək hərəkət etməsini labüd edən və təcili həllini gözləyən məsələlər dünya siyasətinin əsas gündəlik məsələləridir. Fələstin, Kəşmir, İraq kimi siyasi problemlər, terrorizmə qarşı aparılacaq fikri mübarizə, geridəqalmışlıq, yoxsulluq, səhiyyə və təhsil bu məsələlərin ən vaciblərindir. Bunlar regional və ya yalnız o torpaqlarda yaşayan xalqları maraqlandıran problemlər deyil. Bunlar bütün müsəlmanları maraqlandıran, dolayısilə, həll olunması üçün İslam dünyasının həmrəyliyini tələb edən problemlərdir. Heç kim Məscidül-Əqsada baş verənlərin yalnız fələstinliləri maraqlandırdığını, Kəşmirdə zülmə məruz qalan sadə müsəlmanların öz başlarına çarə tapmalı olduqlarını və ya İslam dünyasının hər hansı bir bölgəsində aclıq içində yaşayan uşaqların həmin ölkənin problemi olduğunu iddia edə bilməz. Müsəlmanlar inanclarından dolayı bu vəziyyəti qəbul edə bilməzlər.

Lakin müsəlmanlar aralarında güclü birlik qura bilmədikləri üçün onların yerinə bu və oxşar mövzularda başqa ölkələr müxtəlif həll yolları önə sürürlər. Belə ki, bu təkliflər çox vaxt müsəlmanların maraqlarını görməzlikdən gələn və ya qısa müddətli həll yolu olmaqdan o tərəfə getmir. Münaqişə və anlaşılmazlıqların baş alıb getdiyi bəzi bölgələrdə müsəlmanların mövqeyinin güclü olmaması irəli sürülən təkliflərdə onların söz sahibi olmalarına əngəl yaradır. “Sülh planı” adı altında müsəlmanlara təqdim olunan layihələrdəki maddələr çox vaxt onları daha da çətinliyə salır. Bu müsəlmanların haqlarının qorunması üçün İslam dünyası müştərək hərəkət etməlidir.

Bunun kimi İslam Birliyini gözləyən başqa bir məsuliyyət bu mərkəzin olduqca aktiv çalışmalı olduğunu göstərir. Birliyin nizamlı fəaliyyəti üçün koordinasiyalı iş prinsipinə əsaslanan daimi mərkəzin yaradılması və alt strukturlarının təşkili təmin edilməlidir. Bu birlik fəaliyyəti ilə inam oyatmalı, üzvlər də öz haqlarının birlik tərəfindən ən yaxşı şəkildə qorunacağından əmin olmalıdırlar.

İslam Birliyi dəyişən siyasi şərtlərə asanlıqla uyğunlaşmaq, lazımi strategiyaları inkişaf etdirəcək düşüncəyə sahib olmaq məcburiyyətindədir. Dünyada gedən proseslərə yalnız təxirə salınmadan reaksiya verən və ya qınayan deyil, təşəbbüskarlıqda aktiv olan mərkəzə ehtiyac olduğu açıq-aşkardır. Bu mərkəz müntəzəm olaraq koordinasiya vəzifəsini öz üzərinə götürməli, fəaliyyətləri bütün üzv ölkələrin mənfəətlərini əhatə etməlidir. Bu birlik baş verən hadisələri obyektiv formada dəyərləndirməklə bütün İslam dünyasının tələblərini göz önündə tutmalıdır. Üzv ölkələr arasında baş verə biləcək narazılıqları ortadan qaldıran və müsəlmanların digər

cəmiyyətlərlə münasibətlərində onları qoruyan mexanizm kimi fəaliyyət göstərəcək İslam Birliyi müsəlman dünyasının mədəni, siyasi və iqtisadi təsirini artıracaq.

İslam Birliyinin müsəlmanları vahid güc halına gətirməsi və müsəlman ölkələrini bir-biri ilə bütünləşdirən quruluş olması üçün müasir ictimai dəyərləri qoruması, hüquq və insan haqlarına hörmətlə yanaşması və demokratik anlayış üzərinə qurulması da həddindən artıq əhəmiyyətlidir. Unutmaq olmaz ki, bu dəyərlər İslam əxlaqının əsasıdır.

## CƏNAB ADNAN OKTARIN TASCA-YA (TÜRK-ƏRƏB ELM, MƏDƏNİYYƏT VƏ SƏNƏT DƏRNƏYİ) VERDİYİ MÜSAHİBƏ (21 NOYABR, 2008)

**Adnan Oktar:** İslam Birliyində bütün ölkələr bütövlüyünü qoruyacaq. Pakistan, Pakistan kimi qalacaq; Türkiyə, Türkiyə olaraq qalacaq; İran, İran kimi qalacaq. Yəni rejim dəyişikliyi iddiası yoxdur. **Fəqət bunda sevgi, məhəbbət və qardaşlığın bütün birliyə yayılması və bunun milli siyasət olaraq tətbiq edilməsi var. Qəlblərin birləşməsi, məhəbbətin birləşməsi ilə qurulacaq birlikdir bu.** Əslində, gerçək İslam Birliyi budur. İnsanlar iki cür düşünürlər. Bir qismi düşünə bilər ki, bu birlik bir dövlətin gücü ilə, təzyiqlə və ya qorxudaraq ola bilər. **Halbuki İslamın əsasında sevgi var, məhəbbət var, dinclik var, sevinc var – bayram sevinci var. Bunları müsəlman ölkələri arasında bərpa etmək lazımdır.** Burada yaxşı niyyət olmalıdır, səmimiyyət olmalıdır. Qarşılıqlı sənayedə, həmçinin elm və texnologiyada hər cür investisiyanın sərbəst şəkildə təminatı üçün iş görülməlidir. Bunun üçün biz pasport və viza probleminin həll olunmasını istəyirik ki, həm də ticarət və hər hansı bir işə pul yatırmaq rahat olsun. Yəni şəxsiyyət vəsiqəsini göstərib sərhəddən keçsinlər. Əslində, heç kimə göstərməyə belə ehtiyac yoxdur. Yəni mən vəsiqəmi götürüb Azərbaycana gedə bilməliyəm. Suriyaya, Qazaxıstana gedə bilməliyəm. Həmçinin digərlərinə. Burdan gəmiyə minib Tunisə, Əlcəzairə gedərəm. Orada qardaşlarımla söhbət edərəm. Axşam yeməyini birlikdə yeyərik, Allahı anarıq. Ertəsi gün də dönərəm. Lazım olarsa, ticarət də edərəm. Belə bir sistem, sevgi birliyi lazımdır. Hazır dövlətlər var ikən, hazır işləyən sistem var ikən onlar niyə pozulsun? Bu sevgi mühitində qovğa, münaqişə, terror, yoxsulluq və s. hamısı ortadan qalxar. **Yəni məcbur etmək deyil, sevgi və səmimiyyət əsasdır. Sevgi və səmimiyyət olduqda, deməli, İslam əxlaqı hər yerə hakimdir.** Bir də, əlbəttə, əlində silah tutub bu hadisələri həll etməyə çalışanlar var. Bu olmaz, belə şəkildə olmaz.

## SÜLHSEVƏR VƏ UZLAŞDIRICI İSLAM BİRLİYİ

İslam Birliyi təkcə müsəlmanlara deyil, bütün bəşəriyyətə sülh gətirməyi hədəf götürməli, aldığı qərarlarda sülh yönlü və uzlaşdırıcı davranış göstərməlidir. İslamın əsası Allahın Quranda bildirdiyi gözəl əxlaqdır. Bu əxlaq iman edənlərin şəfqətli, fədakar, səbirli və ədalətli olmasını tələb edir. İslam insanları asayiş və sülh dolu dünyaya dəvət edir. "Bəqərə" surəsinin 208-ci ayəsində belə buyurulur:

**Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o, sizə açıq-aydın düşməndir.**

Müsəlman Allahın əmrlərinə tabe olan, Quran əxlaqına dəqiqliklə əməl edən, dünyanı gözəlləşdirən, sülh və dincliyi hakim edən insandır. Məqsədi insanlara yaxşı davranıb xeyirli işlər görməkdir. Müsəlmanlar Rəbbimizin sonsuz mərhəmət və şəfqətinin onlarda təzahür etməsinə çalışarlar. Allah Quranda çevrəsinə daima xeyir gətirən, ətrafındakı olaylarla maraqlanan, insanları doğru yola çağıran əxlaqı məqbul göstərmişdir. Bir ayədə ətrafına heç bir faydası toxunmayan şəxslərlə daima xeyirlərdə yarışan insanlar arasındakı fərq belə müqayisə olunur:

**Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; Onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)**

Bu ayədə bildirilən hikmət İslam Birliyi üçün də yol göstərici olmalıdır. İslam Birliyində din əxlaqının insanlara qazandırdığı fədakarlıq, qardaşlıq, dostluq, dürüstlük, ədalət və sədaqət anlayışı ən gözəl şəkildə təmsil edilməlidir.

İnsanların fikir, düşüncə və yaşayış azadlığını qoruyan İslam əxlaqı insanlar arasındakı gərginliyi, anlaşılmazlığı, bir-birilərinin haqqında pis danışmağı, hətta uyğunsuz zənni belə qadağan edir. Müsəlmanların qurduğu birlik bu əsasları əsas götürüb dünya sülhü üçün fəaliyyət göstərməlidir.

Quran əxlaqı müsəlmanların müharibədən və hər cür münaqişədən çəkinməsini, anlaşılmazlıqları müzakirə yolu ilə aradan götürməsini və uzlaşdırıcı olmasını tələb edir. Müharibə Qurana əsasən, yalnız məcbur qaldıqda əl atılacaq və mütləq müəyyən insani və əxlaqi sərhədlər daxilində aparılacaq və istənilməyən zərurətdir. Möminlər ortaya çıxan problemlərdə həmişə sülhə və uzlaşmağa üstünlük verərlər, ancaq qarşı tərəfdən hücum edildikdə özlərini müdafiə etməklə vəzifəlidirlər. Bir ayədə yer üzündə savaşı təxribatçıların çıxartdığı və Allahın onları sevmədiyi belə açıqlanır:

**... Onlar hər dəfə müharibə alovunu yandırdıqda Allah onu söndürər. Onlar yer üzündə fitnəkarlıq törətməyə səy göstərirlər. Allah isə fitnəkarları sevmir! (Maidə surəsi, 64)**

Peyğəmbərimizin (səv) həyatına nəzər saldıqda müharibənin ancaq zəruri hallarda və müdafiə məqsədilə aparıldığını görə bilərik.

Quranın Peyğəmbərimizə (səv) vəhyi tam olaraq 23 il çəkdi. Bunun ilk 13 ilində müsəlmanlar Məkkədə bütpərəstlərin arasında azlıq kimi yaşadılar və böyük təzyiqlərə məruz qaldılar. Onların bir çoxuna fiziki işgəncələr verildi, bəziləri öldürüldü və çoxunun evi, malları qarət edildi, sürəkli həqarət və təhdidlərlə üzləşdilər. Buna baxmayaraq, müsəlmanlar şiddətə əl atmadan yaşamağa davam etdilər və bütpərəstləri sülhə çağırdılar. Nəticədə, bütpərəstlərin təzyiqləri dözülməz həddə çatanda müsəlmanlar daha azad və dostyana mühitin olduğu Yəsrib (sonradan Mədinə) şəhərinə hicrət edərək burada öz idarəçilik sistemlərini qurdular. Öz siyasi quruluşlarını bu şəkildə formalaşdırdıqdan sonra da Məkkənin aqressiv bütpərəstlərinə qarşı savaşmadılar.

Təvazökarlıq, təmkinlilik və insanlara yaxşılığı əmr edib pislikdən çəkindirmək İslam topluluğunun xüsusiyyətidir. "Bəqərə" surəsinin 143-cü ayəsində Rəbbimiz müsəlmanların insanlara şahid və nümunə olmaq üzrə "orta" cəmiyyət olduqlarını bildirmişdir. Başqa bir ayədə isə müsəlmanların bəşəriyyətə xeyirli topluluq olmasının zərurəti belə bildirilmişdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. (Ali-İmran surəsi, 110)**

Allahın Quranda bildirdiyi xüsusiyyətləri üzərində daşıyan müsəlmanların meydana gətirdiyi quruluş bütün bu gözəl əxlaq özəlliklərini qorumalı və bu məziyyətlərin ən gözəl təmsilçisi olmalıdır. Bütün bunlar İslam Birliyinin hansı strategiyanı izləməli olduğunu da açıq şəkildə göstərir. İslam Birliyi ilk öncə müsəlman ölkələri arasındakı anlaşılmazlıqları ortadan qaldırmalı, İslam dünyasına sülh gətirməli, digər tərəfdən bütün dünyada münaqişə və qarşıdurmalara təkan verən hər cür hərəkətlərə qarşı çıxmalı, müharibəni körükləyən davranışları əngəlləməlidir. Dövrümüzün ən böyük problemləri arasında yer tutan terrorizmlə və beynəlxalq cinayətkar təşkilatlarla mübarizə aparmalı, kütləvi qırğın silahlarına nəzarət kimi beynəlxalq məsələlərdə

belə beynəlxalq cəmiyyətlərlə əməkdaşlıq etməli, hətta bu ünsürlərə qarşı mübarizədə lider olmalıdır.

## CƏNAB ADNAN OKTARIN "TEMPO" TELEVİZİYASINA VERDİYİ MÜSAHİBƏ

## (3 DEKABR, 2008)

**Adnan Oktar:** Ən güclü silah sevgidir. Sevginin açmadığı heç bir qapı yoxdur. Sevgidən istifadə etməlidirlər. Bomba deyil, silah deyil, hər yerdə sevgi. Sevgi hər ölkəyə diz çökdürər, hər ölkəni özünə əsir edər. Məsələn, Amerika İslam Birliyinə icazə verərmi? Verər, amma bir silah lazımdır. Bu silah sevgidir. Sevginin qarşısında Amerika dura bilməz. Sevginin qarşısında Rusiya dura bilməz. Çin də dura bilməz. **Sevgi, yaxşı niyyət əsas olduqdan sonra İslam Birliyini qəbul etməyən heç bir ölkə olmaz. Amma tam mənada səmimiyyət və insan sevgisi olmalıdır. İnsanlar arasında ayrı-seçkilik etmək olmaz, hamısına Allahın yaratdığı qul olaraq şəfqət və sevgi duymaq.**

## CƏNAB ADNAN OKTARIN "TIMOTHY FURNISH" MÜSAHİBƏSİ

## (14 DEKABR, 2008)

**Adnan oktar:** Mənim dediyim birliyə **sevgi, sülh, qardaşlıq hakimdir; sənət və estetikaya, gözəlliyə əhəmiyyət vermək hakimdir. Rifaha, sabitliyə, insanların hürriyyətinə, demokratiyaya əhəmiyyət vermək hakimdir. Xristianlara, musəvilərə də dərin şəfqət və sevgi göstərmək hakimdir.** Məsələn, mənim düşüncəmdə İsrail də İslam Birliyinin içindədir. Dolayısilə, irq, qan və gen üstünlüyü iddiası yoxdur. Burada şəfqət və sevgi birliyi var. Sərtlik yoxdur, insanları narahat edən heç bir şey yoxdur. İnsanların xoşbəxtliyi və sevinci üçün çalışan sistem var.

### Həlledici mərkəz olmalıdır

Yuxarıda İslam dünyasının həllini gözlədiyi mövzulardan (Fələstin, Kəşmir, Əfqanıstan, İraq və s.) qısa şəkildə bəhs etdik və İslam Birliyinin qurulması ilə bu problemlərin sürətlə həll olunacağından danışdıq. İslam Birliyinin üzərinə bu mənada böyük məsuliyyət düşür. Bu birlik mütləq həlledici mərkəz olmalıdır.

Dünyada baş verənlər təkcə müsəlmanlara deyil, dünyadakı bütün insanlara mənfi təsir göstərir. Yoxsulluq, korrupsiya, əxlaqsızlıq, gəlirin düzgün bölünməməsi, zülm və ədalətsizlik milyonlarla insanı çarəsiz vəziyyətdə qoyur. Aclıqdan ölən körpələr, küçəyə atılan uşaq və yaşlılar, çadır və baraklarda yaşamağa məcbur qalan qaçqınlar, pulu az olduğundan müalicə ala bilməyən xəstələr yalnız müsəlman ölkələrində deyil, (geridə qalmış ölkələrdə daha çox olmaqla bərabər) inkişaf etdiyi deyilən bir çox ölkədə problem olaraq qalır.

Ehtiyac içindəki məzlum insanlar onlara yardım əlinin uzanmasını gözləyirlər. Müsəlmanların bu barədə daşıdığı məsuliyyət bir ayədə belə xəbər verilir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Müsəlman ölkələrinin İslam Birliyi çətiri altında toplanması müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı gərginlikləri aradan qaldıracağı kimi, müsəlmanların öz aralarındakı

problemləri də həll edəcək.  Hazırda müsəlmanlar arasındakı anlaşılmazlıqlar qərb ölkələri və ya onların nəzarətindəki beynəlxalq təşkilatlar tərəfindən həll edilməyə çalışılır. Müsəlman ölkələrinin mədəniyyətinə və tarixinə yad olan xarici qüvvələrin (bəzən faydalı olsalar da) İslam mədəniyyətinin məsələlərini  həll etməsi o qədər mümkün görünmür. Halbuki müsəlman ölkələri bütün problemlərini öz aralarında həll edə bilərlər. Beləliklə, problemlər həm beynəlxalq arenaya çıxarılmadan həll olunar, həm bu həll olunmuş məsələlər müsəlmanlara faydalı olar, həm də İslam dünyasının birlikdə hərəkət etməsi bir qüdrət nişanəsinə çevrilər. Bu gün İslam dünyasının ən böyük çatışmazlıqlarından biri ortaq siyasətdə zəiflik göstərmək və şəxsi mövzularda belə təsirli strategiyadan istifadə etməməkdir.

İslam Birliyi başda müsəlman ölkələri olmaqla, bütün insanların dərdinə çarə tapıb onları axtardıqları sabitlik və təhlükəsizliklə təmin etmək üçün məsuliyyət daşıyır. Hər müsəlman ölkəsinin öz siyasi, demoqrafik və iqtisadi problemləri var. Dünyanın fərqli yerlərində də buna bənzər müxtəlif problemlər mövcuddur. Bu problemlərin hər biri  üçün fərqli həll yollarının tətbiq olunması lazım ola bilər. Lakin əsas problemlər və bunların həll yolları hər yerdə eynilik təşkil edir. İnsanlara narahatlıq verən bir çox şeylər Quran əxlaqının lazım olduğu kimi tətbiq olunmamağından qaynaqlanır. Bu problemlərin həll edilə bilinməməsinin təməlində hadisələrə Quran işığında qiymət verməmək durur. Buna görə də bütün bu çatışmazlıqların aradan götürülməsi üçün Quran əxlaqından qaynaqlanan açıq fikirlilik, dürüstlük, fədakarlıq, ədalət kimi vəsflər müsəlmanların yol göstəricisidir.

Həqiqətən də, iqtisadi problemlərin həlli ilə sosial əxlaq arasında əhəmiyyətli əlaqə var. Məsələn, iqtisadi problemlərin ən əhəmiyyətli ünsürlərindən biri olan sosial ədalətsizlik, əsasən, əxlaqi problemdir. İslam əxlaqını mənimsəyən cəmiyyətdə sosial ədalətsizlik olmaz. Allah Quranda bildirmişdir ki, insanlar ehtiyacdan artıq qalanını ehtiyacı olanlarla bölüşsünlər. Həmçinin Allah israfı da haram buyurmuşdur. Maddi imkanları müəyyən insanlar üçün imtiyaza çevirmək və yalnız bir qrup şəxs arasında bölüşdürmək Quran əxlaqına ziddir.

Quran əxlaqı sosial həmrəyliyi tələb edir və insanların bir-birilərinin ehtiyaclarını qarşılamağını əmr edir. Hətta iman edənlər – özlərinin ehtiyacı olsa da – yeməklərini ilk öncə kasıblara və əsirlərə verəcək qədər fədakar əxlaqa sahibdirlər. Üstəlik, bunu insanların deyil, Allahın razılığını qazanmaq üçün edərlər. Quranda belə buyurulur:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər (və deyərlər): “Biz sizi yalnız Allahın üzü xətrinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!” (İnsan surəsi, 8-9)**

Fərdlər arasındakı həmrəylik və yardımlaşma asanlıqla millətlərarası münasibətlərdə də təmin edilə bilər. Burada da İslam əxlaqı İslam Birliyinə üzv ölkələrə yol göstərəcək. Bir tərəfdə həddindən artıq lüks həyat yaşayan ölkə mövcud olduğu halda, digər tərəfdə yeni doğulan minlərlə körpənin aclıqdan ölməsi qəbul edilə bilməz. Vicdanlı olan hər kəs bu vəziyyətdən narahat olar.

Bu gün bir çox xeyriyyə cəmiyyəti və beynəlxalq təşkilat həmin ölkələrə yardım etmək üçün fəaliyyət göstərir. Belə ki, bu təşəbbüslər bölgələrə yardım paketləri çatdırmaqdan o tərəfə getmirlər. Çox vaxt bu yardımları öz ünvanına çatdırmaq belə mümkün olmur. Belə vəziyyətdə geridə qalmış ölkələrin sistemlərindəki qüsurları köklü şəkildə aradan qaldırmaq, mafiya və cinayətkar dəstələrin önünü kəsmək və cəmiyyətdə təhsil yolu ilə vicdana və açıqfikirliliyə əsaslanan yeni şüur formalaşdırmaq tələb olunur.

Allahın Quranda əmr etdiyi kimi, israf ortadan qaldırıldıqda, həmrəylik ruhu inkişaf etdirildikdə, insanlar paylaşmağa təşviq edildikdə və xüsusilə insanlar vicdanlı olmağı öyrəndikdə

iqtisadi tarazsızlığı ortadan qaldırmaq mümkün olar. Bu həll yollarını İslam dünyasında ən təsirli formada tətbiq edəcək quruluş isə İslam Birliyidir.

**Vətəndaş hüquqlarına hörmətlə yanaşmalı və ədalətli olmalıdır.**

Həqiqi İslam əxlaqının hakim olduğu cəmiyyətdə vətəndaşların hüquq və azadlıqları böyük əhəmiyyət kəsb edir. Hər kəsin hüquq və azadlıqları təminat altına alınır və insanların azad və layiqli həyat yaşaması hədəf götürülür. Allah Quranda müsəlmanlara bütün insanların Allah qatında bərabər olduqlarını (üstünlüyün ancaq təqva ilə olduğunu) bildirmiş və insanlara qarşı ədalətli, bağışlayıcı və anlayışlı olmağı əmr etmişdir. Fərqliliklərə hörmət göstərmək və onların arasında ədalətlə hökm etmək əhəmiyyətli mömin əlamətidir.

Peyğəmbərimiz (səv) tərəfindən ilk İslam cəmiyyətində aparılmış tənzimləmələr cəmiyyətin quruluşu və idarə edilməsi sahəsində müsəlmanlar üçün yol göstərici olmuşdur. Müsəlmanların ilk konstitusiyası kimi qəbul edilən və dövrün şərtlərinə görə çox qabaqcıl hüquq anlayışını özündə əks etdirən Mədinə sazişi İslam cəmiyyətinin vətəndaş hüquqları və ədalət anlayışını göstərən əhəmiyyətli bir nümunədir. Mədinə sazişi ilə şəhərdəki fərqli inanclara sahib insanların hamısına təməl hüquq və azadlıqları tanınmış, insanların mal və can varlıqları, həmçinin ailələri və ibadət məkanları təminat altına alınmışdır. Fərqli inanc cəmiyyətlərinin ortaq siyasi quruluş içində yaşamasını təmin edən bu anlaşma ilə bir-birilərinə uzun illər boyu kin və düşmənlik bəsləyən qəbilələr də uzlaşdırılmışdır. Mədinə sazişindən əlavə müşriklərə qarşı daim ədalətlə davranılmış, onların qoruma və himayə tələbləri Peyğəmbərimiz (səv) tərəfindən qəbul edilmişdir. Hz.Muhəmməd dərin şəfqət və mərhəməti ilə insanlar arası əlaqələrin həmişə mədəni və dostyana olmasını istəmişdir.

İslam bəşəriyyətə müasir dünyadan 1400 il əvvəl vətəndaş hüquqları, qanunlar və hüquq dövləti qarşısında bərabərliyi, eyni zamanda iqtisadi azadlıqlar kimi dəyərləri qazandırmışdır.

## CƏNAB ADNAN OKTARIN AZƏRBAYCANIN APA XƏBƏR AGENTLİYİNƏ VERDİYİ MÜSAHİBƏ (16 AVQUST, 2008)

**Adnan Oktar: İslam Birliyinin olmadığı dövr həmişə əzab çəkmək dövrü olacaq. Yəni buna çarə yoxdur.** Bunu Qafqazda görürük, başqa bölgələrdə görürük. Hələ də görməyə davam edirik. **Bunun sonu gəlməz, bu qan dayanmaz, bunun tək həlli İslam Birliyidir.** Bunu gecikdirmək insanları məsuliyyət altında saxlayır. Buna görə də var gücümüzlə çalışmalıyıq. Keçən hər gün zərər və əleyhimizədir. Baxın, Gürcüstanda axan qanlar, abxazların narahatlığı, rusların çəkdiyi iztirab, bunların hamısının kökündə İslam Birliyinin olmaması yatır. Türkiyə bu gün təklif etsə ki, iki dövlət tək millət kimi birləşək, inanın 24 saat sonra buna müsbət cavab gələr, inşaAllah. Suriya ilə də elə, İraq ilə də elə, yəni bunu qəbul etməyən heç bir İslam ölkəsi yoxdur. Belə bərəkətli və gözəl birliyi rədd etmək üçün gərək adamın psixoloji problemi olsun. Bu, bütün dünyaya xeyirlidir, biz bu yola davam edirik. İnşaAllah, bu birlik qurulacaq. Bu, bunların əlamətidir, Allah göstərir. Bu birlik olmayanda nə baş verəcəyini göstərir.

İslamın yayılması əsnasında fəth edilən torpaqlarda tətbiq edilən ədalət də bütün cəmiyyətlərə nümunə olmuşdur. Dövrümüzdə də bir çox qərb mütəfəkkirinin təqdir və hörmətlə andığı bu ədalət anlayışı o dövrdə çoxlu sayda insanın və xalqın öz tələbləri ilə müsəlmanların idarəsinə keçməsinə və bir çoxunun da İslamı qəbul etməsinə vəsilə olmuşdur. Peyğəmbərimiz (səv) Quranda bildirilən ədalət anlayışını ən gözəl şəkildə tətbiq etmiş, onun yolunu izləyən səhabələr və sonrakı müsəlmanlar da Peyğəmbərimizin (səv) bu üstün əxlaqını tətbiq etməyə davam

etmişdilər. Bu davranışları ilə Allahın **"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər"** (Əraf surəsi, 181) ayəsində bildirildiyi kimi, insanlar arasında ədaləti yayan ümmət olmuşdular.

İslamın insanlara öyrətdiyi dəyərlərdən biri də fikir azadlığı və idarəetmədə iştirak etmək hüququnun olmasıdır. Bu, İslamın sosial sahədə əsas əmrlərindən biri olan məsləhətləşmədə ortaya çıxır. Allah müsəlmanlara işlərini məşvərətlə həll etməyi, yəni bir-biriləri ilə məsləhətləşərək hərəkət etməyi əmr etmişdir:

**O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər. (Şura surəsi, 38)**

Məsləhətləşmək həm fərdlərin bərabər söz sahibi olmaqlarına, həm də qərarların alınmasında çox yönlü dəyərləndirməyə imkan yaradır. Bu zaman fərqli fikir sahibləri də bir-birilərinə qarşı anlayışlı davranırlar. Məşvərət zamanı kimin fikrinin qəbul edildiyi əhəmiyyət daşımır. Əsas odur ki, ən doğru fikir qəbul edilir. Başqa sözlə desək, məşvərətin əsas məqsədi cəmiyyət üçün ən xeyirli və ən dəqiq qərarların alınmasını təmin etməkdir. İslam əxlaqı onu tələb edir ki, iman edənlər öz fikirlərində israr etməsinlər, vicdana, ədalətə və xeyirə ən uyğun olan fikrə tabe olsunlar. Möminlər "mənim fikrim qəbul olunsun", "mən düşündüyüm ən doğrudur" kimi inada və təkəbbürə əsaslanan israrlılıqdan çəkinməlidirlər. Bunlar Allah qatında gözəl olmayan davranışlardır. Müsəlman **"... Hər bilik sahibindən də üstün bir bilən vardır"** (Yusif surəsi, 76) ayəsinə əsasən, bilməlidir ki, hər zaman ondan daha yaxşı bilən biri ola bilər və buna görə də öz düşüncəsinin ən doğru olduğunu iddia etməsi tamamilə yanlış hərəkətdir.

Odur ki, İslam əxlaqının həmin məşvərət prinsipi dövrümüzdə İslam Birliyinə əhəmiyyətli dərəcədə işıq tutur. İslam Birliyi elə bir siyasi mədəniyyət üzərinə inşa edilməlidir ki, müsəlmanlar heç bir təzyiq olmadan öz fikirlərini ifadə edə bilsinlər və haqları hər sahədə qorunsun. Beləliklə, müsəlman cəmiyyətləri İslam Birliyi öndərliyində insanların bir-birilərinin fikirlərinə hörmətlə yanaşdığı, ədalət və azadlığın hakim olduğu, zülm və haqsızlığın tamamilə ortadan qaldırıldığı cəmiyyətlər olacaq. Eyni zamanda İslam dünyası təkcə müsəlmanların asayiş və təhlükəsizliyini qorumaqla qalmayacaq, həm də dünya mədəniyyətinin yol göstəricisi olacaq.

## CƏNAB ADNAN OKTARIN "ASİA RFA" RADİOSUNA VERDİYİ MÜSAHİBƏ (14 iyun, 2008)

**Adnan Oktar:** Bu birlik işğalçı, yaxud eqoist birlik deyil. **Bu birlik sevgi, dostluq, yardımlaşma, şəfqət birliyidir. Dünyəvi zəmində olacaq, çünki bu, çox əhəmiyyətlidir. Dünyəvi, sülhsevər və demokratiyanı müdafiə edən sistem olduqdan sonra** Çinin bundan çəkinməsi üçün səbəb qalmaz. Əlbəttə, bu həm də İsrailə rifah gətirər. Bütün bölgədə qarşıdurmalar bir anda dayanar. Bilirsiniz, Fələstin də iztirab içindədir, amma İsrail də iztirab çəkir. Hər an başlarına bomba düşmək ehtimalı var. Hər an bir hadisə baş verə bilər. İsrail divarların içində yaşayır. Sanki əsir olublar, özlərini əsir etməklə divarların arasına məhkum ediblər. O divarları uçurmaq lazımdır. O yerlərə ticarət üçün çoxlu yük maşınları getsin, avtobus və gəmilər getsin. Çini də bu mövzuda inandırmaq mümkündür, əlbəttə, bu, bir az qeyri-hökumət təşkilatları vasitəsilə ola bilər... Bu düşüncə Çini lazımsız qorxulardan qurtaracaq, klassik dövlət siyasətindən vaz keçirəcək. Çünki klassik dövlət siyasətində nə edirsən? Mənfəət gördüyün yer var, gedib oranı işğal edirsən. Adamları əzib orada yaşayırsan. Qan sormaqla yaşamağa ehtiyac yoxdur. Bu, sevgi və dostluqla olur. Yəni yarasa gedib qan sormaqla yaşayar. Çinə bu yaraşmaz... Bir pantürkizm var, bir panislamizm, bir də İslam Birliyi var. Pantürkizmdə elədir ki, adam istədikdə türk irqinin dünya irqlərindən üstün olduğunu və bütün dünya irqlərinin onun köləsi

olduğuna dair açıqlama verə bilər. Əlbəttə, insanlar bundan qorxarlar. Yaxud məsələn, İslam Birliyi kimi düşünər. O qatı şərtlərin hakim olduğu amansız sistemə döndərməyə çalışa bilərlər. Biz bunu tarixin qaranlıq səhifələrində görmüşük. Əvvəlki dövrlərdə gördük bunu. **Burada məqsəd elə bir sistem deyil. Burada dünyəvilik sığortası var. Sistem tamamilə dünyəvilik üzərinə qurulacaq, bu, çox əhəmiyyətlidir.** Buddist də, ateist də, xristian da, müsəlman, musəvi də – hamısı birinci sinif insan, birinci sinif vətəndaş olacaq. Bu dünyəvilik prinsipi ilə təmin ediləcək. Lakin coşqun sevgi mühiti, sabitlik və əlbəttə, güclü hərbi birlik. Harada terror varsa, qan axıtmağa gərək yoxdur, deyərsən ki, qardaş, terroru dayandır. Adam o dəqiqə son verər buna, yəni çəkindirici gücün qarşısında insan bunu uzada bilməz. Dünyanın harasında olursa olsun, terror baş verəndə əlaqədar şəxsi çağırıb deyərsən ki, qardaş, eyibdir, bunu etməyin. Məsələ o dəqiqə bitər. Amansız güc olacaq İslam Birliyinin hərbi gücü, ağlasığmaz dərəcədə güclü olacaq, kimdən nə xahiş etsə, o dəqiqə edər. Dolayısilə, münaqişələr, ədalətsizliklər bitər. Buna görə də heç kim buna etiraz etməz.

## İslam dünyasının inkişafını hədəfdə saxlamalıdır

İslam dünyasının başlıca problemlərindən biri də müsəlman ölkələrinin böyük əksəriyyətinin geridə qalmasıdır. Buna görə də İslam Birliyinin əsas hədəfləri arasında İslam dünyasının inkişaf etdirilməsi və yoxsul ölkələrə dəstək verib iqtisadi problemlərinin həll olunması gəlməlidir. Bütün müsəlman ölkələrdə:

– Yoxsulluğa qarşı mübarizə aparmaq;

– Yeni investisiyalara təşviq etməklə iş imkanları yaratmaq;

– Sosial nizam və sabitlik təmin etmək;

– Sosial ədaləti təminat altına almaq, iqtisadi bərabərsizlikləri ortadan qaldırmaq;

– Beynəlxalq və regional əlaqələri, həmçinin əməkdaşlıqları gücləndirmək.

İslam dünyasında maddi fərqliliklərdən qaynaqlanan sıxıntılar minimuma endirilməlidir. İqtisadi və siyasi sahədə, ən əhəmiyyətlisi isə mədəniyyət sahəsində müsəlman ölkələri arasındakı birlik geridə qalanların sürətlə irəliləməsinə, lazımi imkana sahib olanların fəaliyyətlərinin məhsuldarlılığına zəmin yaradacaq. Eyni zamanda bu birlik və bütünlük elmi-texnoloji sahədə də böyük nailiyyətlər qazandıracaq.

İqtisadi inkişaf elm və texnologiya sahəsinə qoyulan investisiyaları artıracaq və belə ki, texnologiyanın inkişafı iqtisadiyyatın daha da sürətlə böyüməsini təmin edəcək. İqtisadiyyatın inkişafı ilə yanaşı, təhsil səviyyəsində də təbii yüksəlmə baş verəcək, cəmiyyət çoxtərəfli inkişafa doğru irəliləyəcək. İslam Birliyi vətəndaşların vizasız və sərhəd maneəsi olmadan rahat hərəkət etməsini, sərbəst ticarəti, azad sahibkarlığı dəstəkləyəcək sistemdir və bu da İslam dünyasının sürətlə inkişafına təkan verəcək.

İqtisadi dirçəliş təbii şəkildə müsəlman ölkələrin sürətlə müasirləşməsinə və yüksək mədəniyyətə doğru irəliləməsinə şərait yaradacaq. Müsəlmanların iqtisadi mədəniyyətinin qərb cəmiyyətlərinin bir qisminə hakim olan hedonist (həzz hissinin ali məqsəd olması) mədəniyyətdən fərqli olduğunu və olacağını burada vurğulamaq lazımdır. İslamda da qərb cəmiyyətlərində olduğu kimi, azad iqtisadiyyat əsaslıdır. Xüsusi mülkiyyət hüququ var və hər kəs istədiyi kimi təşəbbüskarlıq göstərə bilər. Əldə edilən qazancın dəyərləndirilməsi məsələsinə gəlincə isə İslam əxlaqına görə, fərdlər müəyyən məsuliyyətlər daşıyır və bu da öz növbəsində sosial ədalətin qurulmasını təmin edir. Zənginlərin qazancında kasıblar üçün pay vardır və əhəmiyyətlisi budur ki, bu, varlılardan məcburi toplanan vergi deyil. Bu, onların inanclarından

qaynaqlanan könül xoşluğu ilə verdikləri ianədir. İslamda sosial ədalət sosialist sistemlərin təcrübədən keçirməklə bacarmadığı mərkəzi planlaşdırma və hakimiyyət orqanlarının təzyiqi ilə deyil, cəmiyyətə hakim olan əxlaqi dəyərlərlə təmin edilir. Digər tərəfdən İslam əxlaqı zəngin insanları lazımsız xərclərdən və israfdan çəkindirir.

Bu, şübhəsiz ki, tək məqsədi daha çox xərcləmək olan, həddindən artıq eqoist olan, daha çox qazanmaq üçün başqalarını əzməkdən çəkinməyən və insanlara hörmət və sevgisini itirən fərdlərdən təşkil olunmuş materialist cəmiyyət modelindən çox fərqlidir. Bu cəmiyyət modeli iki yüz ildir ki, getdikcə qərb dünyasının bir qisminə hakim olur və əxlaqi dəyərləri pozmaqla insanların mənəviyyatını korlayır. Bu gün bir çox qərb ölkəsi bu degenerasiya səbəbindən narkotik maddə, fahişəlik, rüşvət, qumar, içki və mütəşəkkil cinayətkarlıq kimi problemlərlə mübarizə aparır. Bundan başqa, qərb cəmiyyətlərində dini inancların zəifləməsi mənəvi böhran meydana gətirmişdir: həyatı yalnız maddi zövq və mənfəət qazanmaq məqsədinə çevirən materialist fəlsəfə insanların ruhunu təmin etmir və onları boşluğa, məqsədsizliyə sürükləyir. Azadlıq adı altında insanları öz həvəslərinin əsirinə çevirir.

İslam əxlaqı isə insanları onlara mənfi təsir göstərən hər cür əndişə və qorxudan xilas edir. İman edənlər yalnız Allahdan qorxur və təkcə Onun rizasını qazanmağa çalışırlar. Rəbbimizə qarşı məsuliyyət daşıdıqlarını bilirlər. Hər zaman vicdanlarının səsini dinləyirlər və bu vicdani rahatlıq onlara təskinlik verir. İnsanlara sürəkli xeyir və gözəllik aşılayırlar. İslam əxlaqı insanları qısqanclıq, gələcək qorxusu, ölüm qorxusu kimi din əxlaqına uyğun olmayan şeylərdən xilas edir, onlara Allaha təslim olmağın rahatlığını yaşadır.

Dolayısilə, İslam Birliyinin təşviq edəcəyi və başladacağı inkişaf və tərəqqi Qərblə eynilik təşkil etməyəcək. Qərbin inkişafı dövrlərində böyük sosial ədalətsizliklər yaşanmışdır. Məsələn, 18-ci və 19-cu əsrlərdə Qərbin inkişafının önündə gedən İngiltərəyə qorxunc istismarçılıq hakim olmuşdur. İşçi sinfi ağır şərtlər altında işləməyə məcbur edilmiş, həyat səviyyələri çox aşağı olmuşdur. Belə ki, 7-8 yaşlı kiçik uşaqlar belə kömür mədənlərində gündə 16 saat işləməyə vadar edilmiş, onların çoxu 20 yaşına çatmadan ölmüşdür. 1840-cı illərdə Mançesterdə mədən işçisinin ömrünün 17 ilə qədər düşdüyü məlumdur. Digər tərəfdən zənginlər həddindən artıq dəbdəbəli və israf dolu həyat yaşamışdır. Sənayeləşən bütün qərb ölkələrinin bu acı təcrübəni yaşadığı, Qərbin yüksəlişinin milyonlarla yoxsul insanın əzilməsi ilə təmin edildiyi tarixin açıq həqiqətidir.

İslam əxlaqının hakim olacağı cəmiyyətin inkişaf modeli isə sosial ədaləti də özündə ehtiva edəcək. Qərbdəki ədalətsizliklər o dövrdə Avropaya hakim olan materialist fəlsəfələrin "insan təbiəti" haqqındakı yanlış tərifindən qaynaqlanmışdır. İslam əxlaqı isə insanların həm çevik və təşəbbüskar, həm də mərhəmətli və ədalətli olmasını təmin edəcək. Belə ki, tarixdə də belə olmuşdur. İslam mədəniyyətinin yüksəlişi boyunca müsəlmanlar eyni zamanda iqtisadiyyatda da dünya lideri olmuş, xüsusilə ticarətdə böyük müvəffəqiyyətlər qazanmışdılar. Lakin bu zənginlik bir qrup şəxsin əlində qalmamış, İslam əxlaqının tələb etdiyi kimi, bütün cəmiyyətə yayılmışdır. İslam mədəniyyətinin sosial yardımlaşma qurumları olan vəqflər, iqamətgahlar, yeməkxanalar, karvansaralar, ictimai hamamlar və kitabxanalar İslamda rifah və mədəniyyətin yalnız bir zümrənin əlində olmadığını, bütün cəmiyyətə yayıldığını göstərir. Dövrümüzdə İslam Birliyinin ortaya qoyacağı inkişaf modeli buna bənzər olmalıdır.

İslam Birliyinin inkişaf modeli haqqında vurğulanması lazım olan digər bir xüsus da açıq fikirlilikdir. İslam əxlaqı müsəlmanların açıq fikirli olmasını, yəni başqa mədəniyyətlərlə münasibət qurub onların nailiyyətlərindən faydalanmağı məsləhət görür. Belə ki, İslamın ilk əsrlərində müsəlman mütəfəkkirlər və elm adamları Qədim Yunan, Çin və Hind kimi keçmiş mədəniyyətlərin əsərlərini araşdırmış, çoxlu məlumat əldə etmiş və sonra öyrəndiklərini islami düşüncə ilə inkişaf etdirib zənginləşdirmişdilər. Bu gün də İslam dünyası başda Qərb olmaqla,

dünyanın digər mədəniyyətlərini ətraflı araşdırmalı, onlardan istifadə edib daha da inkişaf etdirməlidir.

İslam dünyasını digər mədəniyyətlərdən təcrid etmək müsəlmanlara heç bir fayda gətirməz. Müsəlmanlar texnologiyanın bütün imkanlarından din əxlaqına ən uyğun şəkildə istifadə etməlidirlər. Məsələn, materialist əxlaqı aşılayan bəzi filmlərin qarşılığında müsəlmanlar öz film istehsalını qurmalı, insanlara doğru və gözəl olanı öyrədən filmlər çəkməlidirlər. Əgər bəzi sənət əsərlərində mənfi ünsürlər varsa, bunu İslama uyğun olaraq ondan daha gözəlini və görkəmlisini ortaya çıxarmaqla həll etmək olar. Əgər insanlar şəhərlərin görkəminə, təmizliyinə və rahatlığına heyran qalırlarsa, müsəlmanlar daha gözəl şəhərlər inşa etməli, dünyanı daha da gözəlləşdirməlidirlər.

Müsəlmanların keçmişdə inşa etdikləri böyük mədəniyyətin bənzərini bu gün də qurmaq mümkündür. Bunun üçün Quran əxlaqının gətirdiyi estetika, sənət anlayışı, açıq fikirlilik və ədalət tam şəkildə yaşanmalıdır. İslam mədəniyyəti təkcə müsəlmanlara deyil, bütün insanlığa rifah gətirəcək. Dünyanın ən böyük kitabxanaları, ən görkəmli binaları, ən təmiz və işıqlı küçələri və ən yaxşı məktəb, universitet və xəstəxanaları qurulacaq, bütün insanlar bu imkanlardan bərabər şəkildə faydalanacaq. İslami bir mərkəzin öndərliyində İslam mədəniyyətinin yenidən yüksəlişi təmin oluna bilər və 21-ci əsr İslam dünyası üçün aydınlıq əsri ola bilər. Qloballaşmağın gün keçdikcə daha da sürətləndiyi dövrdə müsəlman ölkələr aralarındakı hər cür əngəli qaldırmalı, belə ki, elm, texnologiya və ticarətdə birgə təşəbbüskarlıq göstərməli, İslam dünyasının mənfəəti üçün birlik halında hərəkət etməlidirlər.

Bunu da xatırlatmaq lazımdır ki, əslində, müsəlmanlar dünyanı "qərblilər" və "müsəlmanlar" deyə qütblərə ayırmırlar. İlk öncə Qərbin böyük əksəriyyəti kitab əhlidir və dolayısilə, müsəlmanlarla bir çox ortaq imani və əxlaqi dəyərləri paylaşırlar. Buna görə də Qərb mədəniyyətinə məxsus bir çox ünsür – məsələn, etiqad azadlığı, demokratiya, ailə dəyərləri kimi – İslam əxlaqının əsasında yer alır. Digər tərəfdən Qərbdə İslamı seçənlər də çoxluq təşkil edir və bu proses davam etməkdədir. Bu günə qədər Qərb dünyasına İslam əxlaqının doğru şəkildə və tam mənası ilə açıqlanmadığı nəzərdə tutularsa, gələcəkdə Qərbdə daha çox insanın müsəlman olacağı təxmin edilə bilər. Müsəlmanlar Qərbə və onun mədəniyyətinə bu gözlə baxmalıdırlar. Unutmaq olmaz ki, son iki əsrdə materialist fəlsəfənin təsirinə düşən Qərbin bəzi çevrələri bu yanlışlıqdan xilas edilməlidir və bu da müsəlmanların üzərinə düşür.

## CƏNAB ADNAN OKTARIN "ASSOCİATED PRESS OF PAKISTAN" MÜSAHİBƏSİ

## (6 SENTYABR, 2008)

**Adnan Oktar:** Bir dənə kərpic alsaq, heç nə çıxmaz. İki dənə alsaq, yenə də bir şey çıxmaz. Amma kərpiclərin hamısını alıb suvayıb bəzəsək, taxta da vursaq, saray çıxar ortaya. **İslam aləmi də elədir, kərpiclər kimi dağınıqdır. Belə olanda ortaya sənət, mədəniyyət, gözəllik, estetika və ağıl çıxmır. Birlik və bərabərlik içində olsaq, toplu şəkildə hərəkət etsək, bu gözəllik ortaya çıxar.** Bunun üçün bu birlik bütün İslam ölkələri tərəfindən rəsmi şəkildə və heç gecikdirilmədən dəstəklənməlidir. Məsələn, Gürcüstanla Rusiya arasında problem çıxdı. İslam Birliyi olsaydı, belə şey olmazdı. Həmin an həll edilərdi. Çünki Rusiyaya da hörmət göstərmək lazımdır, ruslar gözəl insanlardır, gürcülər də gözəl insanlardır. Onlara da hörmət qoymaq lazımdır. Bölgədə aranı düzəldən heç kim yoxdur. Halbuki ağıllı olmaq əsasdır, ağıllı qərarlar verib lazımi nəticələr əldə etmək lazımdır. Hər iki tərəfin lehinə olan və hər iki tərəfə fayda gətirən qərarlar verilə bilər. Lakin belə olmur, hər iki tərəfin əleyhinə qərarlar çıxır. Nəticədə ikisi də narahat olur və münaqişə çıxır. **İslam Birliyi bölgənin və dünyanın mənəvi öndəri olacaq. Bu, bir mənəvi fədakarlıq sistemidir. Mənfəət sistemi deyil. Gözəl əxlaqı olunca, əlbəttə,**

**istər-istəməz Allahın izni ilə bərəkət və bolluq olar. Əlbəttə, neft və digər faydalı qazıntılardan mükəmməl şəkildə istifadə olunmalıdır. Bunlardan həm Avropa, həm Çin, həm Rusiya, həm də İslam aləmi istifadə etməlidir.** Amma indi, məsələn, Əfqanıstanın nə faydalı qazıntılarından, nə də neftindən istifadə edilmir. Məsələn, Şərqi Türküstanda da təbii sərvətlər tamamilə yerin altındadır, istifadə oluna bilmir. Türkiyənin də tutumu məlumdur, yəni müəyyən tutuma sahibdir. Bu qədər gücün bir araya gəlməsi inanılmaz güc deməkdir və möhtəşəm bir mədəniyyətin əsasını təşkil edir. Bunu görürük, möhtəşəm mədəniyyətin bu əsasdan çıxacağı açıq şəkildə hiss olunur.

## İSLAM BİRLİYİ MÜSƏLMANLARA NƏ QAZANDIRACAQ?

Dövrümüzdə dünya siyasəti ölkələrin beynəlxalq birlik içində yer tutmasını bir ölkənin beynəlxalq təhlükəsizliyi və iqtisadi mənafeləri baxımından zəruri hala gətirmişdir. Əsasən, coğrafi mövqelərin baş rol oynadığı bu dövlətlərarası əməkdaşlıqlarda yeraltı sərvətlər, ticarət sahələri, hətta mədəni dəyərlər də əhəmiyyətli rol oynayır. Eyni coğrafiyada yerləşən bir çox ölkə belə təşkilatların kölgəsində qaynaqlarını birləşdirir, ortaq müdafiə paktları qurur, fərqli sahələrdə əməkdaşlıq edirlər. Həmin təşkilatların vasitəsilə sülhün qorunması, silahlanmanın nəzarətdə saxlanması, anlaşılmazlıqların siyasi yolla həll edilməsi, iqtisadi və sosial inkişafın təmin edilməsi, insan haqları və demokratiya kimi dünyəvi dəyərlərin qorunması hədəf götürülür. NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı), ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı), Avropa İttifaqı, NAFTA (Şimali Amerika Azad Ticarət Assosiasiyası), OPEC (Neft İxrac Edən Ölkələr Birliyi), ASEAN (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası), G-7 (7 sənayeləşmiş ölkə, “Böyük yeddilik”), D-8 İqtisadi Kooperasiya Təşkilatı (inkişaf etməkdə olan 8 ölkə), APEC (Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı) kimi təşkilatlar beynəlxalq siyasi, hərbi və iqtisadi əməkdaşlıqların öndə gələn qurumlarındandır.

Bu qurumlar zaman içində üzv sayının artması, əhatə etdikləri coğrafi ərazidə dəyişikliklərin baş verməsi, təsir sahələrinin genişlənməsi kimi səbəblərlə struktur dəyişikliyinə məruz qalırlar. Hamısının 20-ci əsrin ikinci yarısından etibarən qurulduğu bu təşkilatlar, həqiqətən də, dünyada sabitliyin və nizamın təmin olunmasında, iqtisadi və sosial inkişafın davam etməsində önəmli rol oynayıblar. Bu təşkilatlara üzv olan ölkələr özlərini həm iqtisadi və hərbi yöndən qoruma altına alır, həm də öz bölgələrində və beynəlxalq arenada daha təsirli mövqe qazanırlar. İnkişaf etmiş ölkələr belə ortaqlıqlara ehtiyac duyurlar. Sərbəst ticarət mərkəzlərinin təşkil olunması, regional biznes müqavilələri, gömrük sistemlərinin qaldırılması, hətta ortaq pul vahidinə keçilməsi (Avropa İttifaqında olduğu kimi) üzv ölkələrin gələcəyini zəmanət altına alır. Müştərək müdafiə paktları isə üzvlərin hərbi xərclərinə nəzarət imkanı yaradır, bu sahəyə qoyulan vəsaitlər təhsil və mədəniyyət sahələrinə yönləndirilir. Bənzər təşkilatlanmanın müsəlman ölkələri üçün də əhəmiyyətli faydaları vardır. Həm iqtisadi, həm də texnoloji yöndən inkişafa ehtiyacı olan müsəlman ölkələrində sabitliyin təmin edilməsi üçün ən əhəmiyyətli addım İslam dünyasının mərkəzi təşkilat altında – İslam Birliyi altında birləşməsidir.

### İqtisadiyyatın güclənməsi və rifahın artması

İqtisadi əməkdaşlıq həm sabitliyin təmin edilməsi, həm də inkişaf baxımından əhəmiyyətlidir. Bir çox müsəlman ölkəsinin əsas ehtiyacı iqtisadiyyatının düzəlməsi və sağlam əsaslar üzərinə oturdulmasıdır. İslam dünyasında sənayenin inkişafına əhəmiyyət verilməli, lazımi vəsaitlər yatırılmalıdır. Bütöv şəkildə inkişaf layihəsinin ortaya qoyulmasının gərəkliliyi də açıq şəkildə

görünür. Təhsil, iqtisadiyyat, mədəniyyət, elm və texnologiya eyni səviyyədə inkişaf etməlidir. Bir tərəfdən iş sahələri texnoloji yöndən inkişaf etdirilərkən, digər tərəfdən də təhsil səviyyəsinin və keyfiyyətinin artırılması təmin olunmalıdır. Cəmiyyətlər istehsala daha çox təşviq edilməlidir. Bir çox müsəlman ölkəsində davam edən yoxsulluğun, təhsilsizliyin, gəlirin bərabər paylanmamasının və digər sosial-iqtisadi problemlərin ortadan qaldırılmasında iqtisadi əməkdaşlıqlar böyük rol oynayacaq. Sərbəst ticarət mərkəzləri təşkil etməklə, gömrük birliyi yaratmaqla və ortaq bazarlar meydana gətirməklə bunların öhdəsindən gəlmək olar.

Müsəlman ölkələrin böyük əksəriyyəti həm geostrateji cəhətdən üstünlüyə malikdir, həm də təbii qaz və neft ehtiyatları başda olmaqla, qiymətli enerji qaynaqlarına və təbii sərvətlərə sahibdir. Belə ki, bu qaynaqlar və strateji imkanlar çox hallarda lazımi şəkildə istifadə olunmur. İslam dünyasında insanların 86%-inin illik gəliri 2000 dollardan az, 76%-inin gəliri isə 500 dollardan azdır. Bu vəziyyət İslam dünyasının sahib olduğu ümumi imkanlarla təzad təşkil edir.[11] Qərbdə istifadə olunan neftin təxminən yarısı bu coğrafiyadan ixrac edilir və dünya kənd təsərrüfatı məhsullarının 40%-i yenə bu coğrafiyanın payına düşür.[12] Dünya iqtisadiyyatının başda Bəsrə körfəzi bölgəsi olmaqla, İslam coğrafiyasından ixrac edilən neft və qazdan asılı olduğu bir çox iqtisadçı tərəfindən açıq şəkildə ifadə edilir.[13]

Təkcə Bəsrə körfəzi bu günə qədər kəşf edilmiş dünya neft ehtiyatlarının ⅔-sinə sahibdir. Aparılan tədqiqatlar göstərmişdir ki, təkcə Səudiyyə Ərəbistanının 262 milyard barel neft ehtiyatı vardır ki, bu da dünya neftinin 25,4%-i deməkdir. Dünya neft ehtiyatlarının 11%-i İraqa, 9,6%-i Birləşmiş Ərəb Əmirliklərinə, 9,2%-i Küveytə, 8,6%-i İrana, 13%-i digər OPEC ölkələrinə və geridə qalan 22,6%-i isə dünyanın müxtəlif ölkələrinə aiddir.[14] Üstəlik, ABŞ-ın Enerji Nazirliyi tərəfindən aparılan araşdırmalar Körfəz bölgəsinin neft ixracatının 2000-2020-ci illər arasında 125% artacağını göstərir.[15] Bu, indi olduğu kimi, gələcəkdə də dünya enerji ehtiyacının böyük ölçüdə Körfəzdən təmin olunacağı mənasını ifadə edir. Neftlə yanaşı, Yaxın Şərqin dünya qaz ehtiyatlarının təxminən 40%-inə sahib olduğu həqiqətini də görməzlikdən gəlmək olmaz. Bunun haradasa 35%-i Körfəz bölgəsindədir.[16]

Digər tərəfdən Əlcəzair, Liviya və digər bəzi şimali Afrika ölkələrinin ümumi ehtiyatları dünya ehtiyatlarının 3,7%-ini təşkil edir.

Ayrıca, Qafqaz və Orta Asiya ölkələri təbii qaz və neft baxımından olduqca zəngin qaynaqlara malikdir. Məsələn, Qazaxıstanda indiyə qədər təsbit edilən neft həcminin 10-17,6 milyard barel olduğu bildirilir. Təbii qaz həcmi isə təqribən 53-83 trilyon kub təşkil edir. Türkmənistan dünyanın dördüncü ən böyük təbii qaz istehsalçısıdır.[17] İslam ölkələrinin bəziləri isə çox dəyərli filiz yataqlarına malikdir. Məsələn, Özbəkistan və Qırğızıstan qızıl istehsalında dünyanın öndə gələn ölkələrindəndir. Türkiyə əhəmiyyəti son illərdə daha çox bilinən bor filizinə görə dünyanın ən zəngin ehtiyatlarından birinə sahibdir. Tacikistan dünyanın ən böyük alüminium istehsalı müəssisələrinə malikdir.

Müsəlman ölkələrinin bu üstünlüyü enerji əsri kimi adlandırılan 21-ci əsrdə daha da əhəmiyyət qazanacaq. Enerji dövrümüzdəki cəmiyyətlərdə sənaye, nəqliyyat, şəhərləşmə və hərbi baxımdan cəmiyyət həyatının əsaslarından biridir. İstehsal və iqtisadi fəaliyyətlərin həyata keçməsi üçün ilk öncə enerjiyə ehtiyac var. Buna görə də 21-ci əsrdə enerji qaynaqlarının nəzarət altına alınması və bu sahədə üstünlük əldə edilməsi üçün böyük cəhdlər olacaq. Belə ki, İslam coğrafiyası malik olduğu bu üstünlükdən lazımi kimi faydalana bilmir. Bir çox ölkədə – qaynaqların çox olmasına baxmayaraq – istehsalı artıran və ya hasil olunan qaynaqların ölkə sənayesində istifadəsini təmin edən lazımi imkanların kifayət qədər olmaması bu zənginliklərin ölkə iqtisadiyyatına köməyini ancaq ixracatla məhdudlaşdırır. Bu ölkələr öz sənaye komplekslərində neft emalı və sənaye inkişafı imkanlarına sahib deyillər. Bundan başqa, bəzi müsəlman ölkələri yeraltı qaynaqlar mövzusunda tədqiqat aparmaqla mövcud qaynaqları təsbit

edib çıxarmaq imkanından belə məhrumdurlar. Əcnəbilər tərəfindən aparılan araşdırmalar bəzi müsəlman ölkələrdə də neft və təbii qazın mövcudluğunu ortaya qoyur, lakin həmin ölkələr bu qaynaqlardan faydalana bilmirlər. Əlbəttə, yeraltı sərvətlərin düzgün qiymətləndirilməsi müsəlman ölkələrin yeganə iqtisadi problemi deyil. Ancaq burdan başlamaqla digər problemlərə də həll gətirmək mümkündür. Müsəlman ölkələrin iqtisadiyyatında müəyyən fərqliliklər mövcuddur. Bəzi ölkələrin iqtisadiyyatı yeraltı sərvətlərə əsaslandığı halda, bəzilərinin iqtisadiyyatı da kənd təsərrüfatına (coğrafi mövqeyi əlverişli olduğuna görə) əsaslanır. Bu fərqlilik qismən də olsa, cəmiyyət quruluşları üçün də əsaslıdır. Bəzi ölkələrdə əksəriyyət kənd yerlərində yaşadığı halda, bəzilərinə də şəhər mədəniyyəti hakimdir. Ancaq bir ölkənin digərini əskik yöndən dəstəkləməsi, birinin digərinin ehtiyacını qarşılaması və hər kəsin təcrübə qazandığı sahədə digərlərinə kömək etməsi ilə bu fərqliliklər əhəmiyyətli zənginlik qaynağına döndərilə bilər. Bu, İslam Birliyi ilə təmin oluna bilər.

Ortaq investisiyalar və təşəbbüslər bu zaman böyük əhəmiyyət kəsb edir. Birgə təşəbbüslər sayəsində həm ölkələr qarşılıqlı olaraq bir-birilərinin təcrübələrindən istifadə edəcəklər, həm də müxtəlif vəsait qoyuluşları hər iki tərəfin iqtisadiyyatı üçün gəlir qaynağı olacaq. Müsəlman ölkələrin bir-birilərinə iqtisadi dəstək verməsi, əvvəl də qeyd etdiyimiz kimi, İslam əxlaqına uyğundur. Ehtiyac içində olana yardım etmək və sosial həmrəylik müsəlmanların əhəmiyyətli xüsusiyyətidir. Quranda bir çox ayədə ehtiyac içində olanların qorunması bildirilmişdir. Cəmiyyətdəki sosial həmrəylik cəmiyyətlərarası səviyyədə də davam etdirilməlidir. Üstəlik, müəyyən əməkdaşlıq mühitində həyata keçirilən dövlətlərarası yardımlaşma vahid yönlü olmamalıdır. Beləliklə də, həm iş imkanları artar, həm də hər iki cəmiyyətdə gəlir səviyyəsi yüksəlməyə başlayar. Bir ölkədə çıxan neft bir başqasında istehsal oluna bilər və ya kənd təsərrüfatı məhdud olan İslam ölkəsinin ehtiyacları o sahədə zəngin olan ölkələr tərəfindən qarşılana bilər. İş qüvvəsi zəif olan ölkənin bu çatışmazlığı başqa qonşu ölkə tərəfindən qarşılanar, iş qüvvəsi olan, lakin sənayesi inkişaf etməyən ölkələrdə isə bu sahədə təcrübəsi çox olanlar müxtəlif işlər görə bilərlər. Vəsait qoyulan ölkə də, vəsaiti qoyanlar da bundan gəlir əldə edərlər. Bilik toplamaq və təcrübəni bölüşmək bərəkəti artırar və texnoloji inkişafdan bütün müsəlmanlar fayda əldə edərlər.

İslam dünyasının imkanlarını və gücünü birləşdirməsini təmin edən birgə təşəbbüslər sayəsində yüksək texnoloji məhsullar müsəlman ölkələrində də istehsal olunar. Təşkil olunan ortaq İslam bazarı bir ölkədə istehsal olunan məhsulların gömrük, kvota kimi maneələr olmadan ticarət məqsədi ilə digər ölkələrə göndərilməsinə şərait yaradar. Ticarət sahələri genişlənər, bütün müsəlman ölkələrinin bazar payı çoxalar, ixracat inkişaf edər. Bu da öz növbəsində müsəlman ölkələrindəki sənayeləşmə prosesini sürətləndirər, iqtisadiyyatla yanaşı, texnologiya da inkişaf edər. Müsəlman ölkələr başqa investorlara qarşı ortaq güc halında hərəkət edər, dünya iqtisadiyyatının əhəmiyyətli parçasına çevrilər.

Müsəlman xalqların rifah səviyyəsi və yaşayış standartı yüksələr, İslam dünyasındakı bərabərsizliklər ortadan qalxar. Körfəz, Sakit okeanı və şimali Afrika ölkələri arasında onsuz da sərbəst ticarət müqavilələri mövcuddur. Türkiyənin də daxil olduğu iqtisadi əməkdaşlıqlar İslam dünyasında davam edir. Bəzi yerlərdə isə ikili əməkdaşlıqlar var. Lakin bunların genişləndirilməsi, bütün müsəlman ölkələrinin maraqlarını qoruyan və hamısının inkişafını təmin edən əməkdaşlıq qurmaq daha faydalı olar.

Bütün bunlar ancaq mərkəzi qurumun öndərliyi və koordinasiyası ilə həyata keçə bilər. Bunun təminatı isə ilk öncə İslam ölkələrində gerçək Quran əxlaqını oturtmaqla, yəni İslamın mədəni oyanışı ilə mümkündür. İslam Birliyi həm mədəni dirçəlişin, həm də bunun nəticələri olan siyasi və iqtisadi əməkdaşlıqların önündə gəlməlidir. İslamın müsəlmanlar arasındakı həmrəylik hökmləri bu mövzuda bütün müsəlmanlar tərəfindən diqqətdə saxlanılmalıdır. Allah Quranda

insanlara mal həvəsindən çəkinməyi, ehtiyac içində olanları qorumağı və yardımlaşmağı əmr edir. İman edənlərin mallarında ehtiyac içində olanlar üçün pay vardır (Zariyat surəsi, 19). Bununla bağlı bəzi ayələrdə belə buyurulur:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə (heç bir şey) verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah bağışlayandır, rəhmlidir. (Nur surəsi, 22)**

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi (nemətdən) artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Bundan başqa, Quranda Rəbbimiz iman edənlərin bir-birilərinin vəliləri olduğunu bildirmişdir (Tövbə surəsi, 71). Dost, dəstək verən, qoruyan, hayan kimi mənalar ifadə edən "vəli" sözü müsəlman cəmiyyətlər arasındakı həmrəyliyin və dəstəyin əhəmiyyətini vurğulayır. İslam ölkələri arasında qardaşlıq niyyəti ilə qurulan əməkdaşlıqlar müsəlmanlara rifah və bolluq gətirər, İslam dünyasının illər boyu böyük problemlərindən olan yoxsulluğu ortadan qaldırar. Unutmaq olmaz ki, Quran əxlaqının hakim olduğu cəmiyyətlərdə aclıq, yoxluq və fəqirlik kimi problemlər olmaz. Müsəlmanlar ağıllı və uzaqgörən siyasət yürütməklə, başqa ölkələrlə əməkdaşlıq etməklə, ticarət və inkişafa əhəmiyyət verməklə və digər mədəniyyətlərin zənginliyindən yararlanmaqla öz cəmiyyətlərini inkişaf etdirərlər. Tarixdə belə olub və Allahın izni ilə, yaxın gələcəkdə İslam Birliyi öndərliyində yenə belə olacaq.

## CƏNAB ADNAN OKTARIN "MPL" MÜSAHİBƏSİ

## (21 NOYABR, 2008)

**Adnan Oktar:** Osmanlı deyəndə ağlıma **daim ədalət, sevgi, bərəkət, bolluq, sabitlik, hörmət, ehtişam, nəzakət və estetika gəlir. O gözəl Osmanlı qübbələri, Osmanlı musiqisi, Osmanlı yeməkləri, Osmanlı ədəbi, Osmanlı xitabları və dünyaya ədalət saçan möhtəşəm siyasi mexanizm ağlıma gəlir. Osmanlı deyəndə bunlar ağlıma gəlir. Dünyanın yeni Osmanlıya ehtiyacı insanın suya ehtiyacı kimidir.** Yəni İslam Birliyi, türk dövlətlərinin dəstəyində böyük İslam Birliyi. **Bu, dünyanın sanki cənnət həyatına dönməsi deməkdir. İqtisadi yöndən fövqəladə zəngin olması deməkdir, Avropanın, Amerikanın, Rusiyanın və Çinin. Çünki bütün İslam ölkələrinin, bütün türk dövlətlərinin nefti və faydalı qazıntıları bu ölkələrə axacaq. Gəlib xəstəxanalar inşa edəcəklər, müəssisələr, yollar açacaqlar. Biz gedib onların iş yerlərində, digər uyğun çalışma sahələrində faydalı fəaliyyətlər göstərəcəyik. Qarşılıqlı şəkildə həm texnologiya, həm elm, həm də sənət alış-verişi olacaq. Terror anidən dayanacaq. Köklü və qəti şəkildə dayanacaq. Terrora pul xərcləmək adlı mövzu olmayacaq. Bunun nəticəsində sabitlik və asayiş də olacağı üçün bolluq-bərəkət yağış kimi yağacaq. Böyük rifah dövrü başlayacaq.** Dövrümüz İslam Birliyi dövrüdür. İslamın sosial ədalətinin, gözəl əxlaqının hakim olma dövrüdür. Bunların hamısını önümüzdəki 10-15 il içində görəcəyik, inşaAllah...

İslam Birliyi bu qəm-qüssəni ortadan qaldıracaq, **yəni xoşbəxtlik və sevinc dövrü başlayacaq, bayram dövrü olacaq, günlər bayrama dönəcək.** İslam Birliyində, məsələn, Suriya elə Suriya kimi qalacaq, yəni dövlət unitar quruluşunu qoruyub saxlayacaq. Amma coşqun sevgi hakim olacaq. Qapıların açıq olması, təzyiqin qalxması sabitlik deməkdir, vergilərin azaldılması deməkdir, insanlara psixoloji təzyiqin aradan qalxması deməkdir. Yoxsa insanlar çox qabiliyyətlidir, sadəcə başının üstündə təzyiq olmamalıdır. İnsana üstündəki təzyiqi qaldıranda

onun beyni açılar, Allah ona talant verər, böyük işlər görməyə başlayar. Amma üstünə getmək olmaz. Yəni ağır vergi, faiz və ya sosial təzyiqlər ona mənfi təsir göstərir. Azad mühitdə insanlar gözəl şeylər edərlər, Allahın diləməsi ilə. Buna görə də İslam Birliyində bunları incəliyinə qədər düşünməyə gərək yoxdur. Təkcə bu problemlər həll edilməlidir. Pasport və viza qalxmalıdır, yəni ölkələr arasında; Allah qorxusuna və sevgisinə əsaslanan sevgi və qardaşlıq anlayışı hakim olmalıdır. Çünki hamımız Allahın təzahürləriyik. Xristianları da Allah yaradır, musəviləri də. Onlar qədərlərini (tale) yaşayırlar. Hamısına Allahın yaratdığı qul olaraq şəfqət duyuruq. Bunu tətbiq etmək terroru ortadan qaldırmaq deməkdir. Çünki terror bu cür mühitdə sən demədən belə dayanar. Yəni belə vəziyyətdə terrorun bütün texniki bünövrəsi yox olub gedər. İdeoloji, fəlsəfi və sosial əsası da qalmır, Öz-özünə məhv olar, gəlib təslim olarlar, söhbət bitər.

**Asayiş və təhlükəsizliyin təmin edilməsi**

Dünyanın bəzi yerlərindəki qeyri-sabitliklər tək o bölgəyə təsir etməklə qalmır, bütün dünyaya mənfi təsir edir. İslam coğrafiyası belə bir bölgədir. İslam dünyasının hər hansı yerində baş verən problem bütün coğrafiyaya birbaşa təsir göstərir. Buna görə də İslam torpaqlarında yerləşən ölkələri bir-birindən müstəqil düşünməmək lazımdır. Yaxın Şərqdə yaşanan gərginliyin təsiri Şimali Afrikada da hiss edilir. Xəzərdə baş verənlər Yaxın Şərqin gələcəyinə təsir edər. Bəsrə körfəzində meydana gələnlər cənub-şərqi Asiya ilə birbaşa əlaqəlidir. Bu da müsəlman coğrafiyasının hər hansı bir bölgəsində baş verən problemin bütün İslam dünyasında hiss ediləcəyini göstərir. Əlbəttə, eyni şey sülh üçün də əsaslıdır. Uzun müddət davam edən gərginliyin (məsələn, ərəb-İsrail problemi) sülhlə nəticələnməsi bütün İslam dünyasına müsbət təsir göstərər.

20-ci əsr boyu İslam dünyasının böyük hissəsi daimi savaş, münaqişə və qeyri-sabitlik içində qaldı. Bu dövrdə qaynaqlar boş yerə xərcləndi, iqtisadi irəliləyiş dayandı, yaşayış standartları aşağı səviyyəyə endi və hamısından əhəmiyyətlisi isə milyonlarla müsəlman həyatını itirdi. Hələ də bəzi müsəlman ölkələri arasında anlaşılmazlıqlar davam edir və zaman ərzində gərginlik artır. Müsəlman ölkələrlə əcnəbi güclər arasındakı müharibə və qarşıdurmalar da qeyri-sabitliyin səbəbidir. İslam Birliyinin təmin edilməsinin müsəlmanlara əhəmiyyətli faydalarından biri bu birliyin müsəlman dünyasında təhlükəsizliyin hakim olmasına kömək etməsidir. İslam Birliyi həm müsəlmanlar arasındakı münaqişə və fikir ayrılıqlarına çarə tapmalı, həm də müsəlmanlarla başqa güclər arasındakı savaş və gərginliyi sülh yolu ilə ortadan qaldırmalıdır. Sülhün, məsələn, ərəb-İsrail nümunəsindəki kimi İslam dünyasına gətirəcəyi gözəllikləri qısa olaraq belə sadalaya bilərik:

1. Sülh hər ölkənin silahlanmağa ayırdığı büdcənin azaldılmasını, bu pulun cəmiyyətin rifahı üçün xərclənməsini təmin edir. Bütün müsəlman ölkələri ortaq müdafiə paktının üzvü olacağına görə daha az büdcə ilə daha güclü müdafiə sistemi qurular. Silah sənayesi və texnologiya üçün vəsait qoyuluşu səhiyyə, təhsil və mədəniyyət kimi sahələrə yönləndirilər. Bunun sayəsində əldə olunan qazancın çoxluğu rəqəm olaraq daha dəqiq bilinər: Yaxın Şərq ölkələrinin silahlanmağa ayırdıqları illik məbləğ Körfəz müharibəsinin başladığı 1991-ci ildə 70,7 milyard dollardır. Növbəti il 52,2 milyard dollara qədər azaldılsa da, bu rəqəm sonrakı illərdə yenidən yüksəlməyə başlamışdır. 2000-ci ildə 61 milyard dollara çatan müdafiə xərcləri 2001-ci ildə 72 milyard dollara qədər yüksəlmişdi.

2. İslam dünyasının bəzi bölgələrindəki mövcud qeyri-sabitlik və münaqişələr insanların digər ölkələrə köçməsinə şərait yaradır. Çoxlu həkim, mühəndis, akademik, elm adamı, mütəfəkkir və yazıçı ölkədə özlərini güvənlikdə hiss etmədikləri üçün Qərbə köçür və işlərinə orada davam edirlər. Mövzu ilə əlaqədar araşdırma zamanı məlum olmuşdur ki, təkcə ərəb

ölkələrindən insanların köçməsi ərəb dünyasına təqribən 200 milyard dollar ziyan vurub. Ərəb ölkələrindən Qərbə köçənlərin 450 mini ali təhsilə sahibdir.[18] Sülh ərəb dünyasındakı daxili çəkişmələri ortadan qaldırmaqla yanaşı, bu köçün qarşısını alar və yaxşı təhsilə malik fərdlər ilk öncə müsəlmanlara fayda verərlər.

3. Sülh sayəsində müsəlman ölkələri biri digərinin təcrübə və biliyindən fayda əldə edər. Sülh müsəlmanların hər sahədə güclərini birləşdirməsinə və daha təsirli olmasına səbəb olar.

4. Sülhlə yanaşı, iqtisadi inkişaf da sürətlənər. Dövrümüzdə bəzi müsəlman ölkələri arasında sərhəd problemi başda olmaqla, müxtəlif nöqsanlar mövcuddur. Bu nöqsanlar iqtisadiyyatın zəifləməsinə yol açır. Məsələn, yeraltı sərvətlərin daşınmasında və dünyaya ixrac olunmasında ortaya çıxan çətinliklərin arxasında bəzən yolların təhlükəli olması durur. Eyni şey su ehtiyatlarına da aiddir. Müsəlman coğrafiyasının əhəmiyyətli bölgəsi sayılan Yaxın Şərqdə su problemi bunların başında gəlir. Halbuki müsəlman ölkələrinin bir-birilərinə dəstəyi və anlaşılmazlıqların aradan götürülməsi ilə bu problemlər tamamilə həll oluna bilər.

5. İslam dünyasındakı etnik mənsubiyyət və fərqli mədəniyyətlər zənginliyə dönər. Anlayış və dialoq olan mühitdə məhsuldarlıq çoxalar və insanlar daha açıq fikirli olarlar, eyni zamanda fərqli mədəniyyətlərin harmoniyasında böyük mədəniyyət inşa edilər.

6. Sülh həm də İslam coğrafiyasından kənarda yaşayan müsəlmanların güclənməsinə zəmin yaradar. Dünyanın bir çox ölkəsində İslam ən sürətlə böyüyən dinlərdən biridir. Bu ölkələrdə yaşayan fərqli millətlərə mənsub müsəlmanların ittifaq etməsi təbliğ fəaliyyətlərini sürətləndirər və müsəlmanların yaşadıqları cəmiyyətlərdə mədəni yöndən nüfuz qazanmalarını təmin edər. Əlbəttə, fərqli millətlərdən kiçik müsəlman cəmiyyətlərinin ayrı-ayrı fəaliyyəti ilə ittifaq halında aparılan fəaliyyət arasında böyük fərq var. Şübhəsiz ki, müsəlmanlar öz milli şəxsiyyətlərini qorumalıdırlar, lakin ortaq müsəlman şüurunun və əxlaqının hakim olması ilə dünyanın fərqli ölkələrində yaşayan müsəlmanların tək vücud olaraq hərəkət etməsi onları daha güclü edər.

7. İslam dünyasına hakim edilən sülh digər dünya ölkələri üçün də nümunəvi modelə çevrilər. Beləliklə, dünyanın fərqli bölgələrində baş alıb gedən problemlər İslam dünyası nümunə götürülməklə sülh yolu ilə həll olunar. Müsəlmanlar gerçək İslam əxlaqının insanların asayiş və təhlükəsizliyinə zəmin yaratdığına canlı örnək olar və eyni zamanda insanlar İslamın sülh dini olduğuna şahidlik edərlər. İslam dünyasındakı sülh, bəlkə də, bir çox insanın Quran əxlaqına yönəlməsinə vasitəçi olar.

### CƏNAB ADNAN OKTARIN "PATRONLAR DÜNYASI" MÜSAHİBƏSİ

### (13 OKTYABR, 2008)

**Adnan Oktar:** Əlbəttə, İslam Birliyi qurularsa, nə böhran olar, nə də iqtisadi problemlər yaşanar. Terror da, narahatlıq da olmaz. Hədsiz dərəcədə bolluq olar. Qeyri-adi zənginlik yaşanar, rifah fövqəladə səviyyəyə çatar.

### CƏNAB ADNAN OKTARIN "MARAŞ AKARSU" TV-dəki MÜSAHİBƏSİ

### (20 NOYABR, 2008)

**Adnan Oktar:** Silahlara və hərbi heyətə həddən artıq pul xərclənir. Bunların hamısı ortadan qalxar. İslam Birliyi buradakı təhlükəsizliyi köklü şəkildə həll edər və terror deyilən şey yer üzündən silinər. Elə bir şey qalmaz, bunu Amerika da, Rusiya da istəyər.

## CƏNAB ADNAN OKTARIN “KANAL 67” MÜSAHİBƏSİ

## (22 MART, 2009)

**Adnan Oktar:** İslam Birliyi qurulduqda terrorçuları axtarsan da, tapa bilməzsən; yəni “dur” deməyə belə vaxt qalmaz. Onsuz da buxar kimi yox olub gedərlər. İslam Birliyi qurulanda elə bir mövzu qalmaz, yəni qoxusunu alıblar artıq, indidən titrəməyə başlayıblar.

### Ehtişamlı mədəniyyətin inşa edilməsi

İslam Birliyinin qurulması İslam dünyasında asayiş və təhlükəsizliyin təmin olunmasına, həmçinin maddi çətinliklərin ortadan qalxmasına vəsilə olacaq. Bu da öz növbəsində təhsil və mədəniyyətə ayrılan büdcənin çoxalmasına səbəb olacaq. Beləliklə, müsəlmanlar dünyaya nümunə olacaq böyük mədəniyyət inşa edəcəklər. Quranda əmr edilən birlik və bərabərlik ruhunun yaşanması İslam ölkələrindəki gündəlik həyata, o cümlədən sənət, elm, tibb və texnologiya sahəsindəki inkişafa birbaşa təsir göstərəcək. Dostluq və qardaşlığın hakim olması və cəmiyyətdə asayişin bərqərar olması fərdlərin düşünməyə və araşdırma aparmağa çox vaxt ayırmasına, bunu edərkən daha azad fikirli olmasına zəmin yaradacaq. Münaqişənin və sıxıntının olmadığı mühitlərdə faydalı ideya və kəşflər olur. Müsəlman dünyası da İslam Birliyini qurmaqla bu mühiti meydana gətirməlidir.

İslam mədəniyyətinin tarixindən kitabımızın ilk hissəsində bəhs etmişdik. Bu mədəniyyət gələcəkdə müsəlmanlara hansı mühitə sahib olmaları lazım olduğuna işarə verir. Tarixdə müsəlmanların köklü mədəniyyət inşa etmələrinin əsasında Quran əxlaqı dayanır. Allah Quranda insanlara düşünüb təfəkkür etməyi, müşahidə aparmağı əmr etmişdir. Ətrafında gördüyü varlıqları, yaşadığı nizamı düşünmək və bunların arxasındakı hikməti anlamağa çalışmaq müsəlmanın vəzifəsidir. Rəbbimiz bir ayədə belə buyurur:

**Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik. Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə (belə etdik.) Biz göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik. Eləcə də meyvələri salxım-salxım asılmış hündür xurma ağacları. (Qaf surəsi, 6-10)**

Quran əxlaqını yaşayanlar doqmaların, batil inancların təsiri ilə düşünməməlidir. Ətrafda gördükləri hər şeyi, qarşılaşdıqları hər olayı hər tərəfli ölçüb-biçməlidirlər. Dolayısilə, daha qabaqcıl düşünüb dərk edə bilirlər. Onların bu xüsusiyyəti bəşəriyyətə xeyli faydalıdır. Belə ki, bu xüsusiyyət şərait yaradır ki, insanlar yeni tapıntılar əldə etsinlər, həm də yaşamağı asanlaşdıran və rahatlaşdıran sistem qursunlar. İslam Birliyinin qurulması ilə bunu qazanan müsəlman cəmiyyətlərə elm və texnologiya sahəsində yeni cığır açılacaq və müsəlmanlar möhtəşəm və elm dolu mədəniyyət meydana gətirəcəklər.

İman edənlərin sahib olduğu incə düşüncənin və dərin qavrayışın özünü göstərdiyi sahələrdən biri də sənət aləmidir. Sənətin kökündə düşünmək, incəliklərin fərqində olmaq, gördüklərindən zövq almaq və başqalarının da zövq almasını istəmək dayanır. İman edən və Quran əxlaqın yaşayan insanın sənət anlayışı çox yüksək olur. Çünki möminlər sənət əsərlərini İlahi gözəllik olaraq və Allahın qüdrətini, yaradılmışların ehtişamını əks etdirən vasitələr kimi görürlər. İslam cəmiyyətlərində sənətkarlar Allahın yaratdıqlarında gördükləri gözəlliklərdən ilham almaqla bənzərsiz əsərlər ortaya qoyarlar. Quran əxlaqından və dərinliyindən qaynaqlanan bu əsərlərdə üstün qabiliyyət və ağıl gücü vardır. İslam Birliyinin qurulması sayəsində

müsəlmanların sənət zövqünü əks etdirən daha çox əsər meydana çıxarılar, şəhərlər gözəlləşdirilər, möhtəşəm binalar tikilər, yaşayış keyfiyyəti çox yüksələr.

İslam ölkələri təmizlik, nizam-intizam, sənət əsərləri, mədəni nailiyyətlər və texnoloji imkanlar yönündə ön plana çıxarlar. Müsəlman cəmiyyətlər texnologiyanın rahatlığından və bütün imkanlarından istədikləri qədər yararlanar, bolluq və zənginlik həyatın hər sahəsinə hakim olar. Müsəlmanlar daim gözəlliklə qarşılaşarlar, eyni zamanda yaşadıqları yerlər, evlərinin dekorasiyası, geyimləri, əyləncə növləri, söhbətləri və s. daha da gözəlləşər.

Əlbəttə, bunların gerçəkləşməsi üçün bütün İslam dünyasında böyük oyanış baş verməlidir. Müsəlmanları inkişafdan saxlayan batil ənənələr, sosial quruluş və zehniyyətlər qaldırılmalıdır. Bunların yerinə İslamın ilk nəsillərində olduğu kimi, Quran əxlaqına əsaslanan, dolayısilə, ağıllı, şövqlü və qərarlı əxlaq yerləşdirilməlidir. Unutmaq olmaz ki, İslam dünyanı tamamilə tərk etməyi tələb edən din deyil. Əksinə, müsəlmanın vəzifəsi odur ki, bütün dünyanı gerçək üzü ilə qavrasın və beləliklə, bütün bəşəriyyətə işıq tutsun. Dünya nemətlərinə sahib olmaq möminlərin haqqıdır. Belə ki, səmimi iman edənlər və Allahın əmr etdiyi kimi yaşayanlar Quranda müjdələnən gözəlliklərin hamısını yaşamalıdırlar. Allah ayədə iman edən möminlərə dünyada da gözəl həyat bəxş edəcəyini belə xəbər verir:

**Sizdə olan nemətlər tükənəcək, Allahın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 96-97)**

## CƏNAB ADNAN OKTARIN "BAŞKENT" TV-dəki MÜSAHİBƏSİ

## (13 FEVRAL, 2009)

**Adnan Oktar:** Mənəvi zəmini olmayan iqtisadi birlik davam etməz. Heç kim heç kimə pul verməz, yardımçı olmaz, heç bir İslam ölkəsi bir başqasına bir şey verməz. O biri türk dövlətləri də kimsəyə yardım etməz. Dəhşətli dərəcədə eqoistlik olar. **İslam Birliyinin əsas məqsədi coşqun sevgidir. Həm də Allah qorxusu, Allah sevgisi və mənəvi həyəcandır. Elə bir mühitdə insanlarda mal sevgisi qalmaz, hamı malını paylaşar.** Məsələn, neft var? Götür, apar qardaş, deyərsən ki, sənə verirəm, halal xoşun olsun. Məsələn, faydalı qazıntıları Türkiyə Ərəbistana göndərər, onlar da neft göndərər. Buradan işçi gedər, Allah rizası üçün gedib orda işləyər. Onlar da Allah rizası üçün o işçilərə külli miqdarda maaş verərlər. **Bu, dostluq və qardaşlıq mühitində həyatın təbii axarıdır. Zənginliyi və bu zəmini belə şeylər təmin gətirir. Zənginlik eqoist və lovğa ruhundan çıxar. Eqoistlik və iqtisadi birlik kimi yanaşarsa, ailə quruluşuna qədər xəsislik meydana gələr. Ailələr öz içlərində eqoist olarlar, millətlər də öz aralarında. Bunlara həmçinin şəhər və məhəllələr də daxildir. Hamı bir-biri ilə əlaqəsini kəsər, yəni sevgi yox olar. Sevgi olan mühitdə məcburən zənginlik olar.** Mən sevdiyim insana pul verərəm, maşınımı verərəm, evimi verərəm, deyərəm ki, gəl istifadə elə. Fabrikimdə qazandığım pulun hamısını verərəm. İnsan sevdiyinə dərin məhəbbət bəsləyər. Sevgi olmadan belə şeylər olmaz. Ona görə də İslam Birliyi Allah sevgisinə əsaslanmalıdır. Bu, çox əhəmiyyətlidir.

## CƏNAB ADNAN OKTARIN "MALATYA" TV-dəki MÜSAHİBƏSİ

## (22 FEVRAL, 2008)

**Adnan Oktar:** Qardaşlarıma müjdə verirəm, önümüzdəki günlər çox gözəl olacaq, inşaAllah. İslam aləmində böyük birlik və irəliləyiş olacaq. Hz.Süleyman dövrü kimi olacaq. Ona bənzər

şəkildə mükəmməl olacaq. O dövr kimi ola bilməz, çünki Quranda onun bir xüsusiyyəti var. Lakin ehtişam baxımından hər dövrün özünə xas özəlliyi var. Hər şey çox mükəmməl olacaq, inşaAllah. Qardaşlıq, birlik və bərabərliyi yaxşıca gücləndirməli, təfriqədən şiddətlə çəkinməli, camaat ayrılıqlarından narahat olmamalı və bunları rəhmət bilib qardaşlığımızı möhkəmləndirməliyik. Ciddi şəkildə darvinizmə, materializmə qarşı çıxmaq lazımdır, bunun üçün mənim kitablarımdan istifadə edə bilərlər. Onsuz da internetdən pulsuz yükləmək olur.

### İslam əxlaqının digər insanlara təbliğ olunması

**"Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın..."** (Ali-İmran surəsi, 104) ayəsi ilə Allahın Quranda iman edənlərə bildirdiyi əhəmiyyətli vəzifələrdən biri də yaxşılığı əmr edib pislikdən çəkindirmək və insanları İslam əxlaqına dəvət etməkdir. Belə ki, dövrümüzdə İslam dünyasındakı ixtilaflıq müsəlmanlara bu əhəmiyyətli vəzifəni yerinə yetirməkdə mane olur. Halbuki son dövrlərdə digər mədəniyyətlərdə daha çox insan İslama yönəlməyə başlamış və insanlara Quran əxlaqını anlatmaq daha vacib duruma gəlmişdir. Allahın varlığı, birliyi, İslam əxlaqı, Peyğəmbərimizin (səv) həyatı, Qurandakı hökmlər, İslam cəmiyyətinin quruluşu kimi mövzular son dövrlərdə Qərb dünyasında ən çox müzakirə olunanlar arasında yer alır. İslamla maraqlananlar, şübhəsiz ki, ən doğru məlumatı müsəlmanlardan ala bilərlər. Buna görə də müsəlmanlar İslamı ən yaxşı şəkildə təmsil etməlidirlər. Belə ki, müsəlmanlar üçün insanlara İslamı ən gözəl tanıdan əsərlərin hazırlamaq və konfranslar vasitəsilə daha çox insanı məlumatlandırmaq böyük əhəmiyyət daşıyır.

Bununla yanaşı, insanların din əxlaqından üz çevirmələrindən qaynaqlanan bir çox problemin ortadan qaldırılmasında da müsəlmanların ittifaqı əhəmiyyətlidir. Din əxlaqına qarşı olan və yer üzündə dinsizliyin hakim olması üçün mübarizə aparan çevrələr çox hallarda birlik içində hərəkət edirlər. Əməkdaşlıqları hər nə qədər mənfəətə dayansa da, toplu hərəkət etmələri onları hədəfə daha asan çatdırır. Əlbəttə, din əxlaqına qarşı olan hər fikir sistemi (Allahın qanunu olaraq) yenilməyə məhkumdur. Ancaq bu fikir sistemləri müsəlmanların üzərinə fikri mübarizə vəzifəsini qoyur. Buna görə də dünya müsəlmanlarının ən təcili məsuliyyətlərindən biri daxili anlaşılmazlıqları bir kənara qoyub Quran əxlaqını yaymaq və insanları Allahın yoluna dəvət etməkdir. Rəbbimiz iman edənlərə bu əhəmiyyətli vəzifəni bir ayədə belə bildirmişdir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

İslam Birliyinin qurulması Quran əxlaqını yaymaq üçün aparılan bütün fəaliyyətlərə sürət qazandırar. Müsəlmanların birgə hərəkət etmələri başqa şeylərdə olduğu kimi, bu mövzuda da işlərə bərəkət verər. Doğru məlumat ən sürətli və ən gözəl şəkildə bütün insanlara çatar. İndi də fərdi və toplu olaraq dünyanın fərqli yerlərində müsəlmanlar tərəfindən İslamı yaymaq və tanıtmaq üçün müxtəlif fəaliyyətlər aparılır. Lakin İslam Birliyinin qurulması bu fəaliyyətləri proqramlaşdırılmış hala gətirər, bunun üçün sistemli şəkildə iş görülməsinə şərait yaradar. Bundan əlavə, İslam adına ortaya çıxan, lakin həqiqətdə İslama zidd olaraq aqressiv və qaba xarakter göstərən bəzi şəxslərin də önü kəsilər.

## ABŞ, YAXIN ŞƏRQ VƏ İSLAM BİRLİYİ

11 sentyabr tarixində Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinə və Pentaqona qarşı təşkil olunan, minlərlə günahsız insanın ölümünə və bir çoxlarının da yaralanmasına səbəb olan hücum dünya nizamının yenidən formalaşacağı bir dövrün başlanğıcı oldu. Bir çox nəzəriyyəçilər tərəfindən fərqli fikirlər ortaya atıldı. Mütəxəssislərin bir qismi bu terror hücumunun daha böyük

münaqişələrə səbəb olacağı fikrini önə sürsələr də, bir çoxları da Amerikanın bundan sonra daha ədalətli siyasət yürütməli olduğuna diqqət çəkdilər.

Hücumun ardından Amerika Birləşmiş Ştatları terrora qarşı iri miqyaslı mübarizəyə başladı. Demək olar ki, bütün dünya dövlətləri və beynəlxalq təşkilatlar ABŞ-a bu mübarizədə dəstək verdilər. Terrora və terrora dəstək verən bütün ünsürlərə qarşı aparılan mübarizədə, əsasən, hərbi əməliyyatlara üstünlük verildi. Lakin bu gün üçün bəzi müvəffəqiyyətlər əldə olunsa da, hərbi müdaxilələrin problemi həll etmədiyi açıq-aşkardır.

Bunun əsas səbəblərindən biri odur ki, terrorla mübarizə taktikası – iri həcmli olaraq – hərbi tədbirlər çərçivəsində müəyyən edilmiş, təlim və mədəni sahədə hərbi mübarizəyə lazımi qədər dəstək verilməmişdir. Halbuki həm sosial-psixoloji, həm də ideoloji problem olan terroru təkcə buna dəstək verən rejimlərin dəyişdirilməsi məqsədilə hərbi üsula baş vurmaq yanlış vasitədir. Bu zaman arada günahsız insanlar da öldürülür, eyni zamanda radikalizmi və dolayısilə, terroru daha da canlandırır. Terrorun tamamilə ortadan qaldırılması ancaq terror qruplaşmalarının təbliğatlarını təsirsiz hala gətirən fikri mübarizə ilə mümkündür. Hərbi müdaxilə isə bir nöqtəyə qədər faydalı ola bilər.

Buna görə də terrorla mübarizə beynəlxalq hüquq normaları çərçivəsində aparılmalı və mümkün qədər sülh yönlü olmalıdır. Hüququ və ən əsas insan haqlarını görməzlikdən gələn, mülki şəxslərin ölümünə səbəb olan hər cür fəaliyyətin haqlı əsaslarla başlayan bu mübarizəyə kölgə saldığını unutmaq olmaz.

ABŞ rəhbərliyi də terrora qarşı strategiya müəyyən edərkən bu həqiqətləri göz önündə saxlamalıdır. İlk növbədə terrorun ideologiyası aradan götürülməlidir. 11 sentyabrın arxasında olduğu düşünülən "islami" terrorun əsas qaynağı İslamı şiddətə əsas göstərmək istəyən bir neçə radikal qruplaşmalardır. Bu qruplaşmaların ideologiyaları və ya hansı formada təlim aldıqları araşdırıldıqda kökündə darvinist zehniyyətin mövcudluğu o dəqiqə anlaşılır. Dolayısilə, həmin qruplaşmaların İslam adına ortaya çıxmasının heç bir mənası yoxdur. Çünki həmin adamlar darvinist məntiqə sahibdirlər. Bu səbəbdən də ilk öncə darvinizmə qarşı fikri mübarizə aparılmalı, insanlara gerçək din əxlaqının əsasları olan sevgi, şəfqət və mərhəmət öyrədilməlidir.

İslam əxlaqının doğru anlaşılması üçün cəhd göstərmək və İslamı yanlış anlayıb tətbiq edənləri öz əməllərindən çəkindirmək vəzifəsi müsəlmanların üzərinə düşür. ABŞ bu mövzuda İslam dünyasından gələcək həll yolunu (İslam Birliyini) dəstəkləməli və buna yol açmalıdır.

Amerikanın mövcud problemə qarşı bu cür yaxınlaşması həm ABŞ, həm bütün dünya, həm də İslam dünyası üçün xeyirli olar. Bunun əksini müdafiə edənlər dünyanı qan gölünə sürükləməyi hesablayıb bir daha düşünməlidirlər. Bundan başqa, ABŞ pis niyyətli güclərin bu yöndəki yanlış təlqinlərinə etibar etməməlidir. Həmin güc mərkəzləri İslamı bir din və mədəniyyət olaraq düşmən kimi görürlər, hansı ki onlar Qərblə İslam dünyası arasında qanlı müharibənin başlanmasını ürəkdən arzulayan ideoloq və strateqlərdir. Onlar ABŞ rejiminin terrorla mübarizə siyasətini "İslamla mübarizə" kimi göstərməyə çalışırlar və nəticədə, eynilə bunu əldə etmək istəyirlər. ABŞ rejiminin həmin "Qərb-İslam müharibəsi" ssenarisini qəti şəkildə rədd edən açıqlamaları 11 sentyabrdan bəri müsbət nəticələr vermişdir. Ancaq bu açıqlamaların tətbiq olunan siyasətə yön verdiyi dünyanın görəcəyi şəkildə aşkara çıxarılmalıdır.

**ABŞ-ın dünya sülhünün təmin olunmasında hansı rolu ola bilər?**

11 sentyabr hadisələri ilə yanaşı, ABŞ rejimi yeni xarici siyasət və milli təhlükəsizlik strategiyası müəyyənləşdirdi. Terror hücumlarından bir həftə sonra, prezident Buşun xalqa müraciət çıxışında ana xətləri ifadə olunan və "Buş doktrinası" kimi bilinən həmin strategiya bir

çox müzakirə mövzusunu da bərabərində gətirdi. ABŞ-ın öz ölkəsini qorumaq üçün hər zaman düşməndən öncə davranacağı mənasını verən – və bu mənada müəyyən yerlərdə qanuni sayılacaq – bu strategiyası yeni dövrün başlanğıcı demək idi. Hücumlardan sonra meydana gələn psixoloji mühitdə ABŞ-dakı bəzi aqressiya tərəfdarları Corc Buşun vətənpərvərlik duyğularından istifadə edilərək müəyyən edilən bu strategiyanı fərqli istiqamətlərə yönləndirmək istədilər. Həmin çevrələr buna əsaslanaraq ABŞ-ın, demək olar ki, bütün Yaxın Şərqi hədəf almaqla təxminən 20 il davam edəcək müharibəyə hazırlaşmalı olduğu fikrini irəli sürdülər. Bunun böyük xəta olduğunu və terroru daha da körükləyəcəyini açıqlayan daha mülayim çevrələr isə bu strategiyanın böyük risk daşıdığına işarə verdilər. Bu risklərə keçməzdən əvvəl bu doktrinada yer tutan preventiv (qabaqlayıcı) hücum anlayışı üzərində dayanmaq faydalıdır.

Bu gün dünyanın yeganə super gücü sayılan ABŞ-ın dünyanın fərqli bölgələrinə dair siyasi və strateji planlarının olması təbiidir. ABŞ müdaxilələrinin zaman ərzində müsbət nəticələr verdiyi nümunələr mövcuddur. Məsələn, 1990-cı illərdə əvvəlcə Bosniya-Herseqovinanı, ardından da Kosovanı hədəf alan serb hücumunun qarşısının alınmasında ABŞ-ın hərbi və siyasi müdaxilələrinin böyük rolu olmuşdur. Əhəmiyyətlisi odur ki, ABŞ müdaxilə etdiyi ərazilərdə fərqli qrupların haqlarına hörmətlə yanaşırmı, yaxud da beynəlxalq hüquqa tabe olurmu?

Beynəlxalq münasibətlərdə bir ölkənin öz təhlükəsizliyini təmin etmək üçün aldığı tədbirlər müəyyən ölçüdə anlayışla qarşılanır. Əlbəttə, hər ölkə öz varlığını və gələcəyini qorumaq arzusundadır, buna görə də müxtəlif strateji planlar qura bilər. Ancaq bu qoruma hissi heç bir zaman digər millətlərin və ya ölkələrin haqlarına haqsız yerə müdaxilə etməyi əhatə etməməlidir. Bir ölkənin həm öz vətəndaşları, həm də dünya xalqları üçün ən təhlükəsiz və müvəffəqiyyətli strateji planı sülhü və asayişi qorumağa çalışmasıdır. Sülhsevər olan bütün planlar insanlığa rifah və güvənlik gətirir. Sülhü və nizamı pozmağa yönələn hər bir təşəbbüs isə çox təhlükəli və zərərlidir.

ABŞ rejimi daxilində bəziləri tərəfindən müdafiə edilən preventiv hücum anlayışı da son dərəcə risklidir. Bu strategiyanın bəzi müdafiəçiləri hər dövlətin sahib olduğu qanuni müdafiə haqqını ifrat dərəcədə aşacaq yanaşma içindədirlər. Bu yanlış yanaşmaya əsasən, "irəlidə təhlükəsizliyimə qarşı təhdid ola bilər" iddiası ilə hər cür hücuma zəmin hazırlanır. Bu isə hər cür problemi hərbi yollarla həll etməyə çalışmaq mənası daşıyır. Halbuki tək hərbi üsullarla qəti müvəffəqiyyət əldə etmək mümkün deyil. Dünya tarixi bunun nümunələri ilə doludur.

Bir çox yanlış yönü olan bu məntiqə görə, beynəlxalq münasibətlər hüquqa deyil, gücə əsaslanır. Onlar Amerikanın bir növ güc nümayiş etdirməklə düşmənlərinə hələ də güclü olduğunu ən "təsirli" şəkildə göstərməsini tələb edirlər. Aqressiya tərəfdarları belə iddia edirlər ki, guya ABŞ ancaq müharibə yolu ilə hərbi üstünlüyünü davam etdirməlidir və hər zaman ilk vuran tərəf olmalıdır. Əlbəttə, bu təhlükəli yanaşma bütün Amerika rejimini təmsil etmir. Aqressiya tərəfdarları zamanla Amerika siyasətində üstünlük qazanırlar, eyni zamanda idarəçilər və müşavirlər arasında sülhpərvər siyasət yürütməyi müdafiə edənlər də vardır.

Başda ABŞ olmaqla, bütün dünya ölkələri hər zaman və bütün şərtlərdə sülhdən yana davranmalıdır. Güclü olanın haqlı olduğu, problemlərin güc yolu ilə həll edildiyi kimi yanlış düşüncələrə sahib çevrələr həmin təlqinlərlə öz ölkələrini də çıxılmaz vəziyyətə sürükləyirlər. Bu çıxılmaz vəziyyətin bir ölçüsü əvvəl də vurğuladığımız kimi, terrorun güclənməsi təhlükəsidir. Digəri isə müharibələrin ABŞ-a ağır yük olmasıdır. Hal-hazırda bəzi strateqlər Amerikanın həm iqtisadi, həm də siyasi yöndən zəifləməyə başladığına diqqət çəkir. Hərbi güc ABŞ-a xeyli üstünlük qazandırır, lakin təlqinlər nəticəsində dövlətin sürəkli müharibələrə qoşulmasının Amerika iqtisadiyyatına böyük zərbə vuracağı görünür. Eyni zamanda dünyanın fərqli yerlərində davamlı müharibə aparmaq ABŞ-ı demokratik və dünyəvi dəyərləri qoruyan bir ölkə kimi tanıyanların gözündən salacaq. Aqressiya tərəfdarlarının siyasəti nəticəsində bütün cəmiyyətlər

tərəfindən hörmətlə yanaşılan bir Amerikanın yerinə sadəcə ətrafına qorxu saçan Amerika ortaya çıxacaq. Belə bir vəziyyətdə müxtəlif hərbi zəfərlər əldə edilsə də, iqtisadi yöndən çətinlik yaşanacaq və bütün dünyada imicinə zərər dəyən Amerika xalqı üçün gerçək müvəffəqiyyət olmayacaq. Əslində, Amerika rejimi özü də istəmir ki, belə bir vəziyyətlə qarşılaşsınlar. Buna görə də yanlış təlqinlərə qarşı diqqətli olmaq, daim sülh yönlü siyasət izləmək lazımdır.

Bundan başqa, həmin çevrələr düşünməlidirlər ki, müdafiə etdikləri üsullarla başqa dövlətlərə də nümunə təşkil edirlər. Nəzərə almalıdırlar ki, başqa ölkələr də eyni onlar kimi qoruma məqsədilə hərəkətə keçib beynəlxalq qanunlara riayət etməyə bilərlər. Rusiya, Çin və Hindistan (eyni zamanda İsrail) kimi nüvə silahına malik ölkələr preventiv hücum strategiyasını tətbiq etməyə çalışsalar, dünyanın hansı qarışıqlığın içinə düşəcəyini təsəvvür etmək o qədər çətin deyil. Bu cür ehtimalın gündəliyə gəlməsi belə böyük təhlükədir.

Əlbəttə, milli maraqlardan yana olmaq və özünü potensial təhlükələrdən qorumaq digər ölkələr kimi, ABŞ-ın da haqqıdır və beynəlxalq təşkilatlar xüsusilə 11 sentyabrdan sonra ABŞ-ın bu haqqına böyük hörmətlə yanaşırlar. Bu haqqın həm ABŞ, həm də dünya ölkələrinə faydalı şəkildə istifadə olunması beynəlxalq hüquq çərçivəsində müəyyən olunmuş addımlarla təmin oluna bilər. Həmin strategiyanın şəxsi istəklərə yol açmasına mane olan ən əhəmiyyətli maddə beynəlxalq hüquq çərçivəsində beynəlxalq cəmiyyətin razılığının təmin edilməsidir. Əksinə olduqda isə strategiyanı tətbiq edənlər həm öz ölkələrini böyük böhrana sürükləyəcəklər, həm də dünya sülhünü təhdid ünsürünə çevirəcəklər.

Amerika bütün bunları diqqətdə saxlayıb mövcud strategiyasını bir daha gözdən keçirməlidir. Dünya sülhünü qorumaq və sabitlik yaratmaq istəyən Amerika şiddətə əl atmamalıdır, təvazökar və ədalətli davranmalıdır.

Terrorla mübarizədə ABŞ ilk öncə mədəni fəaliyyətlərə üstünlük verməlidir. Problemlərin şiddət yolu ilə həll edilməsini müdafiə edən, insanlar arasındakı münasibətlərin mənfəətlərə əsaslandığını göstərən və aqressivliyi qanuniləşdirən hər cür ideologiyanın fikri yöndən çökdürülməsi terrora zəmin hazırlayan mühitin ortadan qaldırılması deməkdir. İnsanlara bu və bənzəri pislikləri aşılayan və din əxlaqına qarşı çıxan ideologiyaların yerinə vicdanlı olmağı, şəfqətli davranmağı, sevgi və mərhəməti əmr edən gerçək din əxlaqının yayılması başda terror olmaqla, bir çox sosial problemin qəti həllidir.

Bu istiqamətdə aparılan mədəni çalışmalarda ABŞ qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etməlidir. Son dövrlər bu mövzuda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının sayı artmışdır ki, bu, çox sevindirici haldır. Lakin problemin tam mənası ilə həll olunması üçün həm aparılan fəaliyyətlərin təsir dairəsi genişləndirilməli, həm də bu fəaliyyətlər dövlət tərəfindən dəstəklənməlidir.

Bütün bunlarla yanaşı, Amerika hökuməti xristianlığın təməl dəyərlərinin də müharibə və düşmənçiliyə qarşı olduğunu unutmamalıdır. Allah insanlara yer üzündə qarışıqlıq çıxarmamağı, sabitlik və təhlükəsizliyi pozmamağı əmr edir. İnanclarına dəyər verən Amerika dünyaya qorxu və təlaş deyil, sabitlik və təhlükəsizlik gətirməklə bütün bəşəriyyətə nümunə olmalıdır. İnanclı xristian olduqlarını tez-tez dilə gətirən hökumət üzvləri hz.İsanın İncildə onlara "**Nə xoş sülh sevərlərə**", – deyə (Matta bab 5, 9) yer üzündə sülh elçiləri olmağı əmr etdiyini unutmamalıdırlar.

Bu istiqamətdə amerikalı din adamları Amerika hökumətinə çağırışlar etməlidirlər. Amerika Milli Kilsələr Şurası tərəfindən (50-yə yaxın imza ilə) Prezident Buşa yazdığı xitabən yazılan bir məktub bu çağırışın nümunələrindən biridir. Hələ İraq müharibəsi başlamadığı günlərdə qələmə alınan məktub əhəmiyyətli xatırlatmalar ehtiva edir:

*"... Bu məktubu Allah tərəfindən bizlərə verilən nemətlərin millətimizin əməlləri üzündən zərər görəcəyi əndişəsi ilə yazırıq. Amerika kilsələri və kilsələrə bağlı təşkilatların liderləri olaraq tərəfinizdə və idarəçilikdə yer tutan bəzi şəxslər tərəfindən İraqa qarşı düşünülən preventiv hücumla əlaqədar açıqlamalarınız bizi təşvişə salıb. Səddam Hüseynin qonşularına, öz xalqına, hətta Amerikanın maraqlarına qarşı təhdid olduğunu qəbul etməklə yanaşı, belə bir hərbi müdaxilənin tamamilə yanlış olduğunu düşünürük. Əxlaqi dəyərlərə əsaslanaraq Amerikanın İraqa hücum etməsinə qarşıyıq... Səddam Hüseyn hökumətinə qarşı hərbi əməliyyat və sonrasında baş verəcək olaylar çoxlu sayda mülki şəxslərin ölümünə və ya yaralanmasına yol açacaq. Çoxlu günahsız insan əzab çəkəcək... Milyonlarla vətəndaşlarımızı təmsil edən xristian liderlər olaraq hökumətimizin bizim üçün əhəmiyyətli olan əxlaqa və dəyərlərə uyğun hərəkət etməsini, müharibəni deyil, sülhü müdafiə etməsini, beynəlxalq cəmiyyətlə birlikdə hərəkət etməsini, beynəlxalq qanun və sözləşmələrə hörmətlə yanaşmasını və insan həyatına dəyər verməsini tələb edirik."*[19]

**Müharibələrin səbəb olduğu fəlakətlər**

Müharibə onun bütün tərəflərinə hər zaman acı, göz yaşı və böyük itkilər gətirən bir zülmdür. Din əxlaqı insanlardan anlaşılmazlıqları sülh yolu ilə ortadan qaldırmağı, uzlaşdırıcı olmağı tələb edir. Din əxlaqını yaşayan insan kin, intiqam və qəzəb kimi xüsusiyyətlərdən çəkinir, bağışlayıcı və mərhəmətli olur. İnsanların din əxlaqından uzaqlaşması isə həm cəmiyyət daxili, həm də cəmiyyətlər arası münaqişənin təşviq edildiyi mühit meydana gətirir. Yaxın keçmişdə baş verən iki böyük dünya müharibəsi din əxlaqına uyğun olmayan ideologiyaların insanları sürüklədiyi böyük bəlalardır.

10 milyondan çox insanın öldüyü Birinci Dünya Müharibəsi Avropadan Yaxın Şərqə qədər çox geniş cəbhəyə böyük fəlakətlər gətirdi. Birinci Dünya Müharibəsi kimi, heç bir haqlı və qanuni səbəbə əsaslanmayan İkinci Dünya Müharibəsi də qanlı bitdi: 55 milyon insan bu amansız müharibə üzündən həyatını itirdi. Bundan başqa, bu müharibəni yaşayanlar tarixdə bənzərinə az rast gəlinən vəhşiliklər görüblər və əsir düşərgələrində milyonlarla məsum insanın yox edilməsinin şahidi olublar.

İki böyük dünya müharibəsi və bu müharibələrin səbəb olduğu dağıntılar insanların müharibənin nə qədər böyük fəlakət olduğunu öyrənmələri üçün kifayət etmədi. İkinci Dünya Müharibəsindən sonra da dünyanın fərqli bölgələrində münaqişə və savaşlar meydana gəldi. Qətliamlar davam etdi. Bir neçə nəfərin siyasi ehtirası və mənfəəti ucbatından milyonlarla insan öldü, on minlərlə insan şikəst qaldı, şəhərlər viran oldu və ölkələr alt-üst oldu. Müharibələr insanlara təkcə fiziki yöndən zərər verməklə qalmadı, müharibəyə şahid olanlarda ciddi psixoloji problemlərin əmələ gəlməsinə və bir nəslin ruhi sağlamlığının tamamilə itirməsinə səbəb oldu. "Bomba" sözünü eşidəndə və ya hərbi forma görəndə belə dəhşətə gələnlərin, canına titrəmə düşənlərin, müharibələrdə gördüklərindən dolayı şizofreniyaya tutulanların və cəmiyyətə inteqrasiya olunmaqda çətinlik çəkənlərin hamısı müharibələrin əsəri idi.

Dövrümüzdə də rast gəlinən problemləri müharibə ilə həll edəcəyini zənn edənlər, yalnız hərbi vasitələrdən kömək umanlar və başda Yaxın Şərq olmaqla dünyanın müxtəlif yerlərində müharibə planı cızanlar bütün bu insan faciələrini bir daha xatırlamalı və bu təhlükəli planlarından vaz keçməlidirlər.

Digər tərəfdən İraq müharibəsinə çəkilən xərclər üzərində aparılan araşdırmalar başqa bir ölçünü gözlər önünə sərir. Bu araşdırmalar göstərir ki, Yaxın Şərqi bütövlükdə əhatə edəcək müharibə bütün dünyanı sarsıdacaq nəticələr doğura bilər.

**İraq müharibəsinin xərcləri və düşündürdükləri**

İraq müharibəsindən əvvəl və sonra ABŞ-da müxtəlif statistiklər müharibəyə çəkilən xərclər üzərində araşdırma aparıblar. Fərqli qurumlar və şəxslər tərəfindən həyata keçirilən bu çalışmalar müharibənin Amerikaya neçəyə başa gəldiyini müxtəlif yönlərdən dəyərləndiriblər. Bu çalışmalar müharibənin birbaşa təsirlərindən əlavə təsirlərinin də əhəmiyyətini ortaya qoymuşdur.

Məsələn, Amerika Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri senator Cosef Bayden (Joseph Biden) tərəfindən aparılan araşdırma müharibə xərclərinin 100 milyard dollara çatdığını göstərir. Senator Bayden bu rəqəmdən başqa, İraqın yenidən inşası üçün 50 milyard dollara qədər vəsaitin lazım olduğunu ifadə etməklə ümumi xərcin 150 milyard dollar təşkil etdiyini qeyd etmişdir. Lakin bu heç də müharibə əsnasında yaşanan faciəni unutdurmur, eyni zamanda bu qədər maliyyə vəsaitinin Amerika əhalisinin rifahı üçün istifadə edilməsinin əvəzinə müharibəyə xərclənməsini haqlı göstərmir.

Aqressiya tərəfdarlarının çox görmədikləri 100 milyard dollar ABŞ-ın 0-12 yaş arasındakı uşaqların təhsili üçün ayırdığı büdcənin üç, beynəlxalq əlaqələr üçün ayırdığı büdcənin isə dörd mislidir. Bu miqdarda pulla Amerikada sığortası olmayan bütün uşaqların beş illik sağlamlıq problemlərini həll etmək mümkündür. Amerika əhalisinin yaşayış standartlarının daha da yaxşılaşması üçün istifadə oluna biləcək bu vəsaitin minlərlə insanın ölümünə səbəb olan müharibəyə xərclənməsi ibrətamizdir. Bundan əlavə, təkrar xatırlatmaq lazımdır ki, bu, ən yaxşı şərtlər düşünülərək aparılan hesablamadır. Bir çox ehtiyatda olan zabitlər – müharibədən sonra baş verəcək potensial riskləri də nəzərə alaraq – çəkilən xərclərin bundan daha çox olacağını ifadə edirlər.

Belə ki, Amerika tarixində baş verən müxtəlif müharibələrə nəzərdə tutulandan daha çox maliyyə xərclənmişdir. Məsələn, Linkolnun xəzinə naziri müharibənin Şimala 240 milyon dollara başa gələcəyini bildirmiş, lakin müharibəyə nəzərdə tutulandan 13 dəfə çox, yəni 3 milyard 200 milyon dollar çox pul xərclənmişdir. Buna bənzər şəkildə 1966-cı ildə Vyetnam müharibəsinə 10 milyard dollar ayrılmış və təxmin edilmişdir ki, müharibə 1967-ci ilin yayında sona çatacaq. Lakin müharibə 1973-cü ilə qədər davam etmiş və xərclənən pulun həcmi 110-150 milyard dollara çatmışdır.[20] Qısa müddətdə bitəcəyindən əmin olduqları Vyetnam müharibəsi 47 mindən çox Amerika əsgərinin cəbhədə döyüşərək, 11 min əsgərin isə başqa səbəblərlə ölməsinə və 303 min nəfərin də yaralanmasına səbəb olmuşdur. 1 milyondan çox mülki şəxsin öldüyü bu müharibədə 225 min vyetnamlı əsgər ölmüş, 570 mini də yaralanmışdır.[21]

Bu nümunələr müharibənin davam etdiyi müddətdə heç gözlənilməyən dəyişikliklər üzündən xərcin bir neçə dəfə çoxaldığını göstərir. Müharibədə hər iki tərəfin çoxlu insan itirdiyini və hər iki tərəfə xeyli maddi zərər dəydiyini unutmayıb İraqdakı müharibənin bənzərinə bir daha yol verilməməlidir. Unutmaq olmaz ki, Amerika hökumətinin Yaxın Şərqdə təmin etmək istədiyi sülh və demokratik mühit müharibə yolu ilə qurula bilməz. Hərbi üstünlük əldə edilsə də, bölgədə sabitlik və təhlükəsizlik uzun müddət sürməyəcək. Müharibəni qazanmaq bir bölgəni sosial və siyasi yöndən hakimiyyət altına almaq üçün kifayət etməyə bilər. Yaxın Şərq həssas müvazinətlər üzərinə qurulmuş bölgədir. Tarixi təcrübələr göstərir ki, əcnəbilərin bu həssaslığı ən ədalətli şəkildə qoruması, bölgədəki bütün xalqların razı qalacağı nizamı təşkil etməsi elə də asan deyil. Bunu ancaq bölgə xalqları ilə ortaq mədəniyyətə sahib güc gerçəkləşdirə bilər. Bu da öz növbəsində bütün müsəlman ölkələri birləşdirən və İslam aləminin iradəsini əks etdirən mərkəzi nüfuz dairəsi olmalıdır. Bu nüfuz dairəsi təkcə Yaxın Şərq mövzusunda deyil, Qərb və İslam dünyası arasındakı bütün problemləri həll etməyə gücü çatacaq İslam Birliyidir. Dolayısilə, başda ABŞ olmaqla, qərb dövlətləri bütün müsəlman ölkələrini sülhsevər anlayışda birləşdirən İslam

Birliyinin qurulmasına dəstək verməli, bu birliklə ittifaq halında hərəkət etməlidir. Beləliklə, ABŞ qərbdə Mərakeş və Mavritaniyaya, şərqdə isə İndoneziyaya qədər uzanan böyük coğrafiyada dialoq qurub əməkdaşlıq edəcəyi etibarlı siyasi birlik tapar.

Bir çox amerikalı mütəfəkkir tərəfindən də dilə gətirilən bu həqiqət məşhur iqtisadçı və Yel Universitetinin əməkdaşlarından olan prof. Uilyam Nordhaus (William Nordhaus) tərəfindən hazırlanan "İraqla müharibənin iqtisadi yöndən nəticələri" adlı hesabatda belə bir ifadəyə yer verilmişdir:

*"Siyasi yöndən təkbaşına davranmaq, xüsusilə İslam ölkələrinin dəstəyini almadan hərəkət etmək, həm mülayim çevrələrdə narahatlığa səbəb olacaq, həm də radikal hərəkətlərə zəmin hazırlayacaq..."*[22]

**Müharibənin pərdə arxasında kim dayanır?**

Müharibənin bütün mənfi yönlərini və zərərlərini göz önündə saxlayan mənzərəyə baxmayaraq, Amerikanın belə bir müharibəyə necə girdiyi, şübhəsiz ki, üzərində durulası əhəmiyyətli mövzudur. Bir çox analitik ikinci İraq müharibəsinin, əslində, 11 sentyabrdan və kütləvi qırğın silahları ilə bağlı şübhələrdən də daha əvvəl planlandığını düşünür.

Bu müharibə Amerikanın Yaxın Şərqə qarşı yeni strategiyasının bir hissəsidir. Bu strategiyanı quranlar hələ 1997-ci ildə Amerikanın Səddamı iqtidardan endirməli olduğuna qərar vermişdilər. Buna dair ilk işarə 1997-ci ildə ortaya çıxmışdı. Vaşinqtonda bir qrup strateq İsrail lobbisinin təlqinləri ilə qurduqları "PNAC" (Project for the New American Century – Yeni Amerikan Əsri Layihəsi) adlı araşdırma mərkəzi İraqın işğalı ssenarisini müdafiə etməyə başlamışdı. PNAC-ın ən əsas adları arasında sonradan Corc Buş rejiminin nüfuzlu şəxslərinə çevrilən müdafiə naziri Donald Ramsfeld və Vitse-prezident Dik Çeyni idi. Həqiqətdə ABŞ liderliyində sabit dünya qurmaq məqsədilə yola çıxsalar da, İsrail lobbisinin təsiri ilə bunun Yaxın Şərqdə müharibə tələb etdiyinə inanmışdılar. Halbuki müxtəlif yönlərdən dəyərləndirdikdə bu fikrin ciddi yanlışlıq olduğunu o dəqiqə görə bilərdilər. Əgər məqsəd sabitlik və nizam qurmaq idisə müharibənin heç bir zaman belə bir gücünün olmadığını hər kəs bilir. Tamamilə əksinə, müharibə daim mövcud nizamı alt-üst edir, insanlara böyük itkilər gətirir. Bu, həqiqətdir ki, sabitlik ancaq sülhlə təmin oluna bilər.

"Philadelphia Daily News" qəzetində Uilyam Bunç (William Bunch) imzası ilə nəşr olunan "İraqı işğal etmək Buşun komandası üçün yeni fikir deyil: 11 sentyabrdan 4 il əvvəl plan hazır idi" adlı məqalədə bu barədə belə yazılır:

*"Həqiqətdə Donald Ramsfeld, Vitse-prezident Dik Çeyni və kiçik mühafizəkar qrupdan təşkil olunan ideoloqlar Amerikanın İraqı işğalını müdafiə etməyə 1997-ci ildə başlamışdılar. Yəni 11 sentyabr hücumlarından 4, Prezident Buşun vəzifəyə başlamasından 3 il əvvəl. Özlərinə PNAC adı verilən bu qəribə və naməlum siyasət qrupu Çeyni, Ramsfeld, Ramsfeldin yaxın köməkçisi Pol Vulfoviç və Buşun qardaşı Ceb Buşu da özündə birləşdirirdi. Hətta o zamanlar belə (1998-ci ilin yanvarında) prezident Klintonu İraqı işğala razı salmağa çalışmışdılar. Ramsfeld tərəfindən imzalanaraq Klintona göndərilən və: "Sizə Amerikanın və müttəfiqlərinin mənfəətlərini bütün dünyada zəmanət altına alacaq yeni bir strategiyanı açıq şəkildə başlatmanızı təklif edirik", – deyə başlayan məktubun davamında "Bu plan ən başda Səddam Hüseyn rejiminin dağılmasını hədəf almalıdır" qeyd olunurdu".*[23]

Bəs PNAC üzvlərinin Səddamı hakimiyyətdən salmaq məsələsində bu qədər israrlı olmalarının səbəbi nə idi? Eyni məqalədə bu barədə belə yazılırdı:

*“Neft PNAC-ın İraq haqqındakı siyasi açıqlamalarında arxa planda yer alsa da, əsas güc kimi görünmür. Pensilvaniya Universitetindən politoloq və Yaxın Şərq eksperti Yan Lastik, Buşun siyasətini tənqid edərkən neftin müharibə aparanların xərclərini ödəməyə yönəlmiş vasitə olduğuna diqqət çəkir. PNAC-dan Şmitt isə: "Mən texaslıyam və tanıdığım neft istehsalçılarının hamısı hərbi əməliyyatlara qarşıdır", – deyir: "Neft bazarı qeyri-stabillik istəmir".*

*“Professor Lastikə görə isə (müharibə üçün) daha güclü, amma gizli motivasiya qaynağı İsrail ola bilər. Buş rəhbərliyindəki şahinlərin İraqdakı güc nümayişi fələstinliləri İsrail üçün sərfəli olan sülh planını qəbul etməyə razı sala biləcəyini söyləyir”.*[24]

Qısası, ABŞ-ın İraqın vurulması layihəsinin arxasında İsrail və onun ABŞ-dakı qolları dayanır. ABŞ-ın Yaxın Şərq siyasətinin İsrail tərəfindən müvazinətsiz şəkildə təsirlənməsi bu mərhələdə yenə ortaya çıxmışdır. ABŞ-ın qərar mexanizmlərinə təsir edən bəzi İsrail tərəfdarı radikal sionistlər Vaşinqtonu İsrailin Yaxın Şərq strategiyasına görə hərəkət etməyə məcbur edir. Bunu da ABŞ ilə İsrailin maraqlarının eyni olduğunu iddia edərək həyata keçirirlər. Halbuki ABŞ-ın Yaxın Şərqdəki mənfəəti İsraildəki radikal sionist zehniyyəti dəstəkləmək və buna görə ərəb dünyasını qarşısına almaq deyil, İsrailə barış və mülayimliyi təlqin etmək və ərəblərlə İsrail arasında ədalətli hakim və barışdırıcı rolu oynamaqdır. İraqa hücum planının inkişaf etdirilməsində də yenə adı çəkilən İsrail təsirini görmək mümkündür. İsrail lobbisi (sonradan Buş rəhbərliyində təsirli mövqelər tutan bəzi strateqləri) ABŞ-ın İraqa qarşı müharibə başlatmalı olduğu yönündə səhv istiqamətləndirmiş və bu da Yaxın Şərqdə xeyli günahsız insanın həyatına son qoymuş və gərginlikləri qızışdıracaq yeni müharibənin yolunu açmışdır. Həmin müharibə planın müdafiə edənlər hər nə qədər Amerika maraqlarından danışsalar da, əslində, İsrailin maraqlarını müdafiə edirlər. Çünki həqiqətdə Amerikanın bütün Yaxın Şərqlə savaşıb bu bölgənin xalqlarını özünə qarşı gətirmək kimi planı ola bilməz. Amerikanın bəzilərinin iddia etdiyi kimi, İslama zidd ideologiyası və planı da yoxdur. Daha öncə də vurğuladığımız kimi, 1990-cı illərdə serb vəhşiliyinə məruz qalan Balkan müsəlmanlarının (bosniyalıların, kosovoluların, ən sonda isə Makedoniya müsəlmanlarının) ən böyük dəstəkçilərindən biri Amerika olmuşdur. Amerikanın müsəlman kütlələrlə qarşı-qarşıya gəldiyi tək bölgə Yaxın Şərqdir və bu da Amerikanın bir qisim hakimiyyət nümayəndələrinin bu ölkənin xarici siyasətində inanılmaz gücə sahib İsrail lobbisinin təsiri ilə İsraildən yana hərəkət etməsindən qaynaqlanır. Həmin şəxslərin yanlış istiqamətləndirmələrinin təsirindən xilas olub Yaxın Şərqin vəziyyətini ön mühakiməsiz şəkildə dəyərləndirmək daha ədalətli yanaşmanın inkişafına vasitə olar.

Buna görə də Amerikanın 11 sentyabrdan sonra bütün İslam dünyasını nizamlamaq planı israilli radikalların Yaxın Şərq planı əsasında mənfi yöndə istiqamətləndirilir. İsrail narahat olduğu yox edilmək qorxusu üzündən qurulduğu gündən bu yana Yaxın Şərqi yenidən nizama salmaq və bölgəni özünə təhlükəsiz əraziyə çevirmək məqsədi güdür. Bu məqsədlə on illər boyu ABŞ üzərindəki nüfuzundan istifadə edir və Vaşinqtonun Yaxın Şərq siyasətini yönləndirir.

Halbuki **həqiqətdə müsəlmanlarla münaqişə İsrailin xeyrinə deyil.** Həm musəvi və xristianların, həm də müsəlmanların bu torpaqlarda istədikləri kimi ibadət edib yaşamaq haqları vardır. Belə ki, İsraildə nüfuz gücünə sahib ateist sionistlərin apardığı siyasət təkcə müsəlmanlara zülm etməklə qalmır, xristian və musəviləri də çox narahat edir.
Əgər İsrail bütün Yaxın Şərqlə müharibə etməyin yerinə işğal etdiyi torpaqlardan çəkilib həqiqi sülh bağlamağı seçsə, bu həm öz vətəndaşlarının, həm də bütün Yaxın Şərq xalqlarının xeyrinə olar. Dolayısılə, Yaxın Şərqi müharibəyə sürükləyən, hətta qlobal “mədəniyyətlər qarşıdurması”nı körükləmək istəyən ateist-sionist zehniyyətə qarşı fikri mübarizə aparmaq İsraildəki 4,5 milyon müsəvinin təhlükəsizliyi üçün vacib məsələdir.

Unutmaq olmaz ki, ateist sionizm bu torpaqlarda yaşayan bütün qeyri-yəhudiləri şiddət və terror vasitələri ilə yurdundan qovmağı, lazım gəldikdə qətliam törətməyi hədəf alır, dindar

musəvilərə ciddi təzyiqlər göstərirlər. İrqçi, şovinist və işğalçı ideologiyaları var. Məlumat əskikliyi və ya yanlış təlimatlar üzündən ateist-sionist ideologiya həm musəvi, həm də xristian dünyasında bəzi şəxslərə təlqin edilmişdir. Radikal fikirlərin təsirində qalanlara böyük yanlışlığa yol verdiklərinin göstərilməsi və doğru olana dəvət edilmələri yer üzündə sülhün hakim olmasını istəyən hər kəsin borcudur. Bunun üçün səmimi olan dindar yəhudilər, vicdanlı xristianlar və müsəlmanlar ittifaq qurmalıdırlar. İnsanların ateist və radikal sionizm adlı sosial darvinist və işğalçı ideologiyadan tez bir zamanda xilas olmaları dünya sülhünün önündəki maneəni qaldıracaq, şiddətə dəstək verənlər barışın müdafiəçisinə çevriləcəklər.

İslam Birliyi təkcə yarım əsrdən bəri acı yaşayan Fələstini deyil, İsraili də xilas edər. İnşa etdiyi nəhəng divarlarla, əslində, özünü həbs edən İsrail İslam Birliyinin ədaləti və sülhsevərliyi ilə düşdüyü müəmmadan çıxacaq, bölgəyə asayiş və təhlükəsizlik hakim olacaq. Bu torpaqlar Osmanlı hakimiyyətində təxminən 400 il boyuna qardaşlığın və dostluğun məkanı olmuşdur. Musəvilər, xristianlar və müsəlmanlar bir arada qardaş kimi yaşayıblar. İstədikləri kimi ibadət edib, istədikləri kimi ticarət işləri ilə məşğul olublar. Keçmişdəki gözəlliyin dövrümüzdə də davam etməsi ancaq İslam Birliyinin qurulması ilə mümkündür.

## ADNAN OKTARIN TASCA MÜSAHİBƏSİ

## (21 NOYABR 2008)

**Adnan Oktar:** İslam Birliyi dediyimiz onsuz da beynəlxalq formadadır. Lakin biz buna qardaşlararası deyək. Qardaşlararası çalışma. Əlbəttə, türk dövlətlərinin hamısı ilə, bütün İslam ölkələri ilə əlaqə saxlamağa çalışırıq. **Amma musəvi və xristianlar da Allahın bizə əmanətləridir.** Mən onlara qarşı dərin şəfqət hiss edirəm və sevgi bəsləyirəm. **Buna görə də mən istəyirəm ki, İslam Birliyində xüsusilə İsrail də olsun. Görsünlər ki, bu birlikdə onlara nə qədər hörmət qoyulur, nə qədər sevgi bəslənilir.** Baxın, musəvilər hz.Musaya neçə min ildir sədaqət göstərirlər. Bu, çox gözəl bir şeydir. Məsələn, xristianlar hz.İsaya iki mindən ildən çoxdur sədaqət göstərirlər. Amma bilmirlər. Fərqində olmaya bilərlər. Quranı anlamamış ola bilərlər. Onları Quranın əleyhində çox qızışdırırlar. Lakin öyrəndikcə bir çox şeyi görməyə başladılar. Məsələn, təslis (üçləmə) inancının mənasız olduğunu anlamağa başladılar. Eyni zamanda musəvilər axirət inancının əhəmiyyətini yaxşı qavramağa başladılar. Tövratda var, amma çıxarıblar. Buna baxmayaraq, Tövratda axirət inancı görünür. Quranın təsiri ilə bu inancı gücləndirməyə başladılar. Bu adamlara Qurandan bəhs edildikcə heç olmasa şirk olan, yanlış olan yönlərini düzəldirlər. Yəni bu da böyük müvəffəqiyyət və gözəllikdir. Uca Allah ayədə buyurur ki, şeytandan Allaha sığınıram, gəlin ortaq kəlməyə gələk– Allahın birliyinə... Buna dəvət edirik, onlar da bizim qardaşımızdır. Onlar da qədim İslam dinidir, təhrif edilib dinləri, amma qədim İslam dinidir və onlar kitab əhlidirlər. **Dolayısilə, ən az müsəlmanlar qədər sevgi və hörmətə, qorunmağa haqqı olan insanlardır. Onlar da asayiş və təhlükəsizlik içində olacaqlar.**

### Yəhudi din adamlarının başlatdığı sülh üçün oruc çağırışı

İraq böhranının başlanğıcından etibarən dünyanın müxtəlif yerlərindən din adamları sülh üçün təşəbbüsdə çıxış etdilər. Bunlardan biri də "Şalom" adlı yəhudi sülh təşkilatının rəhbərlərindən ravvin Vaskovun başlatdığı sülh üçün oruc çağırışı idi. Dünyanın fərqli ölkələrindən fərqli məzhəb və inanclara mənsub onlarla din adamının bu çağırışa qatılması ilə üç İlahi dinin nümayəndələrinin müharibəyə qarşı olduqları bir daha sübut edildi. Çağırışda qısa şəkildə belə vurğulanırdı:

*"Amerikalıları həqiqi sülhü axtarıb dua etmək üçün oruc tutmağa çağırırıq. Bizə sülhü və ədaləti əmr edən, bağışlayan Allahın adı ilə... Allah bizə sülhü axtarmağımızı və sülh üçün çalışmağımızı əmr edir. Böyük narahatlıq hissi ilə görürük ki, İraq hökuməti də, Amerika hakimiyyəti də Allahın bu əmrini əsas hədəf olaraq görmür... Allah bizə qonşularımızı sevməyimizi, əcnəbilərə yaxşı davranmağımızı və özümüz üçün istədiyimizi başqası üçün də istəməyimizi əmr edir... Allah bizdən acları doyurmağımızı, evsizlərə ev tapmağımızı, kasıbları geyindirməyimizi, dünyanın gözəlləşdirməyimizi, ruh və zehinlərimizə azadlıq verməyimizi istəyir... Allah bizə davranmadan öncə düşünməyimizi və dua etməyimizi əmr edir. Əsaslı dəlillər və aşkar sübutlar olmadan başlayan müharibənin başqalarına deyil, öz ailələrimiz də ölüm gətirəcəyini üzülərək qeyd edirik. Bu müharibə inancımızın müqəddəs saydığı bir çox məkanı ehtiva edən bölgəni alt-üst edəcək. Bu böyük təhlükəli zamanda Allaha sığınırıq..."*

**Səddam Hüseynin darvinist ideologiyası**

Səddam Hüseyni iqtidardan salmaq İraq müharibəsinin əsas səbəbi kimi izah olunmuşdu. Şübhəsiz ki, səbəblərdən asılı olmayaraq, məsələnin müharibə yolu ilə həll edilməsi böyük yanlışlıqdır. Belə ki, müharibə əsnasındakı insan itkiləri müharibənin heç başlamamalı olduğuna əsas verir. Lakin digər tərəfdən Səddam Hüseynin də İraqa və bölgəyə zərər verdiyini, buna görə də hakimiyyətdən getməli olduğunu qəbul etmək lazımdır.

Səddam Hüseyn 1960-cı illərdə ərəb dünyasını bürüyən ərəb sosializmi cərəyanının yanlış yola sürüklədiyi insanlardan biridir. Ərəb sosializmi ifrat millətçilik və fanatik üçüncü dünya solçuluğunu birləşdirən və əsasən də Sovet İttifaqından dəstək alan hərəkat idi. Sovet İttifaqının Stalin rejimi və təlimi ərəb sosialistlərinin də ideologiyasına öz damğasını vurmuşdu. Buna görə də aqressiv, qəddar və davakar siyasət inkişaf etdirdilər. Səddam həmin ideologiyanın İraq təmsilçisi olan "BƏƏS" partiyasının aktiv nümayəndəsi idi. Gənclik illərində təşkilatlandırdığı "Cihaz Hanin" adlı terror şəbəkəsinin vasitəsilə BƏƏS-ə qarşı gələnlərə sui-qəsdlər hazırladı. BƏƏS-in 1963-cü ildəki ilk çevrilişindən sonra Səddamın hakimiyyətində "dindirilmə mərkəzi" qurulmuş və burada bir çoxlarına qorxunc işgəncələr verilmişdi. Səddamın yeni işgəncə üsulları təşkil etdiyi hamıya məlum idi.

İnandığı stalinist ideologiyanın təsiri ilə amansız şəxsiyyətə bürünən Səddam Hüseyn iqtidarda olduğu müddət boyu qəddar əməllərə əl atdı. 1980-ci ildə İranı işğal edərək 8 il davam edən qanlı müharibə başlatdı. 10 il sonra bu dəfə Küveyti işğal etdi. Ölkə daxilində də özünə qarşı gələnlərə vəhşi hərəkətlərlə qarşılıq verdi. 1988-ci ildə şimali İraqda Hələbçə şəhərinə kimyəvi silahlarla hücum edərək 5 min nəfərin faciəli şəkildə ölümünə səbəb oldu.

Bütün bunlar Səddamın İraqa başçılıq etmək vəsflərinin olmadığını göstərir. Ölkə başçısı öz xalqına sabitlik, xoşbəxtlik gətirməli, qonşularına və bütün dünyaya asayiş və sülh aşılamalıdır.

Bu gün Səddam hakimiyyətdə deyil, lakin müharibədən sonrakı illərdə qarşıya qoyulan məqsədlər böyük əhəmiyyət daşıyır. Yaxın Şərqdə daimi sülhün inşası üçün Səddamı bir növ canavar kimi göstərmək faydalı deyil. Onu şiddət və amansızlığa yönəldən ideologiya və şərtləri araşdırıb bunları düzəltmək lazımdır. Səddamı qanlı diktator edən tərəfdarı olduğu **radikal BƏƏS ideologiyasıdır, eyni zamanda problemləri güc və hətta şiddət yolu ilə həll edilməsini müdafiə edən faşizm mədəniyyətidir.** Bu ideologiyanın ərəb dünyasından təmizlənməsi üçün və bunun **yerinə İslam əxlaqının tələb etdiyi mərhəmətli, insansevər və mədəni fərdlərin yetişməsi üçün** əhatəli şəkildə təlim-təhsil və aydınlanma siyasəti yürüdülməlidir. Quran əxlaqının tam mənası ilə yaşandığı cəmiyyətlərdə heç vaxt belə problemlər ortaya çıxmaz. Bundan başqa, unutmaq olmaz ki, həmin radikal ideologiya təkcə Bağdadda deyil, dünyanın

başqa yerlərində, hətta bəzən din adından da ortalığa çıxır. Bunun həll yolu isə gerçək din əxlaqının insanlara təsirli formada anladılmasıdır.

**Sabitlik və nizam İslam Birliyi ilə təmin oluna bilər**

İraq müharibəsinin Yaxın Şərqdə iri miqyaslı və uzun müddətli qeyri-sabitliyə səbəb olmaq ehtimalı çox yüksəkdir. Anlaşılan budur ki, İraq müharibəsinin başladığı dövrlərdə Amerika siyasətində təsirli olan bəzi çevrələr bu müharibəni İraqla məhdudlaşdırmayıb bütün Yaxın Şərqi, hətta Qafqaz və cənub-şərqi Asiyanı əhatə edən coğrafiyada yeni nizam qurmağı hədəfə alıblar. Həmin dövrdə Amerikada bəzi yüksək vəzifə tutanlar: “Lazım gələrsə, Amerika 40-50 ölkəyə qarşı hərəkətə keçə bilər”, –deyə ifadə etməklə bu çevrələrin planlarını bir daha ortaya qoyur.[25] PNAC-ın qurucularından Uilyam Kristolun: “Amerika əhalisinin müharibəyə hazır olması hər zaman yaxşıya işarədir”[26] , – sözü də bu anlayışın başqa nümunəsidir. Bütün bunlar, bəlkə də, həmin planı cızanların belə sonunu görməyə ömürlərinin çatmayacağı uzun müddətli müharibədir.

Bu müharibə dünyanı fəlakətə aparmaqla beynəlxalq nizamı alt-üst edər. Təkcə müharibə aparılan ərazilərdəki insanlara deyil, bütün bəşəriyyətə dərin təsir edər. Daha əvvəl də vurğuladığımız kimi, ABŞ və başqa dünya dövlətləri milli dəyərlərini ən yüksək səviyyədə qorumaq hüququna malikdirlər. Bu onlara təhlükəsizliklərini təmin etmək haqqı tanıyır. Ancaq o biri ölkələr kimi, dünyanın yeganə super gücü ABŞ da bu hüququndan elə istifadə etməlidir ki, beynəlxalq nizamı və sülhü qoruyub saxlasın. Ölkələrin milli təhlükəsizlik strategiyalarının beynəlxalq qanunlara uyğun olması özbaşına hərəkətlərə mane olmaq baxımından əhəmiyyət daşıyır. Bundan başqa, terrorizm kimi dünya asayişini təhdid edən ünsür qarşısında çoxtərəfli əməkdaşlıqlar və beynəlxalq ittifaqın təminatı müvəffəqiyyət gətirər. Şiddətə qarşı şiddət göstərilməməli, mülayim və demokratik güclər dəstəklənərək gərginlik azaldılmalı və münaqişələr sakit üslubda həll olunmalıdır. Unutmaq olmaz ki, 21-ci əsrin bütün millətlərin rifah və təhlükəsizliyin təmin olunduğu əsr olması üçün mütəmadi müharibə edərək güclü olanın haqlı və hakim olduğu dünya qurmaq məqsədindən daşınmaq lazımdır.

Zəngin yeraltı qaynaqlardan bütün millətlərin bərabər şəkildə yararlanması, dünya sülhünü təhdid edən ünsürlərin ortadan qaldırılması, iqtisadi sabitliyin təmin edilməsi, demokratik rejimlərin güclənməsi, insan haqları pozuntularının əngəllənməsi, diktatorların zülmlərinə son verməsi, yaşayış keyfiyyətinin yaxşılaşması təkcə ABŞ və qərb dövlətlərinin deyil, eyni zamanda bütün müsəlmanların da tələbidir. Bəzi strateqlər tərəfindən müdafiə edilən və müsəlmanları hədəf alan yanaşmalar bütün İslam dünyasına qarşı cəbhə almaq mənasını daşıyır ki, bu həm yersiz, həm də çox təhlükəli yanaşmadır. Dövrümüzdə dini yanlış şərh edənlər, bəzi xurafat və batil inancların təsiri ilə gerçək din əxlaqından tamamilə uzaqlaşıb radikal davrananlar təkcə İslam dünyasında deyil, xristian və yəhudi aləmində də mövcuddur və dünya barışına böyük zərər verirlər. Bu zərərin, həmçinin bütün radikal cərəyanların önünü kəsmək mədəni və səmimi dindar insanların ittifaqı ilə mümkündür. Beləliklə, müharibəni yeganə həll yolu kimi görənlərin, təhlükəsizliyin ancaq müharibə ilə təmin olunduğunu düşünənlərin təlqini təsirsiz hala gətirilər və daha çox qan və göz yaşının axmasına və maddi itkilərə səbəb olan hərəkətlər əngəllənmiş olar.

Bu ittifaqın qurulması üçün qərblilər bütün ön mühakimələrini bir tərəfə qoyub İslam dünyasını daha yaxından tanımalı, müsəlmanlar da birlik qurub İslam dünyasının inkişafı üçün ortaq siyasət yürütməyə başlamalıdırlar. Hər iki tərəfin mədəniyyət və təhsil proqramları vasitəsilə qarşılıqlı yanlış anlaşılma problemi həll oluna bilər. Radikalizm, əslində, cəhalətdən qaynaqlanır. Bu təlim proqramları ilə Qərb dünyasının İslamı doğru-düzgün tanımaları təmin edilərkən, İslam dünyasındakı bəzi batil inanc və xurafatlar ortadan qaldırılar, bunun nəticəsində

qarşılıqlı şəfqət meydana gələr. Şəfqət sülh və asayişin əsas düşməni olan kin və nifrəti yox etməklə sülh içində bir yerdə yaşamaq mədəniyyətinin inşa edilməsini təmin edər. Bunun sayəsində mədəniyyətlər qarşıdurmasını irəli sürənlərin iddialarının tam əksinə, mədəniyyətlərarası sülh yaşanar. Beləliklə də, insanlar mədəni sahələrdə bir-birilərindən yeni şeylər öyrənər, bu da öz növbəsində sosial inkişafa təkan verər.

Tarixdə yunanlar babilistanlılardan, finikiyalılar misirlilərdən, ərəblər yunanlardan, farslar orta asiyalılardan, bizanslılar ərəblərdən, qərbi avropalılar da ərəb və bizanslılardan təsirlənərək irəliləyiblər. Buna bənzər şəkildə, dövrümüzdə də mədəniyyətlər arasında əlaqələr qurularsa, bu, mənəvi zənginlik və inkişafın başlanmasına şərait yaradar.

Bu gün şəfqət mədəniyyətinin inkişafına qərbdə olduğu qədər İslam dünyasında da ehtiyac duyulduğu görünür. Zaman ərzində bəzi müsəlmanlar Quran əxlaqına və Peyğəmbərimizin (səv) sünnəsinə tamamilə zidd olduğuna baxmayaraq, digər din və millətlərdən insanlara pis davranmağı aşılayan mövhumatçı düşüncələrin təsirində qalırlar. Halbuki başda Peyğəmbərimizin (səv) dövrü olmaqla, tarix boyu İslam cəmiyyətləri ədalət və şəfqətin mərkəzi olublar. Keçən 1400 ilin tarixi digər ölkələrdə zülm görən xristian və yəhudilərin müsəlmanların mərhəmətinə sığınmalarının nümunələri ilə doludur. Buna görə də müsəlmanlar sülhə ən çox ehtiyac duyulan bu dövrdə Quranda əmr edilən əxlaqı və mübarək Peyğəmbərimizin (səv) həyatını əsas alaraq bütün dünya üçün nümunəvi model inkişaf etdirməlidirlər. Bu model İslam dünyasını öz dəyərləri əsasında nizama salıb inkişaf etdirəcək. Daha İslam coğrafiyasına sabitlik və demokratiya gətirmək iddiasında olan əcnəbilərin düşüncələrinə gərək qalmayacaq. Buna isə qurulacaq İslam Birliyi öndərlik edəcək.

## CƏNAB ADNAN OKTARIN "THE GULF TODAY" QƏZETİNƏ MÜSAHİBƏSİ

## (2 NOYABR, 2008)

**Adnan Oktar:** Musəvilər peyğəmbər soyudur. Bizim öz peyğəmbərlərimizin nəvələridir. Hz.Musanın şəriətinə tabedirlər. Həmin şəriəti, yəni o dini indiyə qədər yaşayaraq davam etdiriblər. Dolayısilə, peyğəmbər soyundan olan o tərtəmiz insanları dövlətsiz qoymaq, millətsiz hala gətirməyə çalışmaq, torpaqlarından qovmaq, onlara yaşamaq hüququ verməmək ağıllı və vicdanlı hərəkət deyil. **Müsəlman şəfqətli və mərhəmətlidir. Əlbəttə, onlar da bizim qardaşlarımızdır, yaşamaq haqları vardır.** Birinci sinif insanlardır, o bölgədə istədikləri kimi yaşamalıdırlar. Ticarətlə məşğul olsunlar, elm və sənətlə məşğul olsunlar. Yəni nə üçün onlar oradan qovulsun və niyə narahat yaşasınlar? Yaxud da sakit həyat haqları əllərindən alınsın? Bunu heç bir düşüncəli insan etməz, mən də qəbul etmirəm. Əlbəttə, xoşbəxt olsunlar, həyat zəmanətləri olsun. **İslam Birliyində bolluq və bərəkət içində yaşayacaqlar. Quranın hökmü açıqdır, Peyğəmbərimizin (səv) sünnəsi ortadadır. Peyğəmbərimizin dövründə kitab əhli çox rahat yaşayırdı, bəni-İsrail çox rahat yaşayırdı. O zaman onlar Qüdsdə yaşayırdılar, İsrail bölgəsində yaşayırdılar. Xoşbəxt idilər, Peyğəmbərimiz (səv) onlara qarşı çox şəfqətli davranırdı.** Musəvilərdən qız almaq olar, onlarla evlənmək olar. Onların kəsdiyini yemək olar, süfrələrində oturmaq, evlərinə getmək olar. Bunlar Peyğəmbərimizin (səv) dövründə olmuşdur. Eyni şey xristianlara da aiddir. Bilirsiniz, Peyğəmbərimizin (səv) xanımlarından biri xristian idi. Hansı ki bizim anamızdır, yəni hörmət və sevgi ilə andığımız mübarək insandır. Bunu təkcə musəvilər üçün demirəm, **eyni zamanda xristianlara da aiddir.**

### Peyğəmbərimizin (səv) kitab əhlinə qarşı davranışı bütün müsəlmanlara nümunə olmalıdır

Allah Quranda yəhudiləri və xristianları kitab əhli adlandırmış, müsəlmanların onlara qarşı münasibətinin necə olmasını detalları ilə bildirmişdir. İslamiyyətin zühurundan etibarən müsəlmanlarla kitab əhli arasında şəfqət və anlayış ön planda olmuşdur. Kitab əhli – hər nə qədər kitabları və bəzi inancları sonradan təhrif edilsə də – əsası uca Allahın vəhyinə dayanan bir çox əxlaqi dəyərə, haram və halal anlayışlarına sahibdir. Quranda müsəlmanlarla kitab əhli arasında hörmətə dayanan mədəni əlaqələrin qurulmasına təşviq edilir. Kitab əhlinin yeməyi müsəlmanlara, müsəlmanların da yeməyi onlara halaldır. Müsəlman kişilər kitab əhlindən olan qadınlarla evlənə bilərlər (Maidə surəsi, 5). Bu hökmlər müsəlmanlarla kitab əhli arasında yaxın qonşuluq əlaqələrinin və qohumluq bağlarının təsis edilə biləcəyini, hər iki tərəfin yemək dəvətlərini qəbul edə biləcəyini göstərir.

Müsəlmanlar üçün hər mövzuda olduğu kimi, bu mövzuda da ən gözəl nümunə Peyğəmbərimizdir. Hz.Muhəmməd yəhudi və xristianlara qarşı çox ədalətli və mərhəmətli davranmış, İlahi dinlərin mənsubları ilə müsəlmanlar arasında sevgiyə dayanan mühitin qurulmasını istəmişdir. Peyğəmbərimizin (səv) zamanında və ondan sonrakı dövrlərdə kitab əhlinin öz dinlərini istədikləri kimi yaşamaqlarına izin verəcək və camaat olaraq varlıqlarını davam etdirmələrini təmin edəcək müqavilələr bağlanmış və onlara təminat verilmişdir. İslamın ilk illərində məkkəli müşriklərin əziyyət və təzyiqlərinə məruz qalan müsəlmanların bir qismi Peyğəmbərimizin (səv) nəsihəti ilə Efiopiyanın xristian kralı Nəcaşiyə sığınmışdılar. Peyğəmbərimizlə (səv) birlikdə Mədinəyə hicrət edən möminlər isə Mədinədə yaşayan yəhudilərlə sonradan gələn bütün nəsillərə nümunə təşkil edən ortaq mühitdə yaşamaq modeli inkişaf etdirmişdilər. İslamın yayılması dövründə də Ərəbistandakı yəhudi və xristian topluluqlarına göstərilən tolerantlıq müsəlmanların kitab əhlinə qarşı şəfqət və ədalətinin əhəmiyyətli nümunəsi olaraq tarixə keçmişdir.

Məsələn, Peyğəmbərimiz (səv) xristian İbn Harris bin Kab və dindaşlarına yazdırdığı müqavilə mətnində “Şərqdə və qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, namusları və malları Allahın, Peyğəmbərin və bütün möminlərin himayəsindədir. Xristianlıq dinində olanlardan heç kim İslamı qəbul etmək üçün məcbur edilə bilməz. Xristianlardan kimsə hər hansı cinayət və ya haqsızlığa məruz qalarsa, müsəlmanlar ona yardım etmək məcburiyyətindədirlər” maddələrini əlavə etdikdən sonra aşağıdakı ayəni oxumuşdur:[27]

**... Kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: “Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudumuz birdir. Biz yalnız Ona itaət edirik”. (Ənkəbut surəsi, 46)**

Rəsulullahın (səv) kitab əhlinin toy məclislərinə qatıldığına, xəstələrini ziyarət etdiyinə və onlara hədiyyə verdiyinə dair rəvayətlər mövcuddur. Hətta Nəcran xristianları ziyarətə gələndə hz.Muhəmməd əbasını sərib onların oturmasını istəmişdir. Peyğəmbərimizin (səv) misirli xristian Mariyə (rə) ilə evlənməsi də bu anlayışın nümunələrindən biridir. Peyğəmbərimizin (səv) vəfatından sonra da müsəlmanların kitab əhlinə qarşı göstərdikləri gözəl əxlaq hz.Muhəmmədin (səv) şəfqətinə əsaslanır.

### Müsəlmanlar kitab əhlinə qarşı şəfqətli və ədalətli olublar

Xristianlıq Fələstin torpaqlarında doğulmuş, lakin dövrün qəddar hakimiyyətləri ucbatından daha çox bugünkü Suriya və İraq bölgəsində yayılmışdı. Peyğəmbərimizin (səv) İslamı təbliğ etməyə başladığı dövrlərdə Ərəbistan yarımadasının cənubunda da müxtəlif yəhudi və xristian qəbilələri var idi. Dolayısilə, İslamın zühurundan etibarən müsəlmanlar yəhudi və xristianlarla daim əlaqədə oldular.

İslamın yayılıb güclənməsi ilə yanaşı, bölgədə yaşayan kitab əhli müsəlmanların idarəsi altına girdi. Bu dövrdə kitab əhli ilə müsəlmanlar arasında anlayış və şəfqətə əsaslanan quruluş davam etdi. Peyğəmbərimizin (səv) dövründə xristian və yəhudi qəbilələri ilə müxtəlif müqavilələr bağlanmış, bu topluluqlara öz varlıqlarını və haqlarını təminat altına alan müxtəlif sənədlər (amannamələr) verilmişdir. Xristian qəbilələrdən cerbalı və ərzuhlulara verilən həmin təhlükəsizlik sənədləri bunun nümunələrindən biridir. Bu sənədlər müsəlmanların idarəsinə daxil olan və ya İslamın hakimiyyətini tanıyan kitab əhlinin hüquqi, dini və sosial haqlarını zəmanətə götürürdü. Hər hansı problem ortaya çıxdıqda bu sənədlər əsasında hərəkət edirdilər. Məsələn, tarixi bilgilərə görə, dəməşqli xristianlar bir dəfə problemlə qarşılaşmış, onlara verilən müqavilə sənədini dövrün xəlifəsi hz.Ömərə təqdim etməklə öz haqlarını tələb etmişdilər.[28]

Bu nümunədə olduğu kimi, hz.Muhəmmədin vəfatından sonra onun yerinə gələn xəlifələr də Peyğəmbərimiz (səv) kimi Allahın ədalətini yerinə gətirmək mövzusunda həssas davranmışdılar. Fəth edilən ölkələrdə həm oranın yerli xalqı, həm də yeni gələnlər sülh və təhlükəsizlik içində yaşamışdılar. İlk xəlifə hz.Əbubəkrin Suriya səfəri əsnasında verdiyi bir təlimat Quran əxlaqının bir nümunəsini təşkil edir:

*"Ey insanlar, ürəkdən əməl edəcəyiniz on qayda təyin edirəm: xəyanət etməyin və haqq yoldan ayrılmayın. Uşaqları, qadınları və yaşlıları öldürməyin. Xurma ağaclarını məhv etməyin və başqa meyvə ağaclarına da toxunmayın. Dəvələrdən, sürülərdən heç bir heyvanı öldürməyin, özünüz üçün saxlayın. Həyatını axirətə həsr edən adamlarla qarşılaşacaqsınız, onlarla da işiniz olmasın. Fərqli yeməklərə dəvət edən insanlarla qarşılaşacaqsınız; yeyin-için, fəqət Allahın adını anmağı unutmayın".*[29]

İslamın sürətlə yayılması, qısa müddət ərzində xristianların sıx yaşadığı və Bizans İmperiyasının iki əhəmiyyətli əyaləti olan Suriya və Misirin, həmçinin Sasanilərin hakimiyyətindəki İraqın müsəlmanların idarəsinə keçməsini təmin etdi. Bu dövr kitab əhlinin müsəlmanların ədalətinə və mərhəmətinə daha yaxından şahid olduqları dövr idi. İslamın hakimiyyətinə girən heç bir bölgədə kitab əhlinə din dəyişdirməyi və ya adət-ənənələri bir kənara qoymağı deyən olmadı və bu barədə heç kimə təzyiq də edilmədi. Belə ki, Romanın katolik və ya Bizansın ortodoks kilsələri tərəfindən əsrlərlə təzyiq altında saxlanan xristian məzhəbləri müsəlman fəthlərini qurtuluş kimi görürdülər və müsəlmanların hakimiyyətində olmağa üstünlük verirdilər. Qərbli tarixçi Filip K. Hittiyə görə:

*"İslamın hakimiyyətində Şərq min illər boyu davam edən Qərb hakimiyyətindən oyandı və özünü ifadə etmək imkanı tapdı. Bundan başqa, bu yeni fatehlər (müsəlmanlar) tərəfindən istənilən vergi keçmişdəkilərin istədiklərindən çox az idi və fəth edilən xalqlar dini ayinlərini daha sərbəst şəkildə yerinə yetirməyə başladılar".*[30]

Xristianlıq tarixi üzrə tədqiqatçı Samuel H.Moffetə görə isə:

*"İlk xəlifələrin zamanında və daxili çəkişmələrin davam etdiyi qarışıq dövrlərdə belə hər hansı müharibədəki fövqəladə durumlardan başqa, (müsəlmanlar tərəfindən) fəth edilən Bizans və fars torpaqlarında yaşayan xristianlara xoş münasibət bəslənirdi."*[31]

İslam hakimiyyətindəki kitab əhlinin sosial və dini həyatı tədqiq olunduqda ortaya bu mənzərə çıxır:

İslam torpaqlarında tam mənada inanc azadlığı var idi. Heç kim dinini tərk etməyə məcbur edilmirdi, eyni zamanda bu topluluqlardan üsyan edənlərə yenidən hakimiyyət altına alındıqlarında belə eyni hürriyyət tanınırdı. İslam hakimiyyəti patriarx seçimləri, dini öndərlərin təyin edilməsi kimi əhəmiyyətli məsələlərdə belə – bir neçə istisnadan başqa – müdaxilə etməmiş, üstəlik, buna dair müxtəlif müqavilələr bağlanmışdı. Həmin topluluqlar öz dillərindən həm özəl

həyatlarında, həm də ibadətlərində istədikləri kimi istifadə edirdilər. Məsələn, Bizans kilsəsindən ayrılan nəsturilər öz istəkləri ilə yunan dilindən imtina edib assur dilini seçmişdilər. Bununla yanaşı, monastırlar başda olmaqla, xüsusi dini təhsil verən qurumlar da öz muxtar quruluşlarını qoruyub saxlamışdılar. Eyni şəkildə, müsəlman idarəçilər digər dinlərə mənsub ibadətxanaları həssaslıqla qorumuşdular. Fəthlər zamanı ibadət yerlərinə toxunmamışdılar. Peyğəmbərimizdən (səv) etibarən sinaqoq və kilsələrin qorunacağına dair verilən təminatlar kitab əhli ilə bağlanan müqavilələrin əsas hökmləri idi. İlk dövrlərdə bağlanan müqavilələrdə maddə halında o da göstərilirdi ki, müsəlmanlar səyahət zamanı yolüstü monastırlarda qalıb dincələ bilərdilər. Bu da müsəlmanların kitab əhli ilə münasibətlərini qarşılıqlı hörmət əsasında davam etdirdiklərinə dair işarədir. Bundan başqa, dağılan kilsələrin bərpasına, yeni sinaqoq və monastırların inşa edilməsinə də həmişə izin verilmişdir. Məsələn, Mədainin kənarında yerləşən və Patriarx Mar Amme tərəfindən yandırılan "Sergius" monastırı hz.Ömərin dövründə yenidən inşa edilmişdir. Buna Misir valisi Ükbənin nəsturilərin tikdiyi monastıra köməklik göstərməsi, Müaviyə dövründəki Urfa kilsəsinin təmiri, İsgəndəriyyədəki "Marcos" kilsəsinin inşası kimi bir çox nümunə sayıla bilər. Dövrümüzdə Fələstin, Suriya, İordaniya, Misir və İraq torpaqlarında yerləşən kilsə və sinaqoqların hələ də varlığını qoruyub saxlaması müsəlmanların digər dinlərə olan hörmətinin bir göstəricisidir. Bu gün xristianlar tərəfindən əhəmiyyətli ziyarət məkanlarından biri kimi qəbul edilən Tur dağındakı Sina monastırı və bu kilsənin düz yanındakı məscid müsəlmanların şəfqətinin başqa nümunəsidir.

Müsəlmanların bu şəfqəti, heç şübhəsiz, Quran əxlaqına əsaslanır. Quranda monastır, kilsə və sinaqoqlardan bəhs edilir, bu ibadət yerlərinin qorunmasına diqqət çəkilir. Ayədə belə xəbər verilir:

**... Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, məbədlər və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər... (Həcc surəsi, 40)**

Kitab əhli adət və inanclarının önəmli hissəsi sayılan bayramlarını da müsəlmanların hakimiyyətində istədikləri şəkildə və istədikləri məbəddə qeyd etmiş, hətta bəzən müsəlman idarəçilər də onlara qatılmışdılar. III Nəsturi patriarxının fəthlərdən sonra dostuna yazdığı məktub müsəlman idarəçilərin kitab əhlinə qarşı mərhəmətini və şəfqətini bir xristianın anlatması baxımından gözəl nümunədir:

*"Ərəblər... bizə heç zülm etmədilər. Həqiqətən də, onlar dinimizə, din böyüklərimizə, kilsə və monastırlarımıza hörmətlə yanaşdılar..."*

İslam liderləri həm kitab əhlinin dini inanclarına hörmət edir, həm onlara azadlıq verir, həm də onlara qarşı çox ədalətli davranırdılar. Müsəlman liderlərin ədalət anlayışı elə idi ki, kitab əhlinin öz məhkəmələri olsa da, onların bir çoxu hüquqi məsələlərdə İslam məhkəmələrinə üz tuturdular. İslam məhkəmələrinə üz tutanların sayı o həddə çatmışdı ki, Nəsturi patriarxı Timoti xristianları xəbərdar etmək məcburiyyətində qalmışdı. Fəth edilən ərazilərdə yaşayan kitab əhli əsir sayılmırdılar, onlara "zimmi" adı verilmişdi. Bununla da hüquqi status qazanmışdılar. Zimmilik cizyə adı verilən müəyyən miqdar vergi ödəyən və müsəlman idarəsini tanıyan qeyri-müsəlmanlara verilən status idi. Buna bağlı olaraq can və mal güvənlikləri təmin edilir, din və vicdan azadlığından faydalanırdılar. Eyni zamanda əsgərlikdən də azad idilər. Bundan başqa, aralarındakı problemləri öz qanunları əsasında həll edirdilər, hətta lazım gəldikdə ödədikləri cizyə də geri qaytarılırdı. Tarixçilərin böyük qismi zimmilərin dövrün şərtlərinə görə çox ədalətli şəkildə idarə olunduqlarını qəbul edirlər. Məşhur tarixçi Bernard Luis bu barədə belə deyir:

*"...Onların (zimmilərin) vəziyyəti qərbi Avropada kilsədən ayrı düşünənlərin vəziyyətindən çox yaxşı idi. Zimmilər dinlərini sərbəst şəkildə yaşamaq haqqına sahib idilər. İnanclarından dolayı əsla sürgün və ya edam cəzasına məruz qalmırdılar."*[32]

Peyğəmbərimiz (səv): **"Hər kim zimmiyə zülm edib ona daşıya bilmədiyi yük yükləyərsə, onun düşməniyəm",** – deyərək zimmilərə qarşı necə davranmaq lazım olduğunu möminlərə bildirmişdir. Müsəlmanlar bu əxlaqa uyğun olaraq öz hakimiyyətində olan qeyri-müsəlmanların qorunmasını özlərinə borc bilmişdilər. Bizans ordusuna qarşı aparılan bir müharibədə İslam ordularının onları lazımi kimi qoruya bilmədiyi vəziyyət yarandıqda müsəlmanların aldıqları cizyəni xalqa geri qaytarmağı Peyğəmbərimizin (səv) öyrətdiyi gözəl əxlaq nümunələrindən biridir.[33] Müsəlmanların zimmi xalqa göstərdikləri şəfqətin başqa bir nümunəsi də hz.Ömərin yaşlı bir zimmiyə söylədiyi: "Gəncliyində səndən cizyə alıb qoca vaxtında səni tərk etmək olmaz", – sözləridir.[34] Qeyri-müsəlmanlardan cizyə alıb müsəlmanlardan almamaq haqsızlıq kimi qəbul edilməməlidir. Çünki müsəlmanların əsgərlik vəzifəsi var idi, amma qeyri-müsəlmanlar bundan azad idilər.

Müsəlmanlarla yəhudilər və xristianlar əsrlər boyu eyni şəhərlərdə, hətta eyni məhəllələrdə güvənlik içində yaşayıblar. Kitab əhli mənsubları müsəlmanların hakimiyyəti altında olan torpaqlarda istədikləri kimi ticarətlə məşğul olmuş, müxtəlif peşələrə yiyələnməklə dövlət rəhbərliyində, hətta sarayda belə vəzifə tutmuşdular. Fikir azadlığı, elm və mədəniyyət həyatlarının bir parçası idi və dövrümüzə qədər gəlib çatan əsərlərin müəllifi olublar. Sosial haqlarından istifadə etmək üçün onlara heç bir maneə yaradılmamışdı. Eyni dövrlərdə Avropada fərqli din və məzhəblərə mənsub şəxslərin cəmiyyətdən tamamilə təcrid olunduqları, hətta öldürüldükləri, həmçinin fərqli fikirlər ehtiva edən kitabların kütləvi şəkildə yandırıldığı göz önündə tutularsa, İslam hakimiyyətinin təmin etdiyi azadlıq və rahatlıq daha yaxşı anlaşılar.

Bütün bunlar Allahın Quranda iman edənlərə əmr etdiyi əxlaqın tələbidir. Quran əxlaqını tətbiq edən müsəlmanların hakimiyyəti altındakı torpaqlara daim təhlükəsizlik və sülh hakim olmuşdur. Xalqın xoşbəxtliyinin və rifahının əsas alındığı bu sistemlər quruluşu ilə özlərindən sonra gələn bir çox nəslə nümunə təşkil ediblər. Həmçinin bu gün İslam dünyasının əsas ehtiyacı Quran əxlaqına yönəlmək və Peyğəmbərimizin (səv) yolunu izləməkdir.

Bütün tarixi həqiqətlər əhəmiyyətli mövzuya işarə verir: İslam dünyasının Quran əxlaqını əsas alaraq yenidən formalaşması təkcə müsəlmanlar üçün deyil, həm bu torpaqlarda yaşayan digər dinlərə mənsub cəmiyyətlərə, həm də İslam dünyasından kənar mədəniyyətlərə, məsələn Qərb dünyasına faydalıdır.

Quran əxlaqını əsas alan güclü dövlətlərin varlığı Qərb dünyasının İslam coğrafiyasına dair narahatlıqlarını tamamilə ortadan qaldırar, dünya sülhünün təməl əsaslarından biri olar.

## CƏNAB ADNAN OKTARIN "AKHABER" SAYTINA MÜSAHİBƏSİ

## (2 NOYABR 2008)

**Adnan Oktar:** Bizim bəhs etdiyimiz İslam Birliyi sevgiyə əsaslanır, irqçilikdən və böyüklük iddiasından uzaqdır. Böyük olan Allahdır, biz quluq. **Bu, bütün millətləri sevən, onları qoruyub saxlayan, xristianlara və musəvilərə qucaq açan, onları İslam Birliyinə daxil etmək üçün can atan düşüncədir.** İsrailin də İslam Birliyinə girməsini istəyirik. Bizim kəraim yəhudilərindən çoxlu türk qardaşımız var. Heç türk olmasalar belə, hz.Musanın, hz.İbrahimin övladlarıdır, yəni peyğəmbər nəslidirlər. Biz onların alınlarından öpürük. Yetər ki, halal-harama diqqət etsinlər, peyğəmbərlərə, mələklərə hörmətləri davam etsin. Elə olandan sonra onsuz da elə bir fərqliliyimiz yoxdur, inşaAllah.

## CƏNAB ADNAN OKTARIN “AZERNEWS” SAYTINA MÜSAHİBƏSİ

## (23 OKTYABR 2008)

**Adnan Oktar: Müsəlmanların arasında xristianlar və musəvilər də qardaş kimi qəbul edilir. Yəni onlara kitab əhli gözü ilə baxırıq, sevgi ilə yanaşırıq. Onlar İslam Birliyinin bir hissəsidir.** Məsələn, İsrail də İslam Birliyinin bir parçasıdır. Çünki musəvi dini də qədim İslam dinidir, əlbəttə, İslam gəlincə əsil din İslam olmuşdur, o hökmü qalxmış olur. Yəni əsas din İslam olmuş olur. İndi Peyğəmbərimizin (səv) gətirdiyi din əsasdır. Lakin onların o şəriətə tabe olmasını, o dinə tabe olmasını Quran qəbul edir. Allah kitab əhlinin olacağını deyir. Onları İslama çağırırıq, lakin müsəlman olmasalar da, kitab əhlidirlər. Yəni hökm baxımından. Çünki hz.Musanın şəriətinə sədaqət göstərib buna davam edirlər. Xristianlar da hz.İsanın dininə sədaqət göstərirlər. Ona bağlı şəkildə də onun ümməti kimi davam edirlər. Biz bunlara kitab əhli deyirik. Müsəlmanlar onlarla evlənə bilər, qızlarını ala bilər. Yeməkləri, kəsdikləri yeyilər bilər. Məsələn, musəvilərin kəsdikləri əti yeyə bilərsən. Onlara qonaq gedə, söhbət edə bilərsən. Evində də qala bilərsən. O da sənin evinə gələ bilər. **Bu, nə deməkdir? Yaxın dostluq və qardaşlıq deməkdir. Əgər bir insan evlənirsə, onu evlənib evinə gətirirsə, həyat yoldaşı deyilmi? Bu, çox möhkəm dostluq və qardaşlıq bağıdır. Xristianlar da İslam Birliyinin bir hissəsidir. İstəyən İslam Birliyinə girə bilər. Dəvət edilər, istəyərsə, rahat şəkildə girər. Yəni bu, sevinc hissi ilə qəbul edilər.**

## İSLAM BİRLİYİNİN QƏRB DÜNYASINA FAYDASI

Müsəlman ölkələr arasında qurulan siyasi və iqtisadi əməkdaşlığın İslam dünyasında təmin etdiyi sabitlik Qərbin müsəlmanlarla yaxın münasibətinə vasitəçilik edəcək. İslam Birliyinin qurulması ilə, ilk öncə, öz daxili problemlərini həll edən müsəlman ölkələri xarici dünya ilə münasibətlərində müvazinətli siyasət yürüdəcək.

İstər müsəlman ölkələri arasındakı problemlər, istərsə də müsəlmanlarla əcnəbilər arasındakı gərginliklər İslam Birliyinin varlığı sayəsində sülh yönlü şəkildə ortadan qaldırılacaq.

### Münaqişələrin Amerika cəmiyyətinə mənfi təsiri

İslam və Qərb dünyası arasında yaradılan süni gərginliyin və körüklənən mədəniyyətlər qarşıdurması ssenarisinin həm İslam dünyasına, həm də Qərb cəmiyyətlərinə böyük zərərləri vardır. Kütlələr buna görə davamlı qorxu və narahatlıq hissi keçirirlər. Bu vəziyyət xüsusilə 11 sentyabr hücumlarından sonra Amerikada xüsusi diqqət çəkmişdir. Amerika əhalisinin əhəmiyyətli hissəsi müəyyən media vasitələrinin gündəlikdə saxladığı **“hər an hücuma məruz qala bilərik”** təlqini üzündən psixoloji problemlər yaşayırlar. Dr. Uilyam E. Şelenger tərəfindən aparılan araşdırmada və “Amerika Təbiblər Birliyi” adlı jurnalda (Journal of the American Medical Association) yayımlanan bir məqalədə göstərilən rəqəmlər bu baxımdan diqqəti çox cəlb edir. 11 sentyabr hücumlarının Amerikada yaratdığı təsiri təsbit etmək üçün aparılan təcrübəyə Vaşinqtondan və Nyu-Yorkdan 2273 nəfər qatılmış, həmin şəxslər üzərindəki tədqiqatlar bunu ortaya qoymuşdur: travmadan sonra əsəb pozğunluğu olaraq adlandırılan psixoloji narahatlıq hücumlardan əvvəl ölkə miqyasında 4,3% ikən, hücumlardan sonra təkcə Nyu-Yorkda 11,2 faizə yüksəlmişdir. Vaşinqtonda da eyni göstəricilər müşahidə edilmişdir. Bundan başqa, tədqiqatçılar televiziya xəbərlərinin də bu rəqəmlərə təsir etdiyini sübut ediblər.[35] Bu rəqəmlər gərginlik və

münaqişənin insan ruhuna göstərdiyi mənfi təsirin yalnız bir nümunəsidir. Gərginliyi artırmağın və xalqı narahatlığa daha da sövq etməyin nə qədər təhlükəli olduğu açıq şəkildə görünür.

Amerika hökumətinin həmin narahatlıqları ortadan qaldırıb ölkəni potensial hücumlara qarşı qorumaq üçün lazımi tədbirlər alması, əlbəttə, əhəmiyyətlidir. Lakin bunu edərkən əl atılan üsul xalqı daha da gərginliyə salmamalıdır, mediada davamlı şəkildə təhlükə var imiş kimi xəbərlərə yol verilməməlidir. Aparılan siyasət sükunət təlqin etməli, yalnız sülh yolu izlənilməlidir.

Amerika hökumətinin və xalqının narahatlıqlarının ortadan tamamilə qaldırılmasının ən əhəmiyyətli yolu isə İslam Birliyinin qurulmasıdır. İslam Birliyi bu qorxunu və narahatlığı ortadan qaldıracaq. Bu birliyin qurulması ilə İslam adından xətalı hökmlər verib terroru qanuniləşdirməyə çalışan şəxs və qruplaşmaların əməllərinə son veriləcək. Onların ortaya qoyduğu xətalı dini izahların əsassız olduğu açıqlanacaq, müsəlman kütlələr bu yolla yanlış yollara sürüklənməkdən qorunacaq. Bunun sayəsində bəzi çevrələrin İslama uyğun olmayan təbliğatı da zamanla əsaslığını itirib yox olacaq. Sevgi və sülhdən yana olanların dialoq və yaxın münasibətləri üçün uyğun zəmin yaranacaq, beləliklə, bu istiqamətdə aparılan siyasətə daha da ağırlıq veriləcək.

### Qərbin öz daxilində bölünmə təhlükəsi

11 sentyabrdan sonra ABŞ-ın apardığı siyasət, xüsusilə İraq müharibəsi Qərb dünyasının öz daxilində də mübahisələrə və bölünməyə səbəb olmuşdur. ABŞ-da müharibəyə qarşı çıxanlarla müharibə tərəfdarları arasında çox ciddi qütbləşmə meydana gəlmiş və tərəflər “vətən xaini” və ya “barbar” kimi sözlərlə bir-birilərini ittiham etmişdilər. Müharibəyə doğru davam edən prosesdə və müharibə boyunca Birləşmiş Millətlər Təşkilatında və Avropa Birliyində də fikir ayrılıqları baş vermiş və bəzi şərhçilər Qərb birliyinin dağılmağa doğru getdiyini söyləmişdilər. Dünyanın bir çox ölkəsində milyonlarla insanın iştirakı ilə təşkil olunan mitinqlərdə bu müharibəyə qarşı haqlı reaksiyalar verilmişdi.

Halbuki bu, hələ ən əvvəldən əngəllənə bilərdi. Güclü İslam Birliyinin mövcudluğu Amerika və İngiltərə başda olmaqla, Qərbin kütləvi qırğın silahlarının yox edilməsi, terrora dəstək verilməməsi kimi qanuni tələblərinin ən sürətli şəkildə yerinə yetirilməsini təmin edən ünsür olardı. İslam Birliyi belə mövzularda qısa müddətdə nəticə alardı və bəlkə də, bu müharibə başlamadan mövcud problem sona çatardı.

### İfrat müdafiə xərcləri

Dünya ölkələrinin büdcələri araşdırıldıqda müəyyən olur ki, bir çox ölkədə ən böyük pay hərbi müdafiə xərclərinə yönəldilir. 20-ci əsr boyu böyük-kiçik təxminən 250 müharibə baş vermiş, bu müharibələrdə haradasa 110 milyon nəfər həyatını itirmişdir. 20-ci əsrin hələ əvvəlində başlayan Birinci Dünya Müharibəsinə 20 ölkə qatılmış, 10 milyona yaxın adam ölmüş, müharibə təkcə cəbhədə deyil, yaşayış məntəqələrində də dağıntılara səbəb olmuşdur. Tarixin ən böyük müharibəsi olan İkinci Dünya Müharibəsinə isə 110 milyon əsgər qatılmış, onların 27 milyonu cəbhədə ölmüşdür. Eyni zamanda mülki əhalidən isə 25 milyon insan həyatını itirmişdir. Müharibə Atlantik okeanından Sakit okeanına qədər geniş bir ərazidə onlarla ölkəni dağıntılar altında buraxmışdır. Məsələn, Almaniyada 1,5 milyon ev uçmuş, 7,5 milyon insan evsiz qalmışdır. Rusiyada isə 6 milyon ev uçmuş, 1700-ə qədər şəhər və qəsəbə, həmçinin 70 min kənd tamamilə dağılmışdır.[36] Təkcə 1990-2000-ci illərdə dünyanın 4 fərqli bölgəsində 56 silahlı münaqişə və müharibə yaşanmışdır.

Qısası, geridə qoyduğumuz əsr qanlı dövr kimi bitdi. Belə ki, bu itkilər bəşəriyyəti sülhə yönəltməkdən çox, hərbi müdafiə xərclərinin daha da artırılmasına səbəb oldu.

20-ci əsrdə baş verən müharibələrdə çəkilən xərclər də olduqca çox idi: Birinci Dünya Müharibəsi 2 trilyon 850 milyard dollar, İkinci Dünya Müharibəsi 4 trilyon dollar, Koreya müharibəsi 340 milyard dollar, Süveyş müharibəsi 13 milyard dollar, Vyetnam müharibəsi 720 milyard dollar, İsrail-Ərəb müharibələri 21 milyard dollar, Əfqanıstan müharibəsi (1979-89) 116 milyard dollar, İran-İraq müharibəsi isə 150 milyard dollara başa gəldi.[37]

Bu əsr boyu silahlanmağa ayrılan büdcə də gün keçdikcə böyüməyə davam edib. 2002-ci ildə yayımlanan məruzə dünya ölkələrinin hərbi büdcəsinin təqribən 1 trilyon dollar olduğunu göstərir. Bunun müqabilində 1,2 milyard insan hələ də gündəlik 1 dollardan az gəlirə sahibdir. 113 milyon uşağın məktəbə gedib təhsil almağa imkanı yoxdur. Hər il dünyada təxminən 11 milyon uşaq pis şərtlərdə və kasıblıq üzündən həyatını itirir. Eyni şərtlərə görə 48 uşaqdan biri ölü doğulur.[38]

ABŞ təqribən 400 milyard dollarlıq hərbi büdcəsi ilə silahlanma cədvəlinə başçılıq edir. (Konqresdən tələb edilmişdir ki, terrorla mübarizəyə görə bu büdcə 45 milyard dollar da artırılsın). ABŞ-ın hərbi büdcəsi G7 ölkələrinin ümumi hərbi xərclərindən daha çoxdur.[39] ABŞ-ı 60 milyard dollarla Rusiya, Rusiyanı da 42 milyarda dollarla Çin təqib edir.[40] Bunlara əlavə olaraq, ABŞ-ın 40-dan çox ölkədə hərbi bazası, BMT-nin 190 üzvündən 132-sində isə az və ya çox miqdarda hərbi varlığı mövcuddur. Bütün bunlarla yanaşı, xarici ölkələrə hərbi yardımların da qərb ölkələrinin, xüsusilə də ABŞ-ın büdcəsinə təsiri böyükdür.

Dünyanın yeganə super gücü olan Amerika iqtisadiyyatının bu qədər böyük hərbi büdcəni asan şəkildə qarşıladığı düşünülə bilər. Lakin rəqəmlər hərbi xərclərin Amerika iqtisadiyyatına mənfi təsir göstərdiyini gözlər önünə sərir. 400 milyard dollar kimi böyük maliyyəni müdafiə sisteminə ayıran Amerikada 12 milyonu uşaq olmaqla, 31 milyon insan aclıq həddində yaşayır. Amerika əhalisinin 3%-i isə səfalət içində həyat sürür. Aclıqla üzləşən insanların böyük qismi dövlətdən yardım ala bilmir. Ehtiyac içindəki insanlara edilən yardımlar 1994-cü ildən etibarən əvvəlkindən ⅓ qədər azalmışdır.[41]

Bu göstəricilər dünyada ölkə və mədəniyyətlər arasında sülhün bərqərar olunmasının və müdafiə xərclərinin azaldılmasının nə qədər təcili olduğunu bir daha sübut edir. İslam Birliyi İslam dünyası ilə əlaqədar bütün münaqişə və gərginlikləri ortadan qaldıraraq ümumbəşəri sülh və asayişi təmin edə bilər. Eyni zamanda təkcə müsəlman ölkələrində deyil, dünyanın digər dövlətlərinin də müdafiə xərclərinin azaldılmasında yardımçı olar. Beləliklə, silah texnologiyasına və onların inkişafına qoyulan vəsaitlər təhsil, tibb və mədəniyyət kimi sahələrə yönəldilər. Hərbi büdcənin azaldılması imkan yaradacaq ki, aclıq, yoxsulluq, ekoloji çirklənmə, epidemik xəstəliklər kimi dünyanın gələcəyini təhdid edən problemlərlə mübarizəyə daha çox vasitə ayrılsın. Təhlükə qorxusunun geniş miqyasda ortadan qaldırılması ilə cəmiyyətlərin rifah səviyyəsini yüksəldən və yaşayış keyfiyyətini artıran işlər görülə bilər. Mədəniyyət və təhsil layihələrinə ayrılan pullar daha da çoxalar, ruhən sağlam, fiziki cəhətdən güclü və mərhəmətli nəsillər yetişər.

Sülh mühiti dövrümüzdə İslam dünyası ilə yaxından əlaqəli olan üç böyük problemli bölgədə, yəni Qafqaz, Balkan yarımadası və Yaxın Şərqdə son dərəcə əhəmiyyətlidir. Bugünkü gündə bu ərazilərin hamısında hərbi obyektləri olan Amerika ərəb-İsrail probleminə görə də hər il İsrailə böyük miqdarda maliyyə ayırır. Güclü İsrail lobbisinin ABŞ-ın xarici siyasəti üzərindəki tək tərəfli təsiri Konqresdən hər il bu ölkəyə edilən yardımların miqdarında da rol oynayır. İqtisadçı Tomas Stauffer apardığı bir araşdırmada müəyyən etmişdir ki, 1973-cü ildən bu yana ABŞ büdcəsindən İsrailə 1,6 trilyon dollar miqdarında vəsait ayrılmışdır. Bu qədər maliyyə

adambaşına 5700 dollar edir.[42] Əlbəttə, ABŞ öz müttəfiqlərinə yardım edə bilər. İsrailə olduğu kimi, başqa ölkələrə də müxtəlif yardımlar edilir. Ancaq İsrailə edilən yardımın səbəbləri ortadan qaldırıldıqda bu həm Amerika iqtisadiyyatının inkişafı, həm də İsrail vətəndaşlarının gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Ateist sionistlərin əsas təbliğatlarından biri İsrail dövlətinin qonşuları tərəfindən davamlı təhdid olunması və buna görə də qorunmağa ehtiyac duymasıdır. İsrailin qonşu ərəb ölkələri ilə münaqişədə olduğu, hələ də bəzi gərginliklərin davam etdiyi doğrudur. Lakin bu vəziyyət bir tərəfli şəkildə yaranmamışdır. Ateist sionizmin təsiri ilə İsrail dövləti zamanla şiddəti körükləməyə davam etmişdir.

Mövcud vəziyyətin dəyişməsi və hər iki xalqın dinclik tapması heç də çətin məsələ deyil. İslam Birliyinin qurulması bölgəyə sülh gətirən önəmli addım ola bilər. Bu birliyin qurulması ilə həm Yaxın Şərqdə, həm də bütün İslam coğrafiyasında yaşayan xristian və yəhudilərin haqları ən yaxşı şəkildə qorunar. Bunun təminatı üçün isə Qərb dünyasının xüsusi planlar qurmasına, böyük maliyyə ayırmasına ehtiyac qalmaz.

**Enerji qaynaqlarının mühafizə edilməsi**

20-ci əsrin birinci yarısında kömürdən əldə edilən enerji çox əhəmiyyətli idi, ikinci yarısına isə neft emalı öz damğasını vurdu. İlk dövrlərdə sənayedə kömürdən əldə edilən buxar gücündən istifadə edildiyi halda, İkinci Dünya Müharibəsindən sonra mühərrik texnologiyası və neftdən istifadə artmışdır. 20-ci əsrin sonuna doğru isə təbii qaz yeni güc qaynağı kimi ortaya çıxdı və dünya iqtisadiyyatı üzərində müəyyənedici rol oynamağa başladı.

Bu gün neft və qaz kimi qaynaqlara sahib ölkələrin istehsal həcmi, siyasi şərtləri və texniki imkanları dünya iqtisadiyyatı üçün həllediciidir. 1973-cü ildə neftin qiymətinin bir anda bahalaşması iqtisadi çaxnaşmaya və geriləməyə səbəb olmuş, bu vəziyyət bütün dünya ölkələrinə öz təsirini göstərmişdir. Bənzəri hadisə 1973-cü ildən sonra bir neçə dəfə baş vermişdir.

Bu səbəblərdən dolayı Qərbin İslam dünyası ilə münasibətlərində müsəlman ölkələrin neft və təbii qaz kimi enerji qaynaqlarına, yaxud da qiymətli elementlərə və faydalı qazıntılara sahib olması, həmçinin bu ölkələrin geostrateji mövqeyi əhəmiyyətli rol oynayır. Qərb dünyası bu qaynaqlar üzərində söz sahibi olmaq və bu coğrafiyada nüfuz qazanmaq üçün müxtəlif taktikalardan istifadə edir. Ancaq bəzi hallarda bu taktikalar imperialist zehniyyətin qalıqlarını daşıdığı üçün müsəlman torpaqlarında sabitliyi və nizamı pozur. Sabitliyin pozulması təbii şəkildə Qərb dünyasının maraqlarına pis təsir göstərir.

Hal-hazırda ABŞ-ın gündəlik neft istehlakı təqribən 20 milyon barrel təşkil edir. 1950-ci illərdə dünya neft istehsalının 52%-ini qarşılayan ABŞ hazırda gündəlik ehtiyacının 53%-ini xarici ölkələrdən əldə edir. Tədqiqatçılar ABŞ-ın neft ehtiyatlarının 20 il ərzində tükənəcəyini ehtimal edirlər. ABŞ-ın idxal etdiyi neftin 24%-i isə Yaxın Şərqə məxsusdur, dolayısilə, Körfəz bölgəsi ABŞ-ın gələcəyi üçün böyük önəm daşıyır. Eyni şəkildə, Qafqazdakı neft ehtiyatları da həm ABŞ, həm də dünya iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Avropa ölkələrinin bu torpaqlardan ixrac edilən neft və təbii qazdan asılılığı çoxdur. Bu ərazilərin Qərb dünyasının enerji təhlükəsizliyi üçün daşıdığı əhəmiyyət bölgə ölkələri ilə Qərb arasında əməkdaşlığı tələb edir. Bu əməkdaşlıqların qurulması üçün bölgə ölkələrinin mədəni və iqtisadi inkişafı mütləq dəstəklənməlidir. Zəngin ehtiyatların olduğu ərazilərdə sabitlik və sülhün hakim olması, demokratik sistemin yüksək səviyyədə işləməsi təbii ehtiyatlardan ən yaxşı şəkildə yararlanmağı təmin edər. Yox əgər həmin ərazilərdə münaqişələr davam edib mövcud nizam pozularsa, bu, həm qaynaqların çıxarılmasına və istehsal olunmasına mane olar, həm də başqa ölkələrə daşınmasına böyük çətinliklər yaradar. Təhlükəsizlik baxımından həmin xammal qaynaqlarının əldə edilməsinin çox çətin olduğu dövrlərin mövcudluğu hər kəsə məlumdur. Yaxud da daha

qənaətcil və qısa məsafələrdən istifadə etmək imkanı var ikən, yenə eyni səbəblərə görə nəqletmənin çox bahalı və uzun yollardan istifadə etməklə həyata keçirilməsi mütləq həllini tapmalıdır. Bütün bu problemlər İslam Birliyinin bölgəyə gətirəcəyi təhlükəsizlik vasitəsilə aradan qaldırıla bilər.

İslam Birliyi bu ehtiyatların ən məhsuldar şəkildə istifadə edilməsində İslam ölkələri kimi, başqa cəmiyyətlərin də heç bir zərər görməyəcəyi modelin inkişafına öz töhfəsini verə bilər. Hər şeydə olduğu kimi, iqtisadi yöndə də ittifaq halında hərəkət edən müsəlman ölkələri qaynaqların istifadəsində ortaq siyasət müəyyən edərlər. Ədalətə əsaslanan bu siyasətin fərqli rejimlər tərəfindən pozulması mümkün olmaz. Bu da başda neft istehsalı və qiymətləri olmaqla, dünya iqtisadiyyatı baxımından əhəmiyyət kəsb edən amillərdə stabil və balanslaşdırılmış siyasət yürütməyi təmin edər.

**Qərbin vəzifələri**

Hər bir ölkə xarici siyasətini müəyyənləşdirərkən ilk öncə öz maraqlarını düşünür. Belə ki, xalqın və dövlətin gələcəyinə fayda gətirdiyinə inandığı siyasət aparır. Lakin əsas əxlaqi şərt ondan ibarətdir ki, öz maraqları naminə digər xalqların maraqlarına zərər verməsin. Bu, ABŞ və Qərb dünyasının müsəlman ölkələrinə qarşı münasibətinə aiddir. Lakin bəzən qərb dövlətlərinin İslam dünyası ilə bağlı apardığı siyasət ancaq öz maraqlarını güdür, müsəlmanların isə ən əsas ehtiyacları belə görməməzlikdən gəlinir. Bu da bəzi müsəlman ölkələrdə müəyyən dairələrdə Qərb düşmənçiliyinə səbəb olur və iki mədəniyyət arasında narahatlıq yaradır. Halbuki hər iki tərəfin narahatlığını ortadan tamamilə qaldırmaq mümkündür.

Bunun üçün qərb ölkələri, xüsusilə Amerika hökuməti bəzi “mədəniyyətlər qarşıdurması” tərəfdarlarına qarşı diqqətli olmalı, bu çevrələrin təsirinə düşməməlidirlər. Həmin çevrələri aşağıdakı kimi sıralamaq olar:

**1) Dünyaya sosial darvinizm gözü ilə baxan aqressiya tərəfdarlarının səhvləri**

Bu, Qərb dünyasında hələ də təsirini qoruyan və qərb cəmiyyətlərindən başqalarını ibtidai adlandıran zehniyyətdir. Bu zehniyyət 19-cu əsrdə və 20-ci ərin əvvəlində qərb ölkələrinə hakim olan və “elmi” dəstəyini təkamül nəzəriyyəsindən alan imperialist düşüncənin qalığıdır. Məlum olduğu kimi, Darvin öz elmə zidd nəzəriyyəsi ilə insanların meymunlarla ortaq əcdadlardan gəldiyini önə sürmüşdü. Bu iddianı ortaya atarkən insan irqləri arasında çoxlu fərqin olduğunu, bəzilərinin irəli səviyyədə təkmilləşdiyini, bəzilərinin isə hələ də yarı meymun olduğunu zənn etmişdi. Müasir elm tərəfindən tamamilə əsassız edilən bu nəzəriyyə ortaya atıldığı dövrdə bir çox dairələr tərəfindən qəbul edildi. Qərbli imperialistlər başqa millətləri istismar edərkən, hətta kölə vəziyyətinə salarkən özlərini haqlı göstərmək üçün Darvinin “elmi” iddialarından istifadə etdilər. “Həyat mübarizəsində” qərbli ağ irqin üstün, başqa irqlərin isə aşağı səviyyəli olduqlarını deyərək həmin xalqları istismar etməyi qanuniləşdirməyə çalışdılar. Müstəmləkəçilik fəaliyyətləri tam sürətlə davam etdiyi halda, həmin xalqlara mədəniyyət apardıqlarını iddia etdilər. Bunun nə qədər böyük səhv olduğu bir müddət sonra aşkara çıxdı. Elmin inkişafı ilə Darvinin nəzəriyyəsinin heç bir əsası qalmadı və böyük yalan olduğunu hər kəs gördü. Eyni zamanda imperialistlərin getdikləri torpaqlara mədəniyyətdən çox zülm apardıqları məlum oldu. Belə ki, imperialist zehniyyətin və darvinist məntiqin təsiri az da olsa dövrümüzə kimi gəlib çatdı.

Dövrümüzdə isə Qərb dünyasında bu yanlış məntiqin təsirində qalan bəzi çevrələr Qərbin başqa ölkələrlə münasibətlərində özlərinin üstün olduğunu irəli sürürlər. Bu, gərginliyə səbəb olan, mövcud problemləri daha da dərinləşdirən səhv hərəkətdir. Həm Qərb mədəniyyəti, həm də İslam mədəniyyəti köklü mədəniyyətlərdir. Hətta kitabın əvvəlində qeyd etdiyimiz kimi, Qərb

mədəniyyəti İslam mədəniyyətindən təsirlənmişdir. Mədəniyyətlər arasındakı fərqliliklər üstünlük və ya münaqişə səbəbi deyildir. Əksinə, fərqli mədəniyyətlər biri digərinə dəstək verib tamamlamalıdır.

Digər tərəfdən müharibələri və beynəlxalq gərginlikləri yaxşı silah bazarı kimi görən və sırf maddi qazanc uğrunda insanları ölümə sürükləyən bəzi hərbi sənaye kompleks təmsilçilərinə qarşı da diqqətli olmaq lazımdır.

**2) Radikal xristianlığı müdafiə edənlərin səhvi**

Xristianlıq sevgi və sülh dinidir. İncildə xristianlara düşməni belə sevmək, bütün bəşəriyyətə qarşı yaxşı davranmaq əmr olunur. Dövrümüzdə dünyadakı bir çox xristian bu nəsihətləri dinləyir, sülh yönlü əxlaq nümayiş etdirirlər. ABŞ kilsələrinin və xristian liderlərinin çox hissəsi bu dəst-xətti davam etdirir. Lakin bir tərəfdən də Orta əsrlərdəki səlibçi zehniyyətini qoruyaraq İslama qarşı son dərəcə aqressiv və haqsız açıqlamalar verən bəzi xristian liderlər də mövcuddur. Onlar bir tərəfdən həmin xətalı səhvləri ilə müsəlmanları narahat edir, o biri tərəfdən də Əhdi-ətiqdəki yazılara müəyyən mənalar verərək yaxın gələcəkdə müsəlmanlarla Qərb dünyası arasında müharibə baş verəcəyini, daha da qorxulusu baş verməli olduğunu müdafiə edirlər. İsrail radikalları ilə paralellik təşkil edən həmin xristianların səhvi tolerant xristianlar tərəfindən özlərinə göstərilməlidir. Səlibçilərin 1000 il əvvəl etdikləri səhvi bu gün bəzi xristianlar təkrarlamağa çox həvəsli olmamalıdır.

**3) Radikal və ateist sionistlərin səhvi**

İslama qarşı müəyyən mənada səlib yürüşü təşkil etməyi hədəf alanların başında isə bəzi israilli radikal siyasətçilər və onlar kimi düşünən ABŞ-dakı İsrail lobbisi gəlir. Onlar İsrailin Yaxın Şərqdə varlığını qoruması üçün işğal etdikləri torpaqlardan çəkilərək ərəb-İslam dünyası ilə barışmağın yerinə sərt siyasət yürütməyi düşünürlər. 1920-ci illərdə faşist sionist lider Jabotinskinin ortaya atdığı “Dəmir divar” strategiyasına uyğun olaraq İsraili bir növ Spartaya döndərmək ABŞ-ı isə bu savaş dövlətinin ən böyük qoruyucusuna çevirmək niyyətindədirlər.

Amerika hökuməti bu radikal düşüncəyə qarşı diqqətli olmalıdır. Eyni zamanda yəhudi inancının tələb etdiyi kimi, sülh tərəfdarı olduğunu deyən, həmçinin ərəb və yəhudilər arasında barışı istəyən dindar yəhudilər də həmin radikallara qarşı çıxmalı, dünyanı münaqişəyə sürükləmək istəyənlərə mane olmalıdırlar.

Qərb mədəniyyətlər qarşıdurmasının qarşısını almaq üçün bunlara mane olmalıdır. İslam dünyasında ən əsas məsələlərdən biri kitabın əvvəlində də dediyimiz kimi dağınıqlıqdır. Müsəlman ölkələrini təmsil edən güc mərkəzinin yoxluğu Qərb dünyasının müsəlmanlarla qurduğu əlaqəni düzgün zəminə oturtmağı çətinləşdirir. Bəzən müstəsna hərəkətlər bütün müsəlmanlara aid edildiyi və bəzən də bütün İslam dünyasını maraqlandıran mövzular fərdi məsələ kimi dəyərləndirildiyi üçün yanlış siyasət izlənilir. Bununla da həm İslam dünyasında rahatsızlıq meydana gətirən, həm də Qərb dünyasında qarışıqlığa səbəb olan durumlar ortaya çıxır.

Belə vəziyyətlərdə müsəlmanların ortaq məqsəd və tələblərini ifadə edən, onların haqlarını qoruyan və Qərbə yol göstərən qurumun olmaması böyük çətinliklərə səbəb olur. Bu da İslam Birliyinin vacibliyini bizə bir daha xatırladır.

## İSLAM BİRLİYİ MÜJDƏSİ

Bu kitab 2003-cü ilin yay aylarında yazılıb. Əgər bundan 20, 30 və ya 50 il əvvəl olsa idi, o zaman İslam Birliyindən danışmaq daha çətin olardı. Çünki o vaxtlar həm dünyanın, həm də İslam aləminin durumu belə birlik üçün əsaslı şərtləri daşımırdı. Əksinə, bu birliyin qurulmasına mane olan çoxlu səbəblər var idi. Lakin dünya 1980-ci illərdən etibarən bir sıra dəyişikliyə məruz qaldı. Bunlar da öz növbəsində İslam Birliyindən söz açmağı və bunun qurulması üçün çalışmağı mümkün etdi.

İslam Birliyinin yolunu açan həmin böyük dəyişiklikləri sıra ilə nəzərdən keçirək:

### Müsəlmanların müstəqillik əldə etməsi

Yer üzündə son İslam Birliyi böyük Osmanlı İmperiyası idi. Onun dağılmasından sonra İslam dünyası irili-xırdalı müxtəlif dövlətlərə bölündü, bu dövlətlərin çoxu uzun müddət qərb ölkələrinin müstəmləkəsi oldular. 1920-ci illərdən etibarən bütün Yaxın Şərq, Şimali Afrika, Hindistan yarımadası və Sakit okeanı hövzəsindəki müsəlmanlar başda İngiltərə və Fransa olmaqla, Avropanın müstəmləkəçi dövlətlərinin hakimiyyəti altına düşdülər. Orta Asiya və Qafqaz ölkələri isə daha ağır rejimin– Sovet İttifaqının əsarətində idilər. Balkan müsəlmanları da serb və xorvatlar kimi qeyri-müsəlman xalqların idarəçiliyinə girdilər. İkinci Dünya Müharibəsindən sonra bu rejimlər üstəlik kommunist düşüncə mənimsəyib İslama zidd quruluşa büründülər.

Qısası, 20-ci əsrin önəmli hissəsində dünya müsəlmanlarının böyük hissəsi müstəmləkə idi. 1950 və 1960-cı illərdə müstəmləkəçiliyin bitməsi ilə müsəlmanlar da azad olmağa başladılar. İngiltərə Hindistan yarımadasını, daha sonra Yaxın Şərqi tərk etdi. Hindistan yarımadasında Pakistan və sonradan Banqladeş adını alan Şərqi Pakistan quruldu. Yaxın Şərqdəki Misir, İordaniya və İraq kimi müsəlman ölkələri müstəqillik qazandılar. Şimali Afrika uzun və amansız prosesdən sonra Fransa imperializmindən xilas oldu. Afrikadakı digər müsəlman ölkələri də 60-cı illərdə bir-birinin ardınca azad oldular. Şərqdə Malayziya və İndoneziya eyni ildə– 1965-ci ildə müstəqilliklərini elan etdilər.

1980-ci illərin sonunda kommunist blokun və 1991-ci ildə SSRİ-nin dağılması ilə bu rejimlərə tabe olan müsəlmanlar hürriyyət qazandılar. Orta Asiyadakı türk dövlətləri 1 əsr yarımı keçən rus hakimiyyətindən xilas olub azad respublika oldular. Kommunizmin çökməsi Balkan müsəlmanlarına da azadlıq gətirdi. Bosniya-herseqovina serblərin hakim olduğu Yuqoslaviyadan xilas oldu və Avropanın ortasında müsəlman ölkəsi kimi səhnəyə çıxdı. Albaniya əliqanlı və qatı ateist diktator Ənvər Hocanın zalım kommunist rejimindən qurtuldu.

Bu gün müxtəlif ölkələrdəki azlıqlar, həmçinin Fələstin, Kəşmir kimi işğal altındakı bir neçə müsəlman ölkədən başqa, dünya müsəlmanları öz siyasi hakimiyyətlərinə qovuşublar. Bu böyük siyasi dəyişiklik 20-ci əsr boyunca mümkün olmayan İslam Birliyindən söz açmağı 21-ci əsrdə mümkün edir.

### Dinə zidd ideologiyaların təsirinin azalması

İslam ölkələri yuxarıda da bildirdiyimiz kimi, 50-ci illərdən etibarən azadlıq qazanmağa başladılar, lakin müstəqillik hər zaman dərk etmək mənasını daşımırdı. Əksinə, hürriyyət qazanan İslam ölkələrinin bəzilərində İslam əxlaqına zidd cərəyanlar güc qazandılar.

1950 və 1960-cı illərdə ərəb dünyasına dərin təsir izini buraxan ərəb sosializmi bunun bir nümunəsi idi. İslam əxlaqının qəti şəkildə rədd etdiyi radikal marksist metodlara dayanan ərəb millətçiliyi bir anda güc əldə etdi, lakin sürətlə gerilədi. Ərəb dünyasına isə yalnız zaman itkisi və gərginlik gətirdi.

Bundan başqa, müsəlman ölkələri fərqli qütblərə ayrılmışdılar. O dövrdə dünya ABŞ və SSRİ-nin başçılıq etdiyi iki qütbə ayrılmışdı. Müsəlman ölkələri birgə hərəkət etmək bir yana, haradasa bu iki qütbə bərabər şəkildə bölünmüşdülər. Ərəb ölkələrinin çoxu Sovet İttifaqının yanında idi. Müsəlman ölkəsi olan Misir Pakistanla müharibə aparan Hindistanla birlikdə qoşulmayanlar hərəkatına öndərlik etməyi qəbahət saymırdı.

İslam aləmi siyasi, strateji və mədəni mənada, həqiqətən, İslam dünyası kimi ancaq soyuq müharibədən sonra ortaya çıxa bildi. Soyuq müharibə illərində İslam dünyasından bəhs etmək mümkün deyildi. Soyuq müharibənin ardından isə İslam dünyası əhəmiyyətli rol qazandı.

Soyuq müharibə dövrünün qalıqları hələ də İslam dünyasından təmizlənməyə davam edir. Bununla yanaşı, inkişaf edən hadisələr Yaxın Şərqdə daha anlayışlı və demokratik iqlimin yaranacağını göstərir və bu da İslam əxlaqının başa düşülməsi və yaşanması üçün daha əlverişli mühit hazırlayır. Digər tərəfdən müsəlmanlar arasındakı ənənəvi ayrıqlılar da Yaxın Şərqdə son siyasi proseslərlə azalmağa davam edir. Eyni zamanda ABŞ-ın İraqı işğalı ərəfəsində İraqdakı sünni və şiələr tarixdə ilk dəfə eyni məscidlərdə namaz qılmağa başladılar.

**Beynəlxalq münasibətlərdə mədəniyyət anlayışının**

**əhəmiyyəti**

Soyuq müharibənin sona çatması müsəlmanları iki ayrı siyasi cəbhəyə ayıran məcburi bölünməni ortadan qaldırdı. Bununla yanaşı, siyasi ideologiyaların yerinə mədəniyyətlərin ön plana çıxmasını təmin etdi. Samuel Hantinqtonun müəyyən etdiyi kimi, artıq insanlar “kimin tərəfindəsiniz” sualı ilə deyil, “kimsiniz” sualı ilə təsvir olunmağa başladılar. Balkanlardan Orta Asiyaya, Uzaq Şərqdən Şimali Afrikaya qədər özlərini daha əvvəl sosialist, yuqoslav, sovet, antik-kommunist və ya millətçi kimi göstərən insanların bu xüsusiyyətləri deyil, hansı mədəniyyəti təmsil etdikləri əhəmiyyət kəsb etməyə başladı.

Samuel Hantinqtonun bu həqiqəti ifadə edən “mədəniyyətlər qarşıdurması” tezisi bu yönü ilə önəmli tezisdir. Hantinqton 21-ci əsrdə dünyanın siyasi bloklardan çox mədəniyyətlərin təsiri ilə formalaşacağını irəli sürmüşdür və bu sözündə haqlıdır. Həmin mədəniyyətin dinə əsaslanacağı təyini də doğrudur. Onun səhvi odur ki, mədəniyyətlər arasındakı münasibətləri münaqişə əsaslı görür. Halbuki kitabda bəhs etdiyimiz kimi, mədəniyyətlər arasındakı münasibətlərin münaqişəyə deyil, dostluq və əməkdaşlığa əsaslanması mümkündür. Bunun üçün Hantinqtonu və onun kimi düşünənləri yanlış yönləndirən sosial darvinist zehniyyətdən üz döndərmək lazımdır.

Dünyanın mədəniyyətlər təməlində təsvir olunmasının tək səbəbinin soyuq müharibə olmadığını da vurğulamalıyıq. Başqa bir əhəmiyyətli səbəb isə dünyaya mədəni yöndən hegemonluq edən materialist fəlsəfənin yeni elmi və sosial tərəqqi ilə çökməyə başlaması idi. Xüsusilə elmin inkişafı materializmin əsaslarını yıxır, beləliklə, Allahın varlığının dəlillərini daha açıq şəkildə görməyə kömək edir. Allaha inancın getdikcə gücləndiyi, insanların yenidən din əxlaqına yönəldiyi dövrdə, şübhəsiz ki, İslama olan iman da artmağa davam edir.

**İslamın dünya gündəliyinin ən əhəmiyyətli mövzusuna çevrilməsi**

Bütün dünyada din əxlaqının yüksəlməsi qədər diqqət çəkən başqa şey də var: bütün dinlərin içində ən çox yüksələn din İslamdır. Bu gün İslam dünyanın ən sürətlə böyüyən dinidir və bu həqiqət hamı tərəfindən qəbul edilir. Bundan başqa, İslam dünya gündəliyinin ən əhəmiyyətli mövzusudur.

Bundan 30-40 il əvvəl isə vəziyyət daha fərqli idi. Dünya soyuq müharibənin dar ideoloji qəlibi çərçivəsində düşünürdü. Üstəlik, materialist fəlsəfələrin təsiri ilə din əxlaqının insan və cəmiyyətlərin həyatında müəyyənedici rol oynamadığı zənn edilirdi. Halbuki 80-ci illərdən başlayaraq İslam bir anda dünya gündəliyinin zirvəsinə qalxdı və qərblilər İslam əxlaqının insan və cəmiyyətləri hərəkətə keçirən böyük güc olduğunu gördülər.

90-cı illərdə Qərb dünyasının İslama marağı daha da artdı. Mediada İslam haqqında verilən xəbərlərin çoxalması bunun göstəricilərindən biri idi. İslama olan ən böyük maraq isə, əslində, İslam əxlaqına tamamilə zidd olan 11 sentyabr hücumlarından sonra başladı. Qərblilər, ən başda amerikalılar İslam əxlaqını yaxından tanımaq, müsəlmanları anlamaq üçün böyük cəhd göstərdilər. Bu gün Qərbdə medianın və akademik işlərin böyük hissəsi İslamla əlaqəlidir. Bunların bir qismi ön mühakiməli izahlar ehtiva etsə də, nəticədə, dünyanın diqqətini İslama çəkir və daha çox insanın İslam əxlaqına yönəlməsinə vasitəçi olur. (Mövzu ilə əlaqədar ətraflı oxuyun: "İslamın yüksəlişi", H.Yəhya)

**Müsəlmanlar arasındakı qlobal münasibətin və həmrəyliyin çoxalması**

1980-ci illərdən etibarən getdikcə yüksələn və 90-cı illərdə – başda internet olmaqla – rabitə texnologiyasının inkişafı ilə geniş vüsət alan qloballaşma prosesi İslam Birliyinin yolunu açmağa başladı. Bəzi müsəlmanlar Qərb mədəniyyətinin təbliğatçısı kimi gördükləri qloballaşmanı xoş qarşılamırlar. Halbuki bütün dünya mədəniyyətlərini ortaq dildə birləşdirən qloballaşma müsəlmanların bir-biriləri ilə əməkdaşlığını əvvəl heç görünməmiş şəkildə böyütmüşdür. Beləliklə, müsəlman xalqların bilgisinin artmasına vasitəçi olmuşdur.

Təkcə internetin özü belə müsəlmanlar arasındakı əlaqənin nə qədər artdığını göstərir. İnternet texnologiyası həm bütün insanlar üçün, həm də müsəlmanlar üçün böyük nemətə çevrilib. İnternet sayəsində aparılan çalışmaların sayı artmış, bununla yanaşı, məlumat əldə etmək imkanları çox genişlənmişdir. Beləliklə də, İslam dünyası da daxil olmaqla, dünyanın hər tərəfində oxuyan, düşünən, fikirlər irəli sürən və həll yolları inkişaf etdirən nəsillər yetişir. Tədqiqat işlərini Almaniyanın Azad Berlin Universitetində davam etdirən sosial elmlər üzrə tədqiqatçı olan malayziyalı Fariş A. Nur qloballaşmanın İslam dünyasındakı təsirlərindən bəhs edən bir tədqiqində belə açıqlayır:

*"İnkişaf edən rabitə texnologiyası və məlumatın sərbəst yayılması sayəsində müsəlmanlar artıq İslam elmlərinin əsasını asanlıqla əldə edə bilirlər; İslam düşüncəsinin əsas kitabları artıq uzaq kitabxanalardakı az sayda kitabla məhdud deyil...*

*Bunun nəticələrindən biri... İslami yöndən şüurlu və təhsilli kütlələrin inkişafıdır. İslami yazıları və məlumatları əldə etmək, eyni zamanda müsəlman qadınların və (akademik səviyyəsi olmayan) normal müsəlmanların İslam haqqında daha çox öyrənmələrini, fikir irəli sürüb şərh verməklərini təmin edir. Bu, qlobal islami şəbəkənin qurulması sayəsində müsəlman aləminin hər tərəfində yaşanır".*[43]

Nurun ifadəsi ilə desək, artıq zaman və məkanın sərhəd qoymadığı İslam dünyası var.[44]

Təkcə internet deyil, media da dünya müsəlmanlarını birləşdirir. Hər hansı bir İslam ölkəsindəki mövzu qısa zamanda bütün İslam ölkələrinə yayılır və o yerlərdəki müsəlmanların da

məsələsinə çevrilir. Bütün bu imkanlar müsəlman dünyasının daha aydın gələcəyə qovuşacağını göstərir.

**Qərbin Osmanlı arzusu**

Kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, qurulmasını istədiyimiz İslam Birliyi həm müsəlmanlar, həm də digər insanlar üçün çox faydalı, ədalətli, demokratik və çağdaş quruluş olacaq. İslam Birliyinin qurulması ilə başda Qərb olmaqla, digər mədəniyyətlər biri-biriləri ilə yaxın münasibətlər qurub stabil və etibarlı nüfuz sistemi ilə üz-üzə gələcəklər. Müsəlmanlar adına ortaya çıxan radikal cərəyanların durdurulması və yanlışlıqlarının düzəldilməsi işi İslam Birliyinə aid olacaq. Qərbin bu yöndəki narahatlıqları tamamilə ortadan qalxacaq.

İslam Birliyinin yaxınlaşdığını göstərən əhəmiyyətli əlamətlərdən biri artıq bu ehtiyacın Qərbin də anlamağa başlamasıdır. Xüsusilə keçmiş Osmanlı coğrafiyasında bir əsrdir davam edən nüfuz boşluğu artıq hiss olunur və hamıda belə bir fikir formalaşır ki, həll yolu ancaq Osmanlı modelinin müəyyən mənada yenidən geri qaytarılmasındadır.

Bu mövzuya dair  açıqlamalardan biri 9 mart 2003-cü ildə  Devid Fromkin imzası ilə "New York Times" qəzetində "Hələ Osmanlı xəyaləti ilə dolu dünya" (A World Still Haunted by Ottoman Ghosts) başlıqlı məqalədir. Məqaləsinə "Bir xəyalət ABŞ-ı rahat buraxmır, bu, Osmanlı İmperiyasının xəyalətidir" deyə başlayan Fromkin bunları yazır:

*"Bu gün Buş hakimiyyətindəki davakar şəxslər təkcə İraqı işğal etməyi hədəf almır, bunu ərəb Yaxın Şərqinə çevrilməsində bir təməl kimi istifadə etmək istəyir.*

*Daha əvvəl qərb ölkələri (İngiltərə və Fransa) Osmanlı torpaqlarını yenidən formalaşdırmağa başlamışdılar. Həmin ölkələr Birinci Dünya Müharibəsindən qələbə ilə çıxandan sonra Yaxın Şərqin xəritəsini yenidən çəkdilər. İraq qurulan süni dövlətlərdən biri idi.*

*Birinci Dünya Müharibəsindən sonra İngiltərə və Fransa Osmanlı İmperiyasını məğlub edərək ərəb torpaqlarına nəzarəti öz əlinə keçirdi. Bununla yanaşı, əhəmiyyətli bir şey də qazandı: bu torpaqlarda böyük neft ehtiyatının tapılması ehtimalını.*

*Avropalılar və onların amerikalı şərikləri bu yerlərdə dostyana və stabil rejimlər qurmağı umdular. 1920-ci illərin əvvəllərində sərhədləri yenidən müəyyən etdikdən sonra İngiltərə və Fransa bir dövlət sistemi qurdu və siyasi rəhbərlik təmin etməyə çalışdı. Lakin sistem tab gətirmədi. Əksinə, bölgə daha təlatümlü və təşviş dolu yerə döndü.*

*Geriyə dönüb baxdıqda Prezident Buşun bəzi hissələrini dəyişdirmək istədiyi Yaxın Şərqin bir çox xüsusiyyətlərinin beş yüz illik Osmanlı hakimiyyətində formalaşdığı açıq şəkildə görünür".*[45]

İngilis jurnalist Timoti Qarton Aş isə "The Guardian" qəzetində 27 mart 2003-cü ildə yayımlanan bir məqaləsində buna bənzər analiz vermişdi. Kosovada albanların və Şimali İraqda kürdlərin problemlərindən bəhs edən Aş: "Hər iki vəziyyətdə hələ də bir əsr sonra Osmanlı İmperiyasının mirası ilə üz-üzəyik", –deyərək belə vurğulayırdı:

*"Üzləşək: (İraqdakı) bu qanlı müharibə bitəndə 1918-ci ilə geri dönmüş olacağıq, yəni babalarımızın Balkanlardan Yaxın Şərqə qədər qarşılaşdığı sualların çoxu ilə  eyni ərazilərdə üz-üzə qalacağıq. Hələ də bunlara cavab verə bilmirik. Bəzən Osmanlı İmperiyasının yenidən qurmalı olduğumuzu düşünürəm".*[46]

Qərblilərin belə Osmanlı İmperiyasının yenidən qurulmasının vacibliyini düşündükləri bir dövrdə müsəlmanlar buna daha çox can atmalıdırlar.

Hicri 14-cü əsrin əvvəlindən etibarən baş verən hadisələr onu göstərir ki, müsəlmanlar tarixin ən əhəmiyyətli dönüş dövründədirlər. Biz isə bu məsuliyyəti daşımağa layiq olmalıyıq.

**İslam Birliyi getdikcə yaxınlaşır**

Bu kitabın ilk nəşrindən sonra İslam Birliyinin qurulmasına gedən prosesdə gözlə görünəcək şəkildə sürətlənmə oldu. İslam Ortaq Bazarının qurulması üçün təşəbbüslərin sürətlənməsi, suriyalı rəsmilərin Suriya və Türkiyə sərhədlərinin açılmasını gündəliyə gətirmələri, İraq liderlərinin Türkiyə ilə birləşmək üçün çağırışları, bir çox İslam dövlətində xalqın "İslam Birliyi istəyirik" şüarı, dünyanın yeni Osmanlıya möhtac olduğunun qəzetlərə başlıq olması, müsəlman ölkələri arasında iqtisadi və mədəni əməkdaşlıqların artırılması və s. veriləcək nümunələrdən yalnız bir neçəsidir.

Buna bənzər proseslər yaxın zamanlarda daha sürətlənəcək və dünya qısa zamanda İslam Birliyinin qurulduğuna şahid olacaqlar.

## NƏTİCƏ:
## DÜNYANI GÖZLƏYƏN AYDIN GƏLƏCƏK

Kitab boyu İslam dünyasının hazırkı mövqeyi, İslam Birliyinin təsis edilməsinin vacibliyi və bu birliyin müsəlmanlara və digər cəmiyyətlərə faydaları barədə məlumat verdik. Daha öncə də üzərində dayandığımız kimi, inkişaf edən hadisələr İslam dünyasının əhəmiyyətli şəkildə dəyişəcəyindən xəbər verir. Peyğəmbərimizin (səv) bəzi hədislərində verilən məlumatlar və Quran ayələri Allahın izni ilə dünya müsəlmanlarını aydın gələcək gözlədiyini müjdə verir. İslam Birliyinin qurulması bu müjdəli dövrün başlanğıcını sürətləndirəcək, təkcə müsəlmanların deyil, bütün cəmiyyətlərin bolluq və rifah içində yaşayacağı yeni dövrün başlanğıcı olacaq.

Hazırkı dövrün ilk nəzərdə problemlərlə dolu olduğu görünə bilər. Halbuki problemlərin çoxalması gözəl dövrün xəbərçisidir. Müharibələr, qıtlıqlar, dünyanın fərqli yerlərində müsəlmanların əzilməsi və s. kimi problemlərin çoxu Peyğəmbərimizin (səv) hədislərində 1400 il əvvəl xəbər verilib və hamısı axırzaman əlamətləridir. Bu əlamətlərin çıxması Peyğəmbərimizin (səv) müjdə verdiyi İslam əxlaqının dünya hakimiyyətinin yaxınlaşdığına işarədir (doğrusunu Allah bilir). Dolayısilə, olduğumuz vəziyyət biz müsəlmanları ümidsizliyə və bədbinliyə salmamalıdır, əksinə, şövq və həyəcanımızı artırmalıdır. Bundan başqa, iman edənlər Allahın rəhmətindən əsla ümidini üzməməlidirlər. Allah bir ayədə belə buyurur:

**... Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər! (Yusif surəsi, 87)**

**Axırzaman müjdəsi**

İslam dünyasının aydın gələcəyini bizə müjdə verən ən əhəmiyyətli qaynaqların başında Peyğəmbərimizin (səv) hədisləri gəlir. Hədislərdə axırzamanın (Qiyamətdən əvvəlki dövrün) xüsusiyyətləri ətraflı şəkildə təsvir edilmişdir. Bu məlumatları araşdırdıqda görürük ki, axırzaman əlamətləri ilə dövrümüzdə baş verən yüzlərlə hadisə üst-üstə düşür. İnsanların yaradılış məqsədindən uzaqlaşması və bunun mənəvi pozuntuya səbəb olması, zəlzələ və quraqlıq kimi təbii fəlakətlərin çoxalması, qıtlığın, münaqişələrin baş alıb getməsi, asayiş və sabitliyin pozulması, bidətlərin ortaya çıxması, yaşayış çətinliyinin yayılması və s. kimi şeylər hədislərdə bildirilən hz.Mehdinin başlıca zühur əlamətlərindəndir. Cinayət, qətliam və qarşıdurmaların daha

da şiddətləndiyi axırzamanda müsəlmanlara təzyiqlər daha da artacaq. Hədislərdə bildirilir ki, bu dövrdə müsəlmanlara güc tətbiq ediləcək və onlara zülm ediləcək. Belə ki, müsəlmanların böyük hissəsi bu zülm və təzyiqdən çıxış yolu tapa bilməyəcəklər.

Bu çətinlikdən sonra isə Allah bəşəriyyətə xilaskar göndərəcək və onun vasitəsilə insanları qaranlıqdan aydınlığa çıxaracaq. Mehdi (doğruya çatdıran, hidayət rəhbəri) ünvanını daşıyan bu mübarək şəxs əvvəlcə İslam dünyasını canlandıracaq, daha sonra bütün dünyaya sülh, sevgi və gözəl əxlaq yayacaq. Hz.Mehdi ilə birlikdə Allahı inkar edən və din əxlaqına zidd olan ideologiyalar fikrən yox ediləcək. İslam əxlaqı Quranda və Peyğəmbərimizin (səv) sünnəsində bildirilən gerçək halına döndürüləcək. İslam dünyası siyasi, iqtisadi və sosial yöndən güc qazanacaq.

Yenə hədislərdə bildirildiyi kimi, axırzamanda hz.İsa yenidən dünyaya dönəcək. İsa peyğəmbərin ikinci dəfə yer üzünə gəlməsi axırzamanın ən böyük müjdələrindən biridir. Peyğəmbərimiz hz.Muhəmmədin hz.İsanın yer üzünə təkrar gəlişini müjdə verən müxtəlif hədislərlə yanaşı, bu mövzu Quranda da açıq şəkildə bildirilmişdir. Bir çox ayədə hz.İsanın gəlişi ilə əlaqədar qəti ifadələr vardır. Allah Quran ayələrində hz.İsanın asılıb öldürülmədiyini, insanlara onun bənzərinin göstərildiyini, onu vəfat etdirdiyini (yəni yuxuda ikən canını aldığını) və Öz qatına çəkdiyini bildirmişdir. (Mövzu ilə əlaqədar ətraflı məlumat üçün baxın: "Hz.İsa gələcək" H.Yəhya). Bu həqiqət "Nisa" surəsində inananlara belə bildirilir:

**Bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!"– dediklərinə görə (lənətə düçar edildilər.) Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq (İsanın) bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah qüdrətlidir, müdrikdir. (Nisa surəsi, 157-158)**

Quranda hz.İsa ilə əlaqədar başqa bir həqiqət isə hz.İsanın yer üzünə ikinci dəfə gəlişidir. Quranda ayələrdə xəbər verilən müjdə Peyğəmbərimizin hədislərində də var. Bundan başqa, İslam alimləri də onun yer üzünə ikinci dəfə gəlişi və o dövrün mühiti haqqında müxtəlif əsərlər yazıblar.

Hz.İsa yer üzünə təkrar gəldikdə Allahın ayəsinin təzahürü olaraq bütün peyğəmbərlər kimi insanlar arasında seçilmiş olması ilə tanınacaq, hörmət və izzətə sahib olacaq. Görənlər onu baxan kimi tanıyacaq, qəlblərində heç bir şübhə olmayacaq. Hz.İsanı insanlara tanıdan əhəmiyyətli əlamətlərdən biri də dünyada heç bir qohumunun, ailəsinin və əvvəldən tanıdığı heç kimin olmamasıdır.

Onun fiziki xüsusiyyətlərini, simasını və ya səs tonunu tanıyan bir nəfər belə olmayacaq. Dünyada bir nəfər belə onu əvvəldən tanıdığını deyə bilməyəcək. Çünki onu tanıyanlar təqribən 2000 il əvvəl yaşayıblar.

Hz.İsa gələndən sonra Quranla hökm edəcək, bu dövrdə xristian dünyası da xurafatlardan ayrılacaq və hz.İsa onları Quran əxlaqına dəvət edəcək. Beləliklə, İslam və xristian dünyası bir inancda birləşəcək, dünya "Qızıl dövr" adlandırılan və sülhün, asayişin, xoşbəxtliyin və rifahın hakim olduğu yeni dövrə qədəm qoyacaq. Qızıl dövr eynilə Peyğəmbərimizin (səv) dövründəki əsri-səadət dövrü kimi olacaq. Yer üzü daha əvvəl zülmlə dolu ikən ədalətlə dolacaq. Məhsullar və mallar çoxalacaq. İnsanlar köməyə ehtiyacı olan birini tapa bilməyəcəklər. İnsanlar hara baxsalar, bolluq və gözəllik görəcəklər. İnsanlar bu dövrdə həyatdan o qədər razı olacaqlar ki, hədislərdə bildirildiyi kimi, yaşlılar gənc olmağı arzu edəcəklər.

Burada qısa şəkildə bəhs etdiyimiz axırzaman hadisələri ilə əlaqədar Peyğəmbərimizin (səv) hədislərinin bəzilərini aşağıda yazırıq.

**HZ.MEHDİ VƏ HZ.İSA BU ƏSRDƏ GƏLƏCƏK**

Hər əsrdə din əxlaqını bidətlərdən qurtarıb yeniləmək üçün Allah tərəfindən bir şəxsin göndərildiyi "Sünəni-Əbu Davud", "Məktubati-Rəbbani" kimi böyük və mötəbər əhli-sünnə əsərlərində açıq şəkildə müəyyən edilmişdir:

*"Əbu Hüreyrənin rəvayətinə görə, Rəsulullah (səv) belə buyurub: "Həqiqətən, Əziz və Cəlil olan Allah **hər yüz ilin əvvəlində** bu ümmətin dinini bidətdən (dinə sonradan qarışan batil əməllərdən) təmizləyəcək bir şəxsi göndərər". (Sünəni- Əbu Davud, 5/100)*

Peyğəmbərimizdən (səv) rəvayət edilən hədislərdə axırzamanda zühur edəcəyi müjdə verilən hz.Mehdinin çıxış vaxtı da tam olaraq hicri 1400-cü ili göstərilir:

***"İnsanlar 1400-cü ildə hz.Mehdinin ətrafına yığılacaqlar".** (Risalətül-xürucul-Mehdi, səh. 108)*

Bu 100 illik müddətdə İslam əxlaqı müəyyən müddət içində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mübarizə aparan dəccaliyyət sistemi isə tamamilə ortadan qalxacaq. Lakin 100 il sürən bu yüksəliş dövrünün ardından, yəni hicri 1500-cü illərdə dünya yenidən qarışmağa başlayacaq. Əhli-sünnənin böyük hədis və fiqh alimlərindən olan İmam Əhməd bin Hənbəl kimi çoxlu alimin bir-birindən nəql etdikləri hədisdə Peyğəmbərimiz (səv) ona qədər keçən dövrün 5600 il olduğunu bildirərək bəşəriyyət tarixinin başlanğıcı haqqında belə məlumat vermişdir:

*"Əhməd bin Hənbəl "İləl" əsərindən nəql etdi. İsmayıl bin Əbdülkərim Əbdüssəməddən, o da Vəhbdən rəvayət etdi; **DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇİB.** (Əli bin Hüsamədin əl-Müttəqi, Kitabül-Bürhan fi əlamətil-Mehdiyyil-axıraman, səh.89)*

Digər tərəfdən başqa hədislərdə isə dünyanın ömrünün 7000 il olduğuna dair açıq şərhlər vardır:

*"Ənəs Malikdən təxric etdi. O dedi ki, Rəsulullah (səv) buyurdu: **DÜNYANIN ÖMRÜ AXİRƏT GÜNLƏRİNDƏN YEDDİ GÜNDÜR.** Allah-Təala buyurub ki, **RƏBBİN QATINDA BİR GÜN SİZİN SAYDIQLARINIZIN MİN İLİ KİMİDİR.** Kim din qardaşının Allah yolunda bir ehtiyacını ödəyərsə, Allah-Təala onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi **BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ QƏDƏR SAVAB YAZAR".** (Əli bin Hüsaməddin əl-Müttəqi, Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 88)*

*"Dəqqaq bin Zeyd Cühənidən rəvayət edirlər: Mən gördüyüm bir yuxunu Rəsulullaha (səv) danışdım. Həmin yuxumda Peyğəmbər yeddi pilləli minbərin ən yuxarısında idi. O buyurdu ki, **YEDDİ PİLLƏLİ GÖRDÜYÜN MİNBƏR BU DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR".** (Əli bin Hüsaməddin əl-Müttəqi, Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 89)*

***BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, FƏQƏT MİN BEŞ YÜZ İLİ KEÇMƏYƏCƏK...** (Muhəmməd bin Rəsul əl-Hüseyni əl-Bərzənci, Qiyamət əlamətləri, "Pamuk" Nəşriyyatı, 2002, səh. 299)*

*İmam Suyutidən rəvayət edilən bir açıqlamada isə belə deyilir:*

***"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLİ ÇOX KEÇMƏYƏCƏK".*** *(Suyuti, əl-Kəşfu ən mücavəzəti-həzihil-ümməti- əl-əlfu; əl-havi-lil-fətavi, Suyuti. 2/248; Təfsiri-ruhul-bəyan, Bursəvi (ərəbcə) 4/262, Əhməd bin Hənbəl, Kitabül-iləl, səh.89)*

Peyğəmbərimizin (səv) hədislərindən və böyük İslam alimlərinin açıqlamalarından da açıq şəkildə başa düşüldüyü kimi, hazırda yaşadığımız hicri 1400-cü illər hz.Mehdinin zühur dövrüdür. Bu əsrdə hz.İsa yenidən yer üzünə gələcək, hz.Mehdi zühur edəcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

## Hz.Mehdinin zühur edəcəyi mühitin xüsusiyyətləri

***Qiyamət yaxınlaşdığı zaman və ölüm, aclıq, fitnələr, bidətlərin ortaya çıxması, sünnələrin, əmr bil-məruf və nəhy anil-münkər (yaxşılığı əmr edib pislikdən çəkindirmə) imkanlarının yox olması kimi səbəblərlə möminlərin qəlbi zəiflədiyi zaman mənim övladlarımdan hz.Mehdi ilə Cənabi-Haqq sünnələri canlandırar. Onun ədalət və bərəkəti ilə möminlərin qəlbi fərah tapar. Əcəm (ərəb olmayan) və ərəb millətləri arasında ülfət və məhəbbət hakim olar.***[47]

***Dünya hərc-mərclik içində qalanda, fitnələr zühur edəndə yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə, böyük kiçiyə mərhəmət etməyəndə və böyüyə hörmət qoyulmayanda Allah bu əsnada onlardan ədavətin kökünü qazıyaraq dəlalət qalalarını fəth edən və əvvəlcə mənim ayaqda saxladığım kimi, axırzamanda dini ayaqda saxlayan, əvvəlcədən zülmlə dolu olan dünyanı ədalətlə dolduran birini göndərəcək.***[48]

***Məğribdə qarışıqlıqlar, fitnələr və qorxu olacaq... Fitnələr çoxalacaq.***[49]

***Heç bir tərəfin ondan qoruna bilməyəcəyi bir fitnə çıxacaq, bu fitnə qaldığı yerdən başqa yerə yayılacaq...***[50]

***Hz.Mehdi çıxmadan əvvəl millətlər arasında ticarət və yollar kəsiləcək, insanlar arasında fitnələr çoxalacaq...***[51]

***Günahsız insanlar qətl olunana qədər hz.Mehdi zühur etməyəcək və qətliamlara yerdəkilər və göydəkilər artıq dözə bilmədiyi zaman zühur edəcək...***[52]

## Hz.Mehdi dövründəki həyat

*Peyğəmbərimiz (səv) ən başda İslamı ayaqda tutduğu kimi, hz.Mehdi də ən sonda eyni şəkildə İslamı ayaqda tutacaq.*[53]

*Düşmənlik və kini yox edəcək... Qab su ilə dolduğu kimi, yer üzü sülhlə dolacaq. Din birliyi də olacaq. Artıq Allahdan başqasına sitayiş etməyəcəklər. Müharibə də ağırlıqlarını buraxacaq.*[54]

*Onun zamanında qurdla quzu eyni yerdə oynayacaq, ilanlar uşaqlara zərər verməyəcək.*

*İnsan bir ovuc toxum səpəcək, 700 ovuc biçəcək.*

*Riya, riba, zina və içki qalmayacaq, ömürlər uzanacaq və əmanət zay edilməyəcək.*

*Peyğəmbərimizə nifrət edən qalmayacaq.*[55]

*İnsanlara mal və əşyanı saymadan paylayacaq.*[56]

*Heç kimin arasında düşmənlik qalmayacaq. Bütün düşmənliklər və dava-dalaşlar mütləq yox olub gedəcək.*[57]

*... O zaman yer və göy əhli, bütün yabanı heyvanlar, quşlar, hətta dənizdəki balıqlar belə onun xilafətinə sevinəcəklər. Onun dövründə axan bulaqların da suyu çoxalacaq. Hz.Mehdi xəzinələri ortaya çıxaracaq...*[58]

*Mənim ümmətim o dövrdə elə bir rifah tapacaq ki, o günə qədər onun bənzəri heç görülməmişdir...*[59]

*Onun ədaləti hər yerə yayılacaq. Zülm və fisqlə dolu dünya o gələndən sonra ədalətlə dolub daşacaq... Yer üzündə təhlükəsizlik olacaq və hətta bir neçə qadın yanlarında heç kişi olmadan rahat həccə gedə biləcəklər.*[60]

Burada yalnız bir qisminə yer verdiyimiz hədislər də açıq şəkildə göstərir ki, İslam dünyasını əhəmiyyətli və böyük inkişaflar gözləyir. Allah hər şey üçün olduğu kimi, İslam cəmiyyətlərinin qədərini müəyyən etmişdir. **"...O, Öz nurunu tamamlayar"** (Tövbə surəsi, 32) ayəsində bildirildiyi kimi, Quran əxlaqının bütün dünyaya yayılaraq dinə zidd fəlsəfələrin fikrən yox olacağı, yer üzündən fitnənin qaldırılması ilə bütün bəşəriyyətə sülh və qurtuluş gələcəyi Rəbbimizin bizə müjdəsidir. İslam əxlaqının dünyaya yayılacağı, insanların sülhə və təhlükəsizliyə qovuşacağı günlər Allahın izni ilə çox yaxındır. Unutmaq olmaz ki, Allahın səmimi iman edənlərə vədi onları da özlərindən əvvəlkilər kimi güc və iqtidar sahibi etməkdir. Ayədə belə buyurulur:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Hər müsəlman əxlaqını gözəlləşdirməli, İslama və müsəlmanlara faydalı işlərini mümkün qədər artırıb bu mübarək dövrə ən gözəl şəkildə hazırlaşmalıdır. Müsəlmanların insanların dalğa-dalğa Allahın dininə girdiklərini görəcəkləri dövrün tez gəlməsi üçün görülən ən əhəmiyyətli hazırlıqlardan biri İslam Birliyinin qurulmasıdır.

## İslam dünyasına çağırış

Bu gün artıq bütün dünyada dinə zidd fikir sistemləri getdikcə çökür, insanlar Allaha imana və din əxlaqına yönəlməyə davam edirlər. Bundan başqa, İslam aləmi dünya gündəliyinin əsas mövzusuna çevrilmiş, bütün gözlər Haqq dinə tərəf dönmüşdür. Yaşadığımız dövrün texnoloji imkanları müsəlmanların həm bir-biriləri ilə əməkdaşlıq etmələrini asanlaşdırmış, həm də insanlara İslam əxlaqının gözəlliklərini anlatmaq üçün hər cür əlaqə vasitələrini təmin etmişdir.

Lakin digər tərəfdən də İslam dünyasının bir qismində kasıblıq və cəhalət hökm sürür. Bunun fərqində olan bir qrup şəxs İslam adından dinə zidd əməllər törədərək müsəlmanları gözdən salırlar. İslam əxlaqına qarşı çıxan bəzi dairələr isə müsəlmanların bu vəziyyətindən sui-istifadə edib onlara qarşı hər cür zülmü tətbiq edirlər.

Həll yolu bütün müsəlmanları birləşdirən və onlara doğru yolu göstərən İslam Birliyinin qurulmasıdır. İslam Birliyinin qurulması üçün çalışmaq hər müsəlmanın vəzifəsidir:

Bütün müsəlman dövlətləri İslam Birliyinə hazırlaşmalıdır. Digər müsəlman ölkələrlə aralarındakı əlaqələri inkişaf etdirməli, bir tərəfdən də gerçək İslam əxlaqının öz ölkələrində daha çox yayılması üçün mədəni fəaliyyətlər göstərməlidir.

Bütün müsəlman qeyri-hökumət təşkilatları, müxtəlif qurum və fondlar, media mənsubları və fikir öndərləri müsəlmanların arasındakı ayrılıqların ortadan qalxması və birlik və bərabərliyin təmini üçün cəhd göstərməlidirlər.

Hər müsəlman fərd getdiyi məsciddə, oxuduğu məktəbdə, iş yerində, internet saytlarında, üzvü olduğu cəmiyyət və quruluşda dünya müsəlmanlarının birliyi üçün çalışmalı, digər müsəlmanları bu mövzuda təşviq etməlidir.

Dünyaya işıq tutacaq, müsəlmanlara və qeyrilərinə gözəllik təqdim edəcək, yer üzünə ədalət və sülh gətirəcək İslam mədəniyyətinin yenidən dirçəlişi bütün müsəlmanların duasıdır. Allahın izni ilə, İslam Birliyinin qurulması bütün gözəlliklərə vəsilə olacaq.

Bu mübarək vəzifədə xidmət etmək istəyən müsəlmanlar,

Gəlin, müsəlmanların arasını düzəldək. Bir-birinin məscidində namaz qılmayan, salamlaşmayan, bir-birinin yazdığı kitabı oxumayan, kiçik fikir ayrılığından dolayı qardaşına düşmən kəsilən müsəlmanların arasını düzəldək. Belə süni ayrılıqlar ortadan qalxsın. Allahın evləri olan məscidlər hər hansı qrupun və ya məzhəbin deyil, bütün müsəlmanların məscidi olsun. Hər müsəlman bir-biri ilə salamlaşıb kef-əhval tutsun, şəfqətli davransın. Bütün müsəlmanlar əlbir olub təvazökarlıqla Allaha daha çox yaxınlaşmaq və dininə daha çox xidmət etmək üçün çalışsınlar. Eyni zamanda Allahın bizə olan bu əmrini heç unutmasınlar:

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz (bir-birinizə) düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə, doğru yola gələsiniz. (Ali-İmran surəsi, 103)**

## TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi, həmçinin təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, qərəzli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər əsərlərimizdə də bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq bu mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə əsaslı şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı. Özünün də qəbul etdiyi kimi, sadəcə fikir irəli sürmək idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşılaşdığı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir təkzib etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

***1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.***

***2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.***

***3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.***

Bu bölmədə bu üç başlığı əsas prinsipləri ilə təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbii qanunlar çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “təsadüfi törəmə” (spontaneous generation) adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə

təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərinə əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır". (*Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh.2*)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır". (*Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196*)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin Yer kürəsi şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (*"New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, oktyabr 1982, səh. 1328-1330*)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü cəhdlər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada (Jeffrey Bada) təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (*Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*)

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların belə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələri birləşdirərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin ən əsas quruluş vahidi olan zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət orta ölçülü zülal üçün $10^{950}$ 1-dir. Ancaq riyaziyyatda 1050-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən “qeyri-mümkün” hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik informasiyanı daşıyan DNT molekulu böyük informasiya bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi informasiya kağıza köçürülsə, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr. Burada çox maraqlı dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə ikiləşir. Ancaq bu fermentlərin sintezi də ancaq DNT-dəki informasiya əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə ikiləşmənin (replikasiya) baş verməsi üçün hər ikisi eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə əmələ gəlməsi ssenarisini çıxılmaz vəziyyətdə qoyur. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orgel (Leslie Orgel) “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin əsla mümkün olmadığı nəticəsinə gəlir”. (*Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78*)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini təkzib edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü hər iki anlayışının, əslində, heç bir təkamül gücünə malik olmamağıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seçmə mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi: təbii seçmə yolu ilə...”

Təbii seçmə təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalması fikrinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq.

Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz. Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil.

Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", – demək məcburiyyətində qalmışdı. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189*)

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184*)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə "neodarvinizmi" ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozuntuları əlavə etdi.

Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan (B. G. Ranganathan) bunu belə açıqlayır:

*"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir*

*şəhəri daha da yaxşılaşdırmır, onu məhv edir". (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, təkbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişdirlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar. Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara keçid forması" adlandırırlar.

Həqiqətən də, bu cür canlılar keçmişdə yaşayıblarsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu acaib canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Ancaq bu sətirləri yazan Darvin ara keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyiblərsə,* ***nə üçün saysız-hesabsız ara keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?*** *Geologiya yaxşı dərəcələndirilmiş bir proses üzə çıxarmır və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq". ( Əlavə haşiyə: Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer (Derek V. Ager) təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

*“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”.* (*Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir.

Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Avstralopiteklər*

*Homo habilis*

*Homo erektus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən avstralopitek (“australopithecus”) adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York:*

*Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389*)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo ardıcıllığındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", – deyərək bunu qəbul edir. (*J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992*)

Təkamülçülər "avstralopitek > homo habilis > homo erektus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (*Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272*)

Habelə homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşdurlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər". (*S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30*)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə, telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqundə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarın bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı açıq misalla izah edək.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Bu ağlasığmaz iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni, sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı altında nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Yuxarıdakı misalda göstərildiyi kimi, təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünsək, bu həqiqət aşkar görünür.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir. Gözlə bağlı mövzuya keçməmişdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nahiyəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyinə heç bir işıq keçmir. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə

mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir.

Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görübsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə ikiölçülü görüntü göstərir, lakin siz üçölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üçölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üçölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üçölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq ən yüksək texnologiya ilə bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa, təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmamışdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi, cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gəlməyibsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əvəzedilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*“Bizim materializmə inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna gorə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin,

balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz.İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz.Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmamağı isə sözlə ifadə edilməyəcək qədər heyrətamizi vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz.Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz.Musa firona haqq dini təbliğ etdikdə firon hz.Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir.

Hz.Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz.Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz.Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elm adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar, təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi təsvir ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

